RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 68 (9813) 9 aprel 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## İran Azərbaycanla münasibətləri bütün sahələrdə inkişaf etdirməkdə maraqlıdır

### Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev son dövrlərdə Azərbaycanın və İranın yüksəksəviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin intensiv xarakter daşımasını məmnunluqla qeyd edərək, bunun ölkələrimiz arasında dostluğun möhkəmləndirilməsinə və ikitərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsinə yaxşı imkan yaratdığını dedi.

Dövlətimizin başçısı Fərzanə Sadiqin ölkəmizə səfəri çərçivəsində Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının iclasının keçirilməsini müsbət qiymətləndirdi və komissiyanın gündəliyində iqtisadi-ticari, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün vacib layihələrin olduğunu qeyd etdi.

Qonaq ilk növbədə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

İranın ölkəmizlə münasibətləri bütün sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu deyən Fərzanə Sadiq xalqlarımızın tarixi, mədəni, dini və qohumluq əlaqələrinin olduğunu bir daha vurğuladı.

Qonaq qeyd etdi ki, İran Prezidentinin ölkəmizə planlaşdırılan səfəri öncəsi Hökumətlərarası Birgə Komissiyanın iclasının keçirilməsi gündəlikdə duran vacib məsələlərin müzakirəsi baxımından olduqca əhəmiyyətlidir.

Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, Araz çayı üzərində Ağbənd və Kəlalə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi layihəsi və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## Müzəffər Ali Baş Komandan, hərbi güc, qüdrətli dövlət

### Ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar inamla icra edilir



Bu gün Azərbaycan qalib dövlət kimi regionda yalnız sülhün, təhlükəsizliyin tərəfdarıdır. Lakin məğlub Ermənistanın savaşdan 5 il ötməsinə baxmayaraq hələ də sülh müqaviləsini imzalamaqdan boyun qaçırması, vaxt udaraq gizli şəkildə silahlanması Azərbaycanı daha diqqətli olmağa sövq edir. Çünki tarixin bütün zamanlarında Azərbaycan xalqı erməni hiyləsinin, erməni məkrinin qurbanı olub.

İndi isə zaman dəyişib və bu gün diktə edən tərəf Azərbaycandır. Belə bir deyim də var ki, sülh istəyirsənsə, müharibəyə hazır ol! Əgər Ermənistan sülhdən yayınaraq guya gizli şəkildə yenidən silahlanırsa, onda Azərbaycan nədən öz hərbi gücünü daha da artırmasın?! Ermənistan yaxşı bilir ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildə ona qalib gələn ordudan daha da güclüdür. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Silahlı Qüvvələrində aparılan islahatlar, ordunun arsenalına daxil edilən zirehli texnikalar, modern silah-sursatlar bunu deməyə bir daha əsas verir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu istiqamətdə qarşıya qoyduğu yeni vəzifələrə, tələblərə uyğun olaraq ordumuzun maddi-texniki bazası daha da modernləşir, mütəmadi keçirilən hərbi təlimlər Silahlı Qüvvələrimizin gücünə güc qatır. Hazırda Azərbaycan, Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir. Həyata keçirilən ordu quruculuğu nəticəsində Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verə bilən Silahlı Qüvvələr kimi düşmənlərə göz dağı verir.

→ 6

## Azərbaycanın ECO çərçivəsində əməkdaşlığı: Regional inkişaf yolunda mühüm addımlar

Azərbaycanın xarici siyasətində ECO-ya üzv ölkələrlə əlaqələr önəmli yer tutur. Prezident İlham Əliyevin bununla bağlı çıxışı Azərbaycanın mövqeyini aydın şəkildə ifadə edib: "Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə münasibətlərimiz dostluq və qarşılıqlı hörmətə əsaslanır. Biz həmçinin beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə səmərəli əməkdaşlıq edirik".



Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatında iqtisadi təşəbbüsləri və regional liderlik rolu ölkənin son illərdə artan iqtisadi gücü, strateji mövqeyi və çoxşaxəli diplomatik fəallığı fonunda ön plana çıxır. Azərbaycan regionda ticarət, enerji, nəqliyyat və logistika sahələrində irəli sürdüyü təşəbbüslərlə ECO məkanında əməkdaşlığın dərinləşdirilməsinə mühüm töhfələr verir. Bakı-Tbilisi-Qars dəmir yolu, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və "Cənub qaz dəhlizi" kimi layihələr bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Təşkilatın fəal və etibarlı üzvü olan Azərbaycan regionda bir sıra təşəbbüslərlə çıxış edir və ECO çərçivəsində reallaşdırılan layihələrdə mühüm mövqeyə malikdir. ECO-ya üzv ölkələrin Avropa və Çin arasındakı coğrafiyada yerləşməsi geosiyasi və geoiqtisadi baxımdan olduqca əhəmiyyətlidir. Bu, təşkilatın strateji mövqeyini gücləndirir və üzv dövlətlərin birgə fəaliyyətlərini daha da səmərəli edir.

Azərbaycan ECO-nun üzvü olaraq təşkilatın məqsəd və prinsiplərinə sadiqliyini dəfələrlə nümayiş etdirib.

→ 8

## İlham Əliyevin qətiyyəti "yaşıl enerji"yə yaşıl işıq yandırıb

Azərbaycan Avropaya "yaşıl enerji" dəhlizi çəkməyi də hədəfləyib. Məşvərət Şurasında bu barədə geniş söhbət gedib. İndi həmin layihənin texniki əsaslandırma işləri son mərhələdədir. Prezident İlham Əliyev sözügedən tədbirdə diqqəti layihənin maliyyələşdirilməsi məsələsinə yönəldərək demişdir: "Əlbəttə, biz indidən söyləyə bilərik, ümid edirik ki, "yaşıl enerji" layihələrinin maliyyələşdirilməsi ilə bağlı məhdudiyyətlər qoyulmayacaq. Lakin düşünürəm ki, Avropa təsisatlarında həmin layihələrin ümumi maraq doğuran layihə səviyyəsinə qədər təkmilləşdirilməsi vacibdir".

Prezidentimiz həmçinin bildirmişdir ki, biz nəhəng hasilat və nəqletmə layihələrinin icrasını mümkün etmiş korporativ maliyyələşmə, o cümlədən borca götürülmüş pul vəsaitlərinin kombinasiyasında böyük təcrübəyə malikik. "Azəri-Çıraq-Günəşli", "Şahdəniz" və "Abşeron" bu gün bir çox ölkənin enerji təhlükəsizliyini təmin edən neft və qaz yataqlarıdır. Bir neçə ildən sonra digər neft-qaz yataqlarının da istismarına başlanılacaq. Müqavilələr artıq imzalanıb, işçi proqram təsdiqlənib. İndiyədək gerçəkləşdirilən layihələr, o cümlədən "Cənub qaz dəhlizi" bütün iştirakçılarla əməkdaşlıq sayəsində araya-ərsəyə gəlmişdir: "Beləliklə, faydalı qazıntı layihələrinin maliyyələşdirilməsinin dayandırılması siyasəti başlayanda bu, investorlara, şirkətlərə, ölkələrə müsbət olmayan siqnal göndərir...

→ 7

## Ermənistan atəşkəsi pozmaqla Azərbaycanı təxribata çəkməyə çalışır



Ermənistan şərti sərhədlərimizdə tikdiyi dərin bunkerlərdə alınmış silahları yerləşdirməklə yenidən müharibə üçün dayaq nöqtələri yaradır. Eyni zamanda mütəmadi atəşkəsi pozmaqla ölkəmizi təxribata çəkməyə çalışır. Hətta Xanazak kəndində özləri kiminsə pəncərəsinə atəş açaraq guya Azərbaycan Ordusu tərəfindən atəşkəsin pozulduğunu sübut etməyə çalışırlar. Amma araşdırmalar Ermənistanın yalanlarını ifşa etdi. Ermənistanın məqsədi Azərbaycan haqqında beynəlxalq ictimaiyyətdə pis imic formalaşdırmaq və yenidən münaqişəyə başlayacaqları təqdirdə ölkəmizə beynəlxalq təzyiqin göstərilməsinə nail olmaqdır.

→ 9

## "Tibb məntəqəmiz, sanitar maşınlarımız, həkimlərimiz artilleriya zərbələrinə məruz qalmışdı"

İclasda Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, Ermənistan dövləti tərəfindən aparılan təcavüzkar müharibənin gedişində çoxsaylı cinayət faktları törətmiş cinayətkar birliyə təqsirləndirilən şəxs Ruben Vardanyan 2020-ci ilin dekabr ayında qoşulduqdan sonra həmin birlik tərəfindən törədilən cinayətlər nəticəsində zərərçəkmiş şəxslər dindirilib.

→ 9



# "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 15-ci və 27-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Su Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 135 (Cild I); 2024, № 3, maddə 250) 41-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında "istifadəsinə antiinhisar" sözləri "istifadəsində rəqabətə dair" sözləri ilə əvəz edilsin;

1.2. üçüncü hissədə "Azərbaycan Respublikasının qanunvericiliyində" sözləri "qanunda" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 122-VIIQD nömrəli və 2025-ci il 14 fevral tarixli 140-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.5-ci maddəyə "maliyyə" sözündən sonra ", rəqabət" sözü əlavə edilsin;

2.2. 791.2-ci maddədən "(inhisar hüququna)" sözləri çıxarılsın;

2.3. 793.1.2-ci maddədə "inhisar" sözü "müstəsna" sözü ilə əvəz edilsin;

2.4. 800.1.3-cü maddədən "(inhisar hüququ)" sözləri çıxarılsın;

2.5. aşağıdakı məzmunda 802.4-cü maddə əlavə edilsin:

"802.4. Bu Məcəllənin 802.3-cü maddəsi Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində nəzərdə tutulan hallara tətbiq olunmur.".

**Maddə 3.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 110-VIIQD nömrəli və 2025-ci il 3 fevral tarixli 135-VIIQD nömrəli qanunları) 30.6.15-ci maddəsində "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin 1-ci hissəsinin" sözləri "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 29.7-ci və 56.1-ci maddələrinin" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 1013; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci maddənin 1-ci hissəsinə "Məcəlləsi," sözündən sonra "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi," sözləri əlavə edilsin;

4.2. 7-ci maddənin 1-ci hissəsi üzrə:

4.2.1. on beşinci abzasda "antiinhisar" sözü "rəqabət" sözü ilə əvəz edilsin;

4.2.2.on altıncı abzasda "rəqabət metodlarından" sözləri "rəqabətin formalarından" sözləri ilə əvəz edilsin;

4.3. 13-cü maddənin 1-ci hissəsinin ikinci abzasında "antiinhisar" sözü "rəqabət" sözü ilə əvəz edilsin;

4.4. 16-cı maddənin ikinci cümləsində "Antiinhisar fəaliyyəti" sözləri "Rəqabət" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "Rəsmi statistika haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 11, maddə 115; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 16-cı maddəsinin dördüncü hissəsində "Hüquqi" sözü "Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, hüquqi" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Əmtəə birjası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 16, maddə 211; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 6-cı maddəsinin 2-ci hissəsində "antiinhisar" sözü "rəqabət" sözü ilə əvəz edilsin və həmin hissədən "aradan qaldırmaq, yaxud onu" sözləri çıxarılsın.

**Maddə 7.** "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 23-24, maddə 368; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 2, maddə 132, № 6 (I kitab), maddə 631; Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 105-VIIQD nömrəli Qanunu) 8-ci maddəsinin birinci cümləsində "onun nizamnamə fəaliyyətindən, yaxud istehsal imkanlarından kənara çıxdığını sübut etdiyi" sözləri "qanunda nəzərdə tutulan" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 167 (Cild I); 2024,№ 11, maddə 1184) 41-ci maddəsinin 2-ci hissəsinin üçüncü abzasında "antiinhisar" sözü "rəqabət" sözü ilə əvəz edilsin.

**Maddə 9.** "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 485 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 119-VIIQD nömrəli Qanunu) 31-ci maddəsinin ikinci hissəsində "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanunu" sözləri "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi" sözləri ilə əvəz edilsin.

**Maddə 10.** "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 565 (Cild I) 12-ci maddəsinin ikinci hissəsinin üçüncü abzasında "antiinhisar" sözü "rəqabət" sözü ilə əvəz edilsin.

**Maddə 11.** "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 125 (Cild I); 2024, № 3, maddə 248; Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli112-VIIQD nömrəli Qanunu) 21-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində "antiinhisar" sözü "rəqabət" sözü ilə əvəz edilsin.

**Maddə 12.** "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 485 (Cild I); 2024, № 2, maddə 138) 5-ci maddəsinə aşağıdakı məzmunda 12-ci hissə əlavə edilsin:

"12. Kredit ittifaqları tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində nəzərdə tutulan qaydada həyata keçirilir.".

**Maddə 13.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 77-VIIQD nömrəli və 29 dekabr tarixli 121-VIIQD nömrəli qanunları) aşağıdakı məzmunda 2.0.8-3-cü və 20-5-ci maddələr əlavə edilsin:

"2.0.8-3. təmərküzləşmələrlə bağlı ərizələrin araşdırılması;";

**"Maddə 20-5. Təmərküzləşmələrlə bağlı ərizələrin araşdırılması üçün tutulan dövlət rüsumunun dərəcəsi**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 1 | 2 |
| Təmərküzləşmələrlə bağlı ərizələrin araşdırılmasına görə | 100 manat |

**Maddə 14.** "Kommersiya sirri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 741 (Cild I) 4.1.13-cü maddəsində "antiinhisar" sözü "rəqabət" sözü ilə əvəz edilsin.

**Maddə 15.** "Tənzimlənən qiymətlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 536 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

15.1. 1-ci maddədə "bu Qanundan, "Təbii inhisarlar haqqında", "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız rəqabət haqqında" sözləri "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsindən, bu Qanundan" sözləri ilə, "qanunlarından" sözü "Qanunundan" sözü ilə əvəz edilsin;

15.2. 3-cü maddə üzrə:

15.2.1. 3.1-ci maddədə "təbii inhisar, dövlət inhisarı və inhisarçı subyektlərin" sözləri "dövlət inhisarında olan məhsullara (mallara, işlərə, xidmətlərə), təbii inhisar subyektlərinin" sözləri ilə əvəz edilsin;

15.2.2.3.2-ci maddədə "təbii inhisar, dövlət inhisarı və inhisarçı subyektlərin məhsullarının (malların, işlərin, xidmətlərin)" sözləri "məhsulların (malların, işlərin, xidmətlərin)" sözləri ilə əvəz edilsin;

15.3. 7.1.6-cı maddədə "antiinhisar" sözü "rəqabət" sözü ilə əvəz edilsin.

**Maddə 16.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8 (Cild I); 2024, № 7, maddə 743, № 12 (I kitab), maddə 1281; Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 120-VIIQD nömrəli Qanunu) 15.9.1-1-ci maddəsində "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin 1-ci hissəsinin" sözləri "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 29.7-ci və 56.1-ci maddələrinin" sözləri ilə əvəz edilsin.

**Maddə 17.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130 (Cild I); 2024, № 2, maddə 138; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 77-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

17.1. 35.3-cü maddənin ikinci cümləsi çıxarılsın;

17.2. aşağıdakı məzmunda 41.2.10-1-ci maddə əlavə edilsin:

"41.2.10-1. Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada - rəqabət orqanına;";

17.3. 46.2-ci maddənin birinci cümləsindən "yalnız" sözü çıxarılsın;

17.4. aşağıdakı məzmunda 46.8-ci maddə əlavə edilsin:

"46.8. Banklar və xarici bankların yerli filialları tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində nəzərdə tutulan qaydada həyata keçirilir.".

**Maddə 18.** "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 604 (Cild I); 2024, № 2, maddə 138, № 11, maddə 1184) aşağıdakı məzmunda 13-4.8-ci maddə əlavə edilsin:

"13-4.8. Milli operator tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində nəzərdə tutulan qaydada həyata keçirilir.".

**Maddə 19.** "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 605 (Cild I); 2024, № 1, maddələr 2, 11, № 7, maddə 764) aşağıdakı məzmunda 12.1-1-ci maddə əlavə edilsin:

"12.1-1. Təbii inhisar subyektləri tərəfindən sahibkarlıq fəaliyyətinin nəticələrinə dair maliyyə hesabatlarının rəqabət orqanına təqdim edilməsi Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi ilə tənzimlənir.".

**Maddə 20.** "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 685 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

20.1. 6.1.5-ci maddədən "və antiinhisar fəaliyyətin" sözləri çıxarılsın;

20.2. 11-ci maddə üzrə:

20.2.1. adından "və antiinhisar fəaliyyətin" sözləri çıxarılsın;

20.2.2. 11.2-ci maddənin birinci abzasında "antiinhisar qanunvericiliyə" sözləri "rəqabət qanunvericiliyinə" sözləri ilə əvəz edilsin və həmin maddəyə "fəaliyyətində" sözündən sonra "rəqabət qanunvericiliyinə və" sözləri əlavə edilsin;

20.2.3. 11.2.2-ci və 11.2.3-cü maddələrdə "qanunvericilikdə" sözü "qanunda" sözü ilə əvəz edilsin.

**Maddə 21.** "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1080 (Cild I) 9.3.1-ci və 29.1.25-ci maddələri aşağıdakı redaksiyada verilsin:

"9.3.1. təbii inhisar subyektləri - istehsalını (satışını) həyata keçirdikləri məhsulların siyahısı, məhsullar üzrə qiymətlərin siyahısı (tənzimlənən və tənzimlənməyən qiymətləri fərqləndirməklə), müştərilər tərəfindən məhsulların əldə edilməsi (qoşulması, istifadə edilməsi) üçün tələb olunan şərtlər, müqavilənin forması və bağlanılması qaydası, müştərilər tərəfindən şikayətlərin edilməsi qaydasına aid informasiyalar üzrə;";

"29.1.25. təbii inhisar subyektləri - istehsalını (satışını) həyata keçirdikləri məhsulların siyahısı, məhsullar üzrə qiymətlərin siyahısı (tənzimlənən və tənzimlənməyən qiymətləri fərqləndirməklə), müştərilər tərəfindən məhsulların əldə edilməsi (qoşulması, istifadə edilməsi) üçün tələb olunan şərtlər, müqavilənin forması və bağlanılması qaydası, müştərilər tərəfindən şikayətlərin edilməsi qaydasına aid informasiyalar;".

**Maddə 22.** "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 144 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

22.1. 12.2-ci maddədə "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız rəqabət haqqında" və "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının qanunlarına" sözləri "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə" sözləri ilə əvəz edilsin;

22.2. 97-ci maddənin mətni 97.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 97.2-ci maddə əlavə edilsin:

"97.2. Sığorta bazarının peşəkar iştirakçıları tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti ilə bağlı yoxlamalar Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində nəzərdə tutulan qaydada həyata keçirilir.".

**Maddə 23.** "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 209 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanunu) 8.1.3-cü maddəsindən "antiinhisar siyasəti və" sözləri çıxarılsın.

**Maddə 24.** "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 72 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

24.1. 4.2-ci maddənin ikinci cümləsində "antiinhisar" sözü "rəqabət" sözü ilə əvəz edilsin;

24.2. aşağıdakı məzmunda 24.7-ci maddə əlavə edilsin:

"24.7. BOKT-lər tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində nəzərdə tutulan qaydada həyata keçirilir.".

**Maddə 25.** "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 950 (Cild I) 48.1.10-cu maddəsinə "qaydada" sözündən sonra ", habelə investisiya fondları tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti ilə bağlı Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində nəzərdə tutulan qaydada" sözləri əlavə edilsin.

**Maddə 26.** "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 890 (Cild I); 2024, № 4, maddə 365) aşağıdakı dəyişikliklər edilsin:

26.1. aşağıdakı məzmunda 2.1-1-ci və 2.2-4-cü maddələr əlavə edilsin:

"2.1-1. Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 43-45-ci maddələrinə əsasən həyata keçirilən nəzarət tədbirləri və həmin Məcəllənin 11-ci fəslinə uyğun olaraq rəqabət komissiyası tərəfindən rəqabət qanunvericiliyinin pozulması haqqında işlərə baxılması yoxlama tədbiri hesab edilmir.";

"2.2-4. Bu Qanun rəqabət orqanı tərəfindən təbii inhisar subyektlərində aparılan yoxlamalara şamil edilmir.";

26.2. 3.1-ci maddəyə "yalnız" sözündən əvvəl "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin tələbləri nəzərə alınmaqla" sözləri əlavə edilsin.

**Maddə 27.** "Dəniz limanları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 464 (Cild I); 2024, № 2, maddə 136, № 4, maddə 365) 15.4-cü maddəsində "təbii inhisar subyektlərinin fəaliyyət sahəsinə aid olmayan" sözləri "qiymətləri dövlət tərəfindən tənzimlənməyən" sözləri ilə əvəz edilsin.

**Maddə 28.** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 813 (Cild I) 85-ci maddəsinin mətni 85.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 85.2-ci maddə əlavə edilsin:

"85.2. Lisenziyalaşdırılan şəxslər və mərkəzi depozitar tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti ilə bağlı yoxlamalar Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində nəzərdə tutulan qaydada həyata keçirilir.".

**Maddə 29.** "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 1997 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 11, maddə 1193) aşağıdakı məzmunda 7.7-ci maddə əlavə edilsin:

"7.7. Kredit bürosu tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində nəzərdə tutulan qaydada həyata keçirilir.".

**Maddə 30.** "Media haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 90 (Cild I); 2024, № 5 (I kitab), maddələr 488, 494, № 7, maddə 775; Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 119-VIIQD nömrəli Qanunu) 54.1.2-ci maddəsində "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunundan" sözləri "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsindən" sözləri ilə əvəz edilsin.

**Maddə 31.** "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 15 (Cild I) 3.2.6-cı maddəsində "haqsız rəqabət haqqında qanunvericiliyə" sözləri "rəqabət qanunvericiliyinə" sözləri ilə əvəz edilsin.

**Maddə 32.** "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1134 (Cild I) aşağıdakı məzmunda 62.11-ci maddə əlavə edilsin:

"62.11. Ödəniş xidməti təchizatçıları və operatorlar tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində nəzərdə tutulan qaydada həyata keçirilir.".

**Maddə 33.** "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1593 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

33.1. 9.2-ci maddədə "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanunu" sözləri "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi" sözləri ilə, "Qanuna" sözü "Məcəlləyə" sözü ilə əvəz edilsin;

33.2. 10.2-ci maddə üzrə:

33.2.1. ikinci cümləyə "tənzimləyiciyə" sözündən sonra ", təbii inhisar subyektinə münasibətdə Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə uyğun olaraq həmçinin rəqabət orqanına" sözləri əlavə edilsin;

33.2.2. üçüncü cümlədə "Tənzimləyici imtinanın əsassız olduğunu müəyyən etdikdə, onun tələbi ilə" sözləri "İmtinanın əsassız olduğu müəyyən edildikdə tənzimləyicinin tələbi, habelə rəqabət orqanın qərarı ilə" sözləri ilə əvəz edilsin;

33.3. 11.1-ci maddədə "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2025-ci il*

## M.C.Əliyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai fəaliyyətinə görə Məmmədbağır Cavad oğlu Əliyev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2025-ci il*

## Azərbaycan Respublikasının Prezidentizati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Müqəddəs Ramazan bayramı münasibətilə Zati-alinizi İraq xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram.

Uca Allahdan Sizə cansağlığı və səadət, Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

*Ən dərin ehtiramla,*

***Məhəmməd Şiya əs-SUDANİ,***
***İraq Respublikasının Baş naziri***

## "Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 341 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 101** **Bakı şəhəri, 8 aprel 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 341 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1075 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə Qaydası" üzrə:

2.1. 3.5-ci bənd üzrə:

2.1.1. birinci cümləyə "(bundan sonra - Agentlik)" sözlərindən sonra "və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi (bundan sonra - Mərkəz)" sözləri əlavə edilsin və həmin cümlədə "keçirir" sözü "keçirirlər" sözü ilə əvəz edilsin;

2.1.2. ikinci cümləyə "Agentlik" sözündən sonra "və Mərkəz" sözləri əlavə edilsin və həmin cümlədə "edir" sözü "edirlər" sözü ilə əvəz edilsin;

2.2. 3.6-cı bənddə "Agentliyin bank hesabına" sözləri "Agentliyin və Mərkəzin bank hesablarına" sözləri ilə əvəz edilsin;

2.3. 4.1-ci bəndə "Agentlik" sözündən sonra "və Mərkəz" sözləri əlavə edilsin və həmin cümlədə "edir" sözü "edirlər" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Aviasiya təhlükəsizliyinin təmini sahəsində personalın hazırlığı Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 102** **Bakı şəhəri, 8 aprel 2025-ci il**

"Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 avqust tarixli 1139 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Aviasiya təhlükəsizliyinin təmini sahəsində personalın hazırlığı Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. "Aviasiya təhlükəsizliyi sahəsində personalın hazırlığına dair Qaydalar"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 13 oktyabr tarixli 431 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1894 (Cild I) ləğv edilsin.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Müstəqilliyimiz əbədidir: İslam dininin, "Qurani-Kərim"in Azərbaycan xalqı üçün açdığı yol davam edəcək

**"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 6-cı kitabı çapdan çıxıb.**

AZƏRTAC xəbər verir ki, bu kitabda yer alan materiallar 1994-cü il dekabrın 11-dən 1995-ci il martın 8-dək olan dövrü əhatə edir. Kitaba Ulu Öndər Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri, məktubları daxil edilib. Nəşrdəki materiallarda Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu prosesindən, ictimai-siyasi, iqtisadi, mədəni həyatın bir çox sahələrindən, xarici ölkələrlə əlaqələrin genişləndirilməsindən bəhs olunur.

Bu kitabda Ulu Öndər Heydər Əliyevin İslam Konfransı Təşkilatının (indiki İslam Əməkdaşlıq Təşkilatının) Kasablankada 7-ci Zirvə toplantısı çərçivəsində keçirdiyi çoxsaylı görüş və çıxışları, müsahibələri yer alıb. Məsələn, 1994-cü il dekabrın 11-də Zirvə toplantısına yola düşərkən Bakıda hava limanında jurnalistlərlə görüşən Ümummilli Lider İƏT-in fəaliyyətini yüksək qiymətləndirərək demişdi: "İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edir. Onların 1 milyarddan artıq əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək, həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatların hamısı öz səylərini, nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər".

Görkəmli dövlət xadimi Heydər Əliyev 1994-cü il dekabrın 13-də Zirvə toplantısında söylədiyi nitqdə İslam dünyasının bəşər sivilizasiyasına layiqli töhfələr verdiyini qeyd edib, müsəlman ölkələrinin inkişafına mane olan problemlərin aradan qaldırılmasının vacibliyini vurğulayaraq deyib: "İslam dünyası ümumbəşəri sivilizasiyaya öz layiqli töhfəsini vermişdir və neçə əsrdir onun mənəvi inkişafına və təkmilləşdirilməsinə kömək edir. Bu gün dünyada mürəkkəb, ziddiyyətli proseslər getməkdədir. Viranedici qlobal müharibənin qarşısının alınması, dünyanın təhlükəsizliyinin yeni təməlinin qoyulması kimi müsbət meyillər regional münaqişələrin artması ilə, yırtıcı millətçiliklə və dövrün başqa bəlaları ilə qarşılaşır. Bizim ölkələrimiz bu proseslərin qaynağındadır və biz beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə, sülh və tərəqqi qüvvələrinin qələbəsinə




layiqli yardım etməli, öz səylərimizi göstərməliyik. Bunun naminə müsəlman ölkələrinin inkişafına mane olan əngəllər aradan qaldırılmalı, bir-birimizə yardım əli uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlarımıza birlikdə kömək etməliyik".

Qeyd edək ki, Zirvə toplantısının yekun iclasında Asiya dövlətləri adından təbrik nitqini də görkəmli dövlət xadimi Heydər Əliyev söyləyib. Həmin Zirvə görüşünün yekun sənədinə Ermənistanın Azərbaycana qarşı təcavüzünü ittiham edən bəndlər (Yekun Kommünikenin 68-71-ci bəndləri) salınıb. Bu bəndlərdə BMT Təhlükəsizlik Şurası Azərbaycana qarşı təcavüz edildiyini qəbul etməyə və buna qarşı öz Nizamnaməsinə uyğun olaraq müvafiq tədbirlər görməyə çağırılıb.

Bu kitabda Ümummilli Liderin böyük Azərbaycan rəssamı Səttar Bəhlulzadənin 85 illiyinə həsr edilmiş tədbirdə söylədiyi nitqi də verilib. Ulu Öndərin bu nitqi həm də onun incəsənətin rəssamlıq qolunu necə dərindən bildiyini göstərir: "Onun yaratdıqları adi rəsm əsərləri deyildir. Səttar Bəhlulzadə yaradıcılığa klassik üslubdan başlayıb - biz sərgidə bunun nümunəsini gördük, sonra isə özünəməxsus, öz aləminə, öz dünyasına, öz fəlsəfəsinə məxsus bir rəssamlıq yolu seçib və həmin yola daim sadiq olubdur. O vaxtlar - 50-ci, 60-cı illərdə, yəni Səttar Bəhlulzadənin ilk əsərləri yaranan zaman bəziləri onu anlamırdılar, bəziləri qəbul etmirdilər. Bəziləri isə bu əsərlərin nə qədər qiymətli olduğunu bilmirdilər. Ona görə də bəzən klassik üslubda çəkilən əsərlərə üstünlük verilirdi, Səttar Bəhlulzadənin əsərləri isə kənarda qalırdı. Ancaq zaman keçdi və Səttar Bəhlulzadə çox inadla öz yaratdığı üslubu, öz məktəbini davam etdirdi və yeni bir rəssamın yaranmasını nəinki Azərbaycana, həm də bütün dünyaya nümayiş etdirdi".

Dahi rəhbər Heydər Əliyev gərgin iş qrafikinə baxmayaraq, ölkənin mədəni həyatını həmişə diqqətində saxlayırdı, bununla bağlı bir sıra tədbirlərdə şəxsən iştirak edirdi. Belə tədbirlər sırasında Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışını və ədibin 125 illiyinə həsr edilmiş mərasimi də qeyd etmək olar. Tədbirdə çıxış edən Ulu Öndər Heydər Əliyev Cəlil Məmmədquluzadənin əsərlərini yüksək qiymətləndirmiş, "Ölülər" pyesinin aktuallığına diqqət çəkərək demişdi: "Biz indi öz dinimizə qayıtmışıq. Din mənəvi mənbələrimizdən biridir. İslam dininin, "Qurani-Kərim"in Azərbaycan xalqı üçün açdığı yol davam edəcək və biz get-gedə dinimizin hər yerdə özünə layiq yer tutmasına imkan yaradacağıq. Ancaq biz Cəlil Məmmədquluzadənin "Ölülər" əsərindən bu gün də bəhrələnməlyik. Çünki bu gün də dini təhrif edənlər, dindən öz məqsədləri üçün istifadə edənlər, dindən istifadə edərək xalqımızı cəhalətə uğratmağa çalışanlar az deyil. Mirzə Cəlil isə beləlləri ilə o vaxt mübarizə aparıb və "Ölülər" əsəri ilə bizə bu vəsiyyəti edibdir. Biz də onun vəsiyyətini yerinə yetirməliyik".

Oxucu bütün bu çıxışların mətnləri ilə çoxcildliyin 6-cı kitabında tanış ola bilər.

Nəşrdə Ümummilli Liderin aqrar bölmədə islahatlara həsr olunmuş respublika müşavirəsində söylədiyi nitqin, habelə "Reklamnıy Vestnik"in müxbirinə müsahibəsinin mətnləri də yer alıb. Bu cilddə, həmçinin Azərbaycan dövlətinin möhkəmləndirilməsi, ölkənin bazar iqtisadiyyatına keçid dövründə yaranmış çətinliklərin aradan qaldırılması, respublikamızın ərazi bütövlüyünün bərpası üçün ölkə rəhbərinin beynəlxalq aləmdə apardığı intensiv danışıqlara, erməni təcavüzünün ağır nəticələrinin aradan qaldırılmasına, daxili və xarici siyasətin başlıca istiqamətlərinə dair materiallara geniş yer verilib.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

# Nazirlər Kabinetində İran nümayəndə heyəti ilə görüş keçirilib

Aprelin 8-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayev ölkəmizdə səfərdə olan İran İslam Respublikasının yol və şəhərsalma naziri, Komissiyanın İran tərəfindən həmsədri Fərzanə Sadiqlə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə keçirilən görüşdə Azərbaycan və İran prezidentləri arasında təmasların ikitərəfli gündəliyin müəyyən edilməsi, həmçinin dövlətlərarası münasibətlərin müxtəlif istiqamətlərdə inkişafı baxımından böyük önəm kəsb etdiyi vurğulanıb.

Qeyd edilib ki, prezidentlər arasında təmaslar və konstruktiv dialoq son dövrlərdə Azərbaycan ilə İran arasında müxtəlif səviyyələrdə ikitərəfli səfərlərin intensiv xarakter daşımasına təkan verib, bu da əlaqələrin dinamik inkişafının təzahürüdür.

İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizə baş tutacaq səfərinin əhəmiyyətinə toxunularaq, bu səfərin tarixən dostluq və mehriban qonşuluqdan qaynaqlanan ikitərəfli münasibətlərin inkişafında yeni səhifə açacağına əminlik ifadə olunub.

Azərbaycan-İran əlaqələrinin bu gün müxtəlif sahələrdə müsbət dinamika nümayiş etdirdiyi diqqətə çatdırılıb. Bununla yanaşı, bir çox istiqamətlərdə, xüsusilə də ticarət, investisiya, nəqliyyat, neft-qaz, energetika, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu bildirilib.

İqtisadi-ticari əməkdaşlığın inkişafından məmnunluq ifadə olunaraq, qarşılıqlı ticarət dövriyyəsinin həcminin ötən il 32 faizdən çox artdığı qeyd edilib. Prezidentlər tərəfindən verilən tapşırıqlara uyğun olaraq ticarət əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində mövcud potensialın maksimum dərəcədə reallaşdırılması üçün hökumətlər səviyyəsində birgə səylərin göstərildiyi diqqətə çatdırılıb.

İnvestisiya sahəsində əməkdaşlığın inkişafı vurğulanıb, Azərbaycanda fəaliyyət göstərən İran investisiyalı kommersiya qurumlarının sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və xidmət sahələrini əhatə etdiyi qeyd olunub.

Nəqliyyat sahəsi ikitərəfli əməkdaşlığın əsas istiqamətlərindən biri kimi dəyərləndirilib. Bildirilib ki, 2024-cü ildə Azərbaycan ilə İran arasında ikitərəfli yükdaşımaların həcmi 20 faiz, tranzit daşımaları isə 23 faizdən çox artıb.

Nəqliyyat sahəsində prezidentlər səviyyəsində əldə olunmuş razılaşmaların hər iki hökumət üçün yol xəritəsi olduğu bildirilərək, bu kontekstdə bir sıra qarşılıqlı faydalı layihələrin icra olunmasından, digər əhəmiyyətli layihələr üzrə isə səmərəli işbirliyinin davam etməsindən məmnunluq ifadə olunub. Vurğulanıb ki, bu layihələr hər iki ölkənin nəqliyyat əlaqələrinin genişlənməsi ilə yanaşı, regionun xüsusilə nəqliyyat və logistika imkanlarının artmasına hesablanıb. Bunların sırasında Şimal-Cənub nəqliyyat dəhlizinin təşviqi, o cümlədən Astara yük terminalının tikintisi üzrə davam edən işlər və Astaraçay çayı üzərində inşa olunmuş yeni avtomobil və piyada körpüsü xüsusi qeyd edilib. Həmçinin Şərq-Qərb dəhlizinin inkişafının, o cümlədən İran ərazisindən keçməklə Naxçıvanla ən qısa əlaqəni təmin edəcək Ağbənd-Kəlalə avtomobil və dəmir yolu bağlantısının yaradılmasını, Siyahrud-Ordubad avtomobil körpülərinin inşasını nəzərdə tutan Şərqi Zəngəzur-Naxçıvan nəqliyyat infrastrukturunun əhəmiyyəti vurğulanıb, habelə müvafiq sərhəd-gömrük infrastrukturunun tikintisinin önəmi diqqətə çatdırılıb.

Eyni zamanda Ağbənd-Cəbrayıl-Ağdam-Yevlax-Gürcüstan avtomobil marşrutunun, bununla yanaşı, Ağbənd-Laçın-Kəlbəcər-Gəncə-Gürcüstan marşrutunun da gələcəkdə istifadəyə verilməsinin regionda yük və sərnişin daşımaları baxımından yeni imkanlar açacağına əminlik ifadə olunub. Bu marşrutların körfəzi Qara dənizlə birləşdirən ən əlverişli marşrutlardan birinə çevriləcəyi vurğulanıb.

Energetika sahəsində əməkdaşlığın da uğurlu layihələrlə müşayiət olunduğu və nümunəvi xarakter daşıdığı bildirilib. Araz çayı üzərindəki "Xudafərin" və "Qız qalası" hidroqovşaqları, su elektrik stansiyaları, həmçinin Ordubad və Marazad su elektrik stansiyaları ilə bağlı Azərbaycan-İran əməkdaşlığının önəminə toxunulub. Vurğulanıb ki, hər iki ölkə üçün böyük əhəmiyyət daşıyan bu infrastruktur layihələri bölgədə inkişafa və tərəqqiyə xidmət edir.

Bildirilib ki, elektrik enerjisi sahəsində əməkdaşlıq istiqamətində qarşılıqlı fəaliyyət davam etdirilib. Azərbaycan ilə İran arasında 5 nöqtədə ümumi ötürmə gücü 860 MVt olan elektrik ötürücü xətlərin qarşılıqlı bağlantısı mövcuddur, bu da enerji təhlükəsizliyinin və dayanıqlı əməkdaşlığın təmin olunmasında mühüm rol oynayır.

Bununla yanaşı, Şərqi Zəngəzur iqtisadi rayonunu İran ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək elektrik verilişi xəttinin tikintisinin enerji təhlükəsizliyinin təmin olunmasına xidmət etməklə bərabər, ölkələrimiz arasında elektroenergetika sahəsində əməkdaşlığın möhkəmlənməsinə də böyük töhfələr verəcəyinə əminlik ifadə olunub.

Neft-qaz sahəsində həyata keçirilən uğurlu layihələrin önəmi vurğulanaraq, bu sahədə əməkdaşlıq üçün yeni imkanların mövcud olduğu məmnunluqla qeyd edilib.

Səfər zamanı həmsədrlər ikitərəfli layihələrin bir neçəsinin icra vəziyyəti, həmçinin bir sıra infrastruktur obyektlərinin fəaliyyəti ilə tanış olacaqlar.

Tərəflər Azərbaycan-İran əlaqələrinin müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayaraq, mövcud potensialın reallaşdırılması istiqamətində birgə səylərin davam etdirilməsi ilə bağlı razılığa gəliblər.

Görüşün sonunda bu il yanvarın 22-də Tehran şəhərində keçirilən Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 16-cı iclasının nəticələrinə dair imzalanmış Anlaşma Memorandumunun Azərbaycan və fars dillərində olan əsl nüsxələrinin mübadiləsi həyata keçirilib.

# İqtisadiyyat naziri Mikayıl Cabbarov Pakistanın Baş nazirinin müavini Məhəmməd İshaq Dar ilə görüşüb



Pakistan İslam Respublikasında səfərdə olan Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov Pakistanın Baş nazirinin müavini və xarici işlər naziri Məhəmməd İshaq Dar ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, nazirlər müxtəlif mövzular ətrafında geniş müzakirələr aparıblar. Görüş zamanı Məhəmməd İshaq Dar Pakistanın Azərbaycan ilə ikitərəfli münasibətləri daha da gücləndirmək öhdəliyinə sadiqliyini bir daha vurğulayıb.

# Azərbaycan və Pakistan arasında əsas investisiya layihələri və memorandumlar müzakirə edilib

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun aprelin 8-də İslamabadda səfəri zamanı Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında əsas investisiya layihələri və iki ölkə arasında nəzərdən keçirilən memorandumlar müzakirə edilib.

AZƏRTAC xəbər verir ki, Pakistanın Baş nazirinin müavini və xarici işlər naziri Məhəmməd İshaq Darın rəhbərlik etdiyi nümayəndə heyəti Pakistanda səfərdə olan Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti ilə danışıqlar aparıb. Hər iki ölkə təşəbbüslərin yekunlaşdırılmasını sürətləndirmək barədə razılığa gəliblər.

# Xankəndidə "Yeni dünya nizamına doğru" mövzusunda 7-ci ADA Siyasi Forumu keçirilib



















**ADA** Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə aprelin 8-də Xankəndi şəhərindəki Qarabağ Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda 7-ci ADA Siyasi Forumu baş tutub.

AZƏRTAC xəbər verir ki, forumda 44 ölkədən 80-dən çox beynəlxalq ekspert, beyin mərkəzlərinin nümayəndələri iştirak ediblər.

Forumun açılışında ADA Universitetinin rektoru Hafiz Paşayev, ADA Universitetinin prorektoru, Milli Məclisin deputatı Fariz İsmayılzadə, Qarabağ Universitetinin rektoru Şahin Bayramov, eləcə də Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxış ediblər.

Forumun birinci panelində "Geosiyasi dəyişikliklər və onların regional suverenliyə təsiri" mövzusu müzakirə olunub. Panelə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin idarə heyətinin sədri Fərid Şəfiyev moderatorluq edib. Çıxışçılar qlobal güc balansındakı dəyişikliklərin milli suverenliyə təsiri, bölgədə strateji sabitliyin saxlanması və məsuliyyətli tərəfdaşlıq məsələlərinə toxunublar.

İkinci panel "Yeni dünya nizamı: İqtisadi transformasiya və rəqəmsal inqilabdan gözləntilər" mövzusuna həsr olunub. Panelə ADA Universitetinin prorektoru, Milli Məclisin deputatı Fariz İsmayılzadə moderatorluq edib. Müzakirələrdə iqtisadi müstəqillik, texnologiyaların qlobal güc bölgüsünə təsiri və dayanıqlı inkişaf yanaşmaları gündəmə gətirilib.

Forum iştirakçıları tədbirin Xankəndi şəhərində təşkilini Azərbaycanın bərpa və yenidən inteqrasiya siyasətindəki açıq dialoqa və beynəlxalq əməkdaşlığa verdiyi önəmin təzahürü kimi qiymətləndiriblər. Bildirilib ki, bu yanaşma postmünaqişə dövründə Qarabağ regionunun yalnız fiziki bərpasına deyil, eyni zamanda intellektual və mədəni inkişafına da fayda verir.

Tədbir yeni dünya nizamı çərçivəsində qlobal enerji təhlükəsizliyi, regional ticarət, rəqəmsal iqtisadiyyat və təbii sərvətlərin idarə edilməsi ilə bağlı müzakirələrlə davam edib.

Xarici qonaqlar Xankəndi şəhəri ilə tanış olduqdan sonra Bakıya yola düşüblər.

Forum işini aprelin 9-da Bakıda davam etdirəcək.

# Azərbaycan və Çin liderlərinin sıx münasibətləri ölkələrimizin əməkdaşlığına töhfə verir

"Azərbaycan Prezidenti İlham Əliyevlə Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında dostluq, qarşılıqlı etimad və hörmətə əsaslanan fəal siyasi dialoq qurulub. Bu sıx münasibətlər və liderlər arasında siyasi dialoqun yüksək səviyyəsi ölkələrimiz arasında mövcud vəziyyətə və əməkdaşlığa töhfə verir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər xarici işlər nazirinin müavini Elnur Məmmədovun Çinin CGTN (China Global Television Network) telekanalının internet səhifəsində yerləşdirilmiş "Əlaqələrin möhkəmləndirilməsi, gələcəyin formalaşdırılması: Azərbaycan-Çin tərəfdaşlığı" adlı məqaləsində qeyd olunur. Nazir müavini iki ölkənin qarşılıqlı hörmət, etimad və dəstəyə əsaslanan münasibətlərin tarixindən, inkişafından danışaraq, ötən il Azərbaycan ilə Çin arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə dair imzalanan Birgə Bəyannamənin əməkdaşlığın müxtəlif sahələrdə genişlənməsini qarşıya məqsəd qoyduğunu bildirib. Məqalədə qeyd olunur ki, iki ölkə beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirməyə, ortaq maraqları birgə müdafiə etməyə, regional və qlobal sülhə, sabitliyə və inkişafa birgə töhfə verməyə qərarlıdır və Azərbaycan "Vahid Çin" prinsipini hər zaman dəstəkləyir. BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin də Azərbaycanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə daim hörmətlə yanaşır. Nazir müavini yazıda ölkələrimizin beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlığından, bir-birinin təşəbbüslərinə olan dəstəyindən söz açıb.

İqtisadi-ticari əlaqələrə toxunan E.Məmmədov ötən il ticarət dövriyyəsinin həcminin 20 faiz artdığını, Çinin Azərbaycanın 5 əsas ticarət tərəfdaşından biri olduğunu vurğulayıb. İki ölkənin iqtisadi əlaqələrində nəqliyyat-logistika sahəsinin xüsusi önəm kəsb etdiyini vurğulayan nazir müavini əlavə edib ki, Azərbaycan coğrafi və geosiyasi mövqeyi sayəsində tarixən şərq ilə qərb arasında körpü rolunu oynayıb. Hazırda ən azı 3 böyük nəqliyyat dəhlizi Azərbaycan ərazisindən keçir. Bu mənada Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu - Orta dəhliz xüsusi əhəmiyyət daşıyır. Ölkələrimiz strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamədə "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində bütün sahələrdə praktiki əməkdaşlığı inkişaf etdirməyə sabiq olduqlarını qeyd ediblər.

Məqalədə iki ölkənin xalqları arasında əlaqələrdən də söz açılıb, bu xüsusda Azərbaycanın Çin vətəndaşlarına vizasız səyahət imkanı yaratdığı vurğulanıb. Bakı ilə Çinin Pekin və Urumçi şəhərləri arasında birbaşa uçuşlar son bir neçə ildə Çindən Azərbaycana gələn turistlərin sayında davamlı artımı təmin edən amillərdən biri kimi göstərilib.

# Ceyhun Bayramov Birləşmiş Ərəb Əmirliklərindən olan həmkarını sülh gündəliyi barədə məlumatlandırıb



Aprelin 7-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Əbu-Dabi Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan-BƏƏ əməkdaşlığının siyasi, iqtisadi, ticarət, energetika, humanitar aspektləri, regional və beynəlxalq təşkilatlar çərçivəsində tərəfdaşlıq, habelə bölgədə cari vəziyyət müzakirə olunub. İki ölkə arasında energetika, xüsusilə də alternativ enerji sahəsində aparılan işlər məmnunluqla qeyd olunub.

Ölkələrimiz arasında əməkdaşlığın inkişafında siyasi dialoqun, o cümlədən siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti qeyd olunub.

Regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyin bundan sonra da davam etdirilməsinin vacibliyi vurğulanıb.

Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə regional bərpa və sülh gündəliyi barədə ətraflı məlumatlandırıb, mövcud çağırışlar, o cümlədən mina təhdidi, habelə Ermənistan Konstitusiyası və bir sıra qanunvericilik aktlarında ölkəmizə qarşı davam etdirilən ərazi iddialarından bəhs edib.

Birləşmiş Ərəb Əmirliklərinin minasızlaşdırma sahəsində dəstəyinin, eləcə də işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi dəstəyin əhəmiyyəti məmnunluqla qeyd olunub.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın və İsrailin xarici işlər nazirləri regional vəziyyəti müzakirə ediblər



Aprelin 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Əbu-Dabi şəhərində İsrail Dövlətinin xarici işlər naziri Gideon Saar ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə regional və qlobal vəziyyət müzakirə olunub.

İki ölkə arasında siyasi, iqtisadi, ticarət, investisiyalar, humanitar sahələr üzrə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın rolu qeyd olunub.

Tərəflər habelə yüksək texnologiyalar, səhiyyə və təhsil sahələrindəki təcrübə mübadiləsinin gücləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Ölkəmizin Yaxın Şərq regionunda sülhün və sabitliyin bərqərar edilməsini, o cümlədən İsrail-Fələstin münaqişəsinin beynəlxalq hüququn normaları əsasında sülh yolu ilə həlli prosesini dəstəklədiyi bir daha qeyd olunub. Qarşı tərəf həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan-Ermənistan sülh prosesi barədə ətraflı məlumatlandırılıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# İsrailin texnoloji şirkətləri Azərbaycanda ofislər açmağa, istehsal müəssisələri yaratmağa dəvət edilib



Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev İsrailə işgüzar səfəri çərçivəsində innovasiya, elm və texnologiya naziri Qila Qamliel ilə görüş keçirib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı iki ölkə arasında innovasiya, süni intellekt, kibertəhlükəsizlik, kosmos sahələrində əməkdaşlıq və qanunvericilik bazasının təkmilləşdirilməsi məsələləri müzakirə olunub. Nazir Rəşad Nəbiyev İsrailin texnoloji şirkətlərini Azərbaycanda ofislər açmağa, biliyə əsaslanan istehsal müəssisələri, İT tədris mərkəzləri və yüksək texnologiyalar sahəsində Mükəmməllik Mərkəzi yaratmağa dəvət edib. Görüşün nəticəsi olaraq iki ölkə arasında elm sahəsində əməkdaşlıq proqramına dair Anlaşma Memorandumu imzalanıb.

# Bakıda Pakistanın Milli Günü münasibətilə rəsmi qəbul təşkil olunub





Aprelin 8-də Pakistanın Azərbaycandakı səfirliyi tərəfindən bu ölkənin Milli Gününün 85-ci ildönümü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Pakistanın Dövlət himnləri səsləndirilib. Çıxış edən Pakistanın Azərbaycandakı səfiri Qasım Mohiuddin iki ölkə arasındakı tarixi dostluq ənənələrindən danışaraq, ikitərəfli münasibətlərin gələcəkdə daha da inkişaf edəcəyinə ümidvarlığını bildirib. "Azərbaycan və Pakistan arasında qarşılıqlı hörmət, əməkdaşlıq və ortaq maraqlara əsaslanan uzunmüddətli münasibətlər mövcuddur. İllər ərzində ölkələrimiz bir-birinin yanında olmuş, diplomatik münasibətlərin hüdudlarını aşaraq mədəni, iqtisadi və strateji sahələri əhatə edən tərəfdaşlıq formalaşdırmışdır.

Son dövrlərdə hər iki ölkə rəhbərliyi arasında keçirilən yüksəksəviyyəli qarşılıqlı səfərlər xalqlarımız arasındakı qardaşlıq əlaqələrinin bariz nümunəsidir", - deyə səfir vurğulayıb. Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev çıxış edərək ölkələrimiz arasında münasibətlərin qarşılıqlı etimada əsaslandığını diqqətə çatdırıb, iqtisadi və mədəni əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildirib.

"2015-ci ilin mart ayında imzalanmış "Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafına mühüm təkan verdi", - deyə o əlavə edib.

Nazir qeyd edib ki, əlaqələrin inkişafı istiqamətində, eyni zamanda beynəlxalq tədbirlər zamanı birgə fəaliyyət, o cümlədən COP29-da Prezident İlham Əliyev və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif arasında keçirilən ikitərəfli görüş böyük əhəmiyyət daşıyır.

Sonra Pakistanın qazandığı nailiyyətlər, ölkənin turizm imkanları, tarixi abidələri barədə videoçarx nümayiş olunub.

# Daxili işlər naziri Şəkidə vətəndaş qəbulu və sıra baxışı keçirib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 7-də və 8-də Şəki Şəhər Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.




Nazir əvvəlcə Şəki şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Şəki Şəhər Rayon Polis Şöbəsində Şəki, Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ şəhər və rayonlarından qəbula gələn 312 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb. Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Vətən müharibəsinin 34 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 198 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*"Azərbaycan"*

# Azərbaycan Ordusunda döyüş atışlı taktiki təlim izlənilib





2025-ci ilin hazırlıq planına uyğun olaraq, müasir döyüş üsullarına əsasən, Azərbaycan Ordusunda yeni əməliyyat konsepsiyasının tətbiqi ilə real döyüş şəraitinə uyğunlaşdırılmış taktiki təlim keçirilib.



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti döyüş atışlı təlimin gedişini izləyiblər.

Müdafiə nazirinə məruzə olunub ki, təlimə cəlb edilən müxtəlif təyinatlı pilotsuz uçuş aparatları ilə ərazinin kəşfiyyatı aparılır, şərti düşmən hədəflərinin dislokasiyası və zirehli texnikanın hərəkəti barədə məlumatlar operativ şəkildə döyüşü idarəetmə mərkəzinə ötürülür.

Ssenariyə əsasən, hücumdan əvvəl artilleriya bölmələri və aviasiya vasitələri ilə şərti düşmənin cəmləşmiş ehtiyatları və canlı qüvvəsinə zərbələr endirilib, minalanmış ərazilərdən keçidlərin açılması təmin edilib. Təlim zamanı helikopterlər vasitəsilə şəxsi heyət təxliyə edilib, şərti düşmən kolonu pusquya salınaraq zərərsizləşdirilib, həmçinin dayaq məntəqələri ələ keçirilib.

Qeyd edək ki, taktiki təlimin məqsədi müasir döyüş üsulları nəzərə alınmaqla hazırlanmış yeni əməliyyat konsepsiyasına uyğun komandirlərin çevik qərar qəbuletmə qabiliyyətinin artırılması, qarşılıqlı uzlaşma şəraitində bölmələrin idarə edilməsi, eləcə də nəzəri və praktiki vərdişlərin təkmilləşdirilməsidir.

# Xanlar Vəliyevin səlahiyyət müddətinin başa çatması ilə əlaqədar tədbir olub

Baş prokurorun müavini - Hərbi prokuror Xanlar Vəliyevin səlahiyyət müddətinin başa çatması münasibətilə aprelin 8-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə tədbir keçirilib.





Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev Xanlar Vəliyevin uzunmüddətli və qüsursuz xidməti dövründə hüquq-mühafizə orqanlarında göstərdiyi yüksək peşəkarlığı, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində, cinayətkarlığa qarşı mübarizədə, insan hüquq və azadlıqlarının müdafiəsində, xüsusilə də Hərbi Prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsində əldə etdiyi nailiyyətləri yüksək dəyərləndirib.

Xanlar Vəliyevə Azərbaycan Prezidentinin 2025-ci il 17 mart tarixli Sərəncamı ilə verilmiş 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni Baş prokuror tərəfindən təqdim olunub. Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisləri Natiq Hüseynov, Mahir Abbasov, Hərbi prokurorun müavini Şəfahət İmranov və digərləri Xanlar Vəliyevlə bağlı xoş sözlər söyləyiblər.

Öz növbəsində Xanlar Vəliyev çıxış edərək dövlətimizin başçısına təltif olunmasına görə dərin və səmimi minnətdarlığını bildirib, həmçinin prokurorluq orqanlarındakı fəaliyyətinə göstərilən xüsusi diqqətə və verilən qiymətə görə təşəkkür edib.

Məlumat üçün bildiririk ki, 1955-ci il təvəllüdlü Xanlar Vəliyev 1978-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirərək prokurorluq orqanlarında fəaliyyətə başlayıb. Əmək fəaliyyətinə Gəncə Şəhər Prokurorluğunun baş müstəntiqi və şəhər prokurorunun köməkçisi kimi başlayan Xanlar Vəliyev daha sonra Qazax və Şəmkir rayon prokurorlarının müavini vəzifələrində çalışıb, 1993-2000-ci illərdə Azərbaycan Respublikası Baş prokurorunun müavini olub.

2005-ci il 10 fevral tarixli Azərbaycan Prezidentinin Sərəncamı ilə Baş prokurorun müavini -Hərbi prokuror vəzifəsinə təyin edilən Xanlar Vəliyev hazırkı vaxtadək həmin vəzifədə çalışıb. Prokurorluğun fəxri işçisi və hüquq üzrə fəlsəfə doktoru olan Xanlar Vəliyev xidmətləri dövründə dövlətimizin ali rəhbərliyi tərəfindən, habelə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən bir sıra mükafatlara layiq görülüb.

O, Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə "Hərbi xidmətlərə görə" medalı, "Azərbaycan Bayrağı" ordeni, "Vətənə xidmətə görə" 2-ci və 1-ci dərəcəli ordenləri, "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif edilib, həmçinin "Əməkdar hüquqşünas" fəxri adına layiq görülüb.

# Azərbaycanlı alimə "EkoMir - 2024" beynəlxalq ekologiya mükafatı təqdim edilib

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiya İnstitutunun direktoru akademik İradə Hüseynovaya Rusiya Təbiət Elmləri Akademiyası (RTEA) tərəfindən layiq görüldüyü "EkoMir - 2024" beynəlxalq ekologiya mükafatı təqdim edilib.



AMEA-dan verilən məlumata görə, tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxış edib. O, vurğulayıb ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi nüfuzlu bir tədbirə Azərbaycan evsahibliyi edərək konfransın təşkilati işlərini yüksək səviyyədə həyata keçirməklə qlobal iqlim gündəliyində aktiv rol oynadığını dünyaya nümayiş etdirdi. İsa Həbibbəyli COP29 çərçivəsində qlobal istiləşmənin qarşısının alınması, "yaşıl enerji"yə keçidin sürətləndirilməsi, Xəzər regionunun "yaşıl enerji" potensialının dünyaya tanıdılması, bərpaolunan enerji sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi kimi məsələlərin müzakirə edilməsinin dövlətimizin dünyanın gələcəyinə, ətraf mühitin və biomüxtəlifliyin qorunmasına göstərdiyi diqqətin əyani nümayişi olduğunu diqqətə çatdırıb.

AMEA rəhbəri 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 çərçivəsində Milli Elmlər Akademiyasında ətraf mühitin və biomüxtəlifliyin qorunmasına dair silsilə tədbirlərin baş tutduğunu, nəşrlərin işıq üzü gördüyünü, ekoloji maarifləndirmə işlərinin həyata keçirildiyini, təbiətə qarşı məsuliyyətli yanaşma hissinin aşılandığını bildirib.

Akademiyada bu istiqamətdə həyata keçirilən işlərin mərkəzində AMEA-nın vitse-prezidenti, Biologiya və Tibb Elmləri Bölməsinin Elmi şurasının sədri, Molekulyar Biologiya və Biotexnologiya İnstitutunun direktoru akademik İradə Hüseynovanın dayandığını vurğulayan akademik İsa Həbibbəyli qeyd edib ki, nüfuzlu "EkoMir-2024" beynəlxalq ekologiya mükafatına layiq görülməsi onun gərgin fəaliyyətinin nəticəsidir. Bu mükafat Azərbaycan elminin, aliminin növbəti uğuru, dünya elmindəki nüfuzunun göstəricisidir.

Sonra çıxış edən Q.V.Plexanov adına Rusiya İqtisadiyyat Universitetinin kafedra müdiri professor Rəşad Qurbanov İradə Hüseynovanın rəhbərlik etdiyi tədqiqat qrupu tərəfindən buğda bitkisində quraqlığa davamlılığa cavabdeh açar genlərin ekspressiyası ilə metabolom arasında qarşılıqlı əlaqənin müəyyən edilməsi əsasında stresə davamlılıq mexanizminin konseptual modelinin işlənib hazırlanması istiqamətində gördüyü işlərdən söz açıb. Eyni zamanda akademik İradə Hüseynovanın elmin populyarlaşdırılması sahəsində mühüm fəaliyyəti ilə diqqəti çəkdiyini bildirib.

Daha sonra akademik İradə Hüseynovaya mükafat təqdim edilib.

Akademik İradə Hüseynova "EkoMir - 2024" beynəlxalq ekologiya mükafatına layiq görüldüyü üçün Rusiya Təbiət Elmləri Akademiyasının rəhbərliyinə və mükafatın təşkilat komitəsinə minnətdarlığını bildirib.

*"Azərbaycan"*

# UNESCO İcraiyyə Şurasının sessiyasında Azərbaycanın Milli bəyanatı səsləndirilib

Parisdə UNESCO-nun mənzil-qərargahında keçirilən qurumun İcraiyyə Şurasının 221-ci sessiyasında Azərbaycanın bəyanatı səsləndirilib.

AZƏRTAC xəbər verir ki, sessiyanın plenar debatlarında ölkəmizin UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev Azərbaycanın milli bəyanatını iştirakçıların diqqətinə çatdırıb.

Milli bəyanatda ölkəmizin UNESCO-nun qlobal prioritetləri olan Afrika və gender bərabərliyinə, qurumun aparıcı proqramlarının səmərəli şəkildə həyata keçirilməsinə böyük diqqət yetirdiyi bildirilib. Bu məqsədlərə nail olmaq üçün Azərbaycanın UNESCO, eləcə də üzv dövlətlərlə açıq, şəffaf və inklüziv şəkildə əməkdaşlıq etməyə hazır olduğu qeyd olunub.

UNESCO-nun donor ölkələrindən biri kimi Azərbaycanın təşkilatın qlobal missiyasında nümayiş etdirdiyi fəal dəstəkdən bəhs edən səfir, xüsusilə Afrikanın zəngin mədəni və təbii irsinin qorunması, potensialın gücləndirilməsi kimi sahələrdə müvafiq təşəbbüsləri dəstəkləməklə qitənin inkişafına verdiyi töhfələrdən söz açıb.

Çoxəsrlik multikulturalizm, müxtəliflik, mədəniyyətlərarası və dinlərarası dialoq, əməkdaşlıq, qarşılıqlı anlaşma və hörmət ənənələrinə malik Azərbaycanın "Bakı Prosesi" və "Peace4Culture" kimi təşəbbüslər vasitəsilə dünya miqyasında sülh mədəniyyətini təşviq etdiyi vurğulanıb.

Azərbaycan üçün strateji prioritet təşkil edən təhsil sahəsində milli və beynəlxalq səviyyədə atılan addımlar qeyd edilib. STEAM, TVET, UNITWIN/UNESCO Kafedralar Proqramı və ASPnet kimi çərçivələrdə ölkəmizin iştirakından bəhs edilib.




Bəyanatda mədəni irsin qorunmasının əhəmiyyətinə toxunulub və bu kontekstdə cari ilin martında Azərbaycanda UNESCO-nun iştirakı ilə keçirilmiş "Qədim insan məskənlərinin qorunub saxlanması: təhlükələr və müasir yanaşmalar" mövzusunda beynəlxalq konfrans barədə məlumat verilib.

Həmçinin iqlim dəyişikliyi ilə mübarizədə Azərbaycanın fəal iştirakı barədə sessiya iştirakçılarına məlumat verilib və ölkəmizin COP29-a uğurla evsahibliyi və sədrlik etdiyi diqqətə çatdırılıb. İclas iştirakçılarına Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün bərpası barədə, həmçinin ərazilərimizin Ermənistanın 30 illik hərbi işğalından azad edilməsi ilə Cənubi Qafqazda yaranmış yeni şərait, habelə işğal zamanı ərazilərimizin məruz qaldığı böyük dağıntılar, Qarabağ və Şərqi Zəngəzurdan 750 minə yaxın, Qərbi Zəngəzur, İrəvan, Göyçə, Vedi və digər tarixi torpaqlarımızdan isə 300 mindən artıq azərbaycanlı mülki əhalinin öz tarixi və ata-baba yurdlarından qaçqın və məcburi köçkünə çevrilməsi barədə məlumat verilib.

Azərbaycan hökumətinin, çoxsaylı qeyri-hökumət təşkilatları və Qərbi Azərbaycan İcmasının Ermənistanda Azərbaycan mədəni irsinin dağıdılmasından dərin narahatlıq ifadə edərək, vəziyyətin qiymətləndirilməsi üçün faktaraşdırıcı missiyanın göndərməsinə dair UNESCO-ya etdiyi müraciətin Azərbaycan xalqının haqlı tələbi olduğu bildirilib.

İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma, habelə məcburi köçkünlərin qayıdışı istiqamətində görülən işləri barədə məlumat verilərək, mina və partlamamış hərbi sursatların yaratdığı ciddi təhlükə və əngəllər qeyd olunub. 2020-ci ildən bəri mülki şəxslər də daxil olmaqla 400-dən çox insanın minaların qurbanı olduğu diqqətə çatdırılıb.

# UNESCO-da Azərbaycan Milli Komissiyasının fəaliyyəti haqqında məlumat verilib

UNESCO-nun İcraiyyə Şurasının 221-ci sessiyası çərçivəsində Milli komissiyaların ənənəvi iclası keçirilib. İclasda Azərbaycan-UNESCO əməkdaşlığından söz açılıb.

AZƏRTAC xəbər verir ki, UNESCO-nun İcraiyyə Şurasının 221-ci sessiyası çərçivəsində keçirilmiş UNESCO üzrə Azərbaycanın Milli Komissiyasının nümayəndəsi Günel Zülfüqarova Milli komissiyaların ənənəvi iclasında çıxış edib. Azərbaycan-UNESCO əməkdaşlığından söz açan Milli Komissiyanın nümayəndəsi bu əməkdaşlıq çərçivəsində 2024-2025-ci illərdə reallaşdırılmış və nəzərdə tutulan tədbirlər, eləcə də Milli Komissiyanın layihələri barədə ətraflı məlumat verib.

Həmçinin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Qədim insan məskənlərinin mühafizəsi: təhdidlər və müasir yanaşmalar" mövzusunda təşkil edilmiş beynəlxalq elmi-praktik konfrans haqqında danışıb. Bu konfransda UNESCO-nun da yüksək səviyyədə təmsil olunduğu diqqətə çatdırılıb. Tədbirə digər ölkələrin ekspertləri, tədqiqatçıları və qeyri-hökumət təşkilatlarının (ONG) da qatıldığı bildirilib.

Azərbaycanın evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), bu sessiyada UNESCO nümayəndələrinin iştirakı haqqında məlumat verilib.

UNESCO üzrə Azərbaycan Milli Komissiyasının ADA Universiteti ilə birlikdə Afrikanın bir çox ölkəsinin UNESCO üzrə Milli komissiyalarının baş katibləri, eləcə də bu ölkələrin inkişafına dəstək kimi təşkil edilmiş təlim proqramlarından və onların gələcəkdə də davam etdiriləcəyindən danışılıb.



# Müzəffər Ali Baş Komandan, hərbi güc, qüdrətli dövlət

## Ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar inamla icra edilir

**Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələrinə sahib olan Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra da ordusunun modernləşməsi istiqamətində çox mühüm addımlar atmaqdadır.**

Düzdür, bu gün Azərbaycan qalib dövlət kimi regionda yalnız sülhün, təhlükəsizliyin tərəfdarıdır. Lakin məğlub Ermənistanın savaşdan 5 il ötməsinə baxmayaraq hələ də sülh müqaviləsini imzalamaqdan boyun qaçırması, vaxt udaraq gizli şəkildə silahlanması Azərbaycanı daha diqqətli olmağa sövq edir. Çünki tarixin bütün zamanlarında Azərbaycan xalqı erməni hiyləsinin, erməni məkrinin qurbanı olub.

İndi isə zaman dəyişib və bu gün diktə edən tərəf Azərbaycandır. Belə bir deyim də var ki, sülh istəyirsənsə, müharibəyə hazır ol! Əgər Ermənistan sülhdən yayınaraq guya gizli şəkildə yenidən silahlanırsa, onda Azərbaycan nədən öz hərbi gücünü daha da artırmasın?!

Ermənistan yaxşı bilir ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildə ona qalib gələn ordudan daha da güclüdür. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Silahlı Qüvvələrində aparılan islahatlar, ordunun arsenalına daxil edilən zirehli texnikalar, modern silah-sursatlar bunu deməyə bir daha əsas verir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu istiqamətdə qarşıya qoyduğu yeni vəzifələrə, tələblərə uyğun olaraq ordumuzun maddi-texniki bazası daha da modernləşir, mütəmadi keçirilən hərbi təlimlər Silahlı Qüvvələrimizin gücünə güc qatır. Hazırda Azərbaycan, Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir. Həyata keçirilən ordu quruculuğu nəticəsində Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verə bilən Silahlı Qüvvələr kimi düşmənlərə göz dağı verir. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Silahlı Qüvələrini dünyanın ən güclü 50 ordusu sırasına yüksəldib.

Müasir dövrdə hərbi texniki təchizat texnologiyanın sürətli inkişafı ilə daha da modernləşib, hərbi gücün artırılması üçün dövrün tələblərinə uyğun innovativ sistemlərə əsaslanıb. Bu vasitələr ölkənin həm döyüşaparma, həm də özünümüdafiə qabiliyyətinin yüksəldilməsində effektivliyi təmin edir. Bundan savayı, işğaldan azad olunmuş ərazilərimizdəki hərbi hissələrin maddi-texniki bazasının inkişaf etdirilməsi, şəxsi heyətin xidməti və məişət şəraitinin yaxşılaşdırılması da gündəlikdə duran vacib məsələlərdəndir. Bu ildə də dünyanın aparıcı ordularına sahib dövlətlərilə qurulmuş qarşılıqlı səmərəli əməkdaşlıq sayəsində mühüm layihələrə imza atılıb, nəticədə ordumuzun hərbi təminat və təchizat bazası xeyli modernləşib və gücləndirilib.

Müdafiə sənayesindən söz düşmüşkən onu da qeyd etmək lazımdır ki, xarici dövlətlərlə yanaşı, yerli müdafiə sənayemizin istehsalı olan müxtəlif hərbi texniki təminat və təchizat vasitələrini də ordumuzda görmək mümkündür.

Vətən maharibəsindən sonra isə ordunun daha da modernəşməsi istiqamətində qarşıya yeni vəzifələr, tələblər qoyulub və bu gün həmin proses uğurla davam etdirilir.

Ali Baş Komandan İlham Əliyev tərəfindən ötən dövrdə Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsinə, müasir infrastrukturun yaradılmasına, hərbi qulluqçuların sosial müdafiəsi, mənzil təminatının yaxşılaşdırılmasına, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə xüsusi diqqət ayrılıb. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir.

Aprelin 5-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən xidməti müşavirədə bütün bu məsələlərə toxunulub və qarşıya qoyulan hədəflər açıqlanıb. Prezident İlham Əliyev tərəfindən ordu quruculuğunun ölkəmizdə prioritet məsələlərdən biri olduğunu qeyd edən müdafiə naziri bölmələrin xidməti-döyüş fəaliyyətlərinin təkmilləşdirilməsi, eləcə də döyüş qabiliyyətinin daha da artırılması ilə bağlı Ali Baş Komandanın ordu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb. Nazir bildirib ki, tarixi Zəfərin sülh danışıqlarına yol açdığını qeyd edən Ali Baş Komandan Azərbaycan Ordusunun xüsusilə 44 günlük Vətən müharibəsi və sonrakı döyüş əməliyyatlarında nümayiş etdirdiyi peşəkarlığı yüksək qiymətləndirib, həm də qarşımızda daha məsuliyyətli vəzifələr qoyub.

Müşavirədə Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti, o cümlədən son günlər qarşı tərəfin bölmələrimizi mütəmadi olaraq atəşə tutması, mövqelərimiz üzərində pilotsuz uçuş aparatları və dronlarla kəşfiyyat xarakterli uçuşlar həyata keçirmə cəhdləri geniş müzakirə edilib. Nazir Azərbaycan Ordusu bölmələrinin hər an istənilən təxribata qarşı çevik reaksiya verməyə hazır olması barədə aidiyyəti vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub, döyüş növbətçiliyinin təşkili zamanı ayıq-sayıqlığın artırılmasının vacibliyini vurğulayıb.

Daha sonra Azərbaycan Ordusunda aparılan uğurlu islahatların müsbət nəticələrindən danışılıb, cari il ərzində həyata keçirilən və planlaşdırılan tədbirlər müzakirə edilib.

Qoşunların döyüş imkan və qabiliyyətlərinin inkişaf etdirilməsinin vacibliyini vurğulayan nazir müasir döyüş təcrübəsi nəzərə alınmaqla keçirilən hərbi təlimlərin intensivliyinin qorunub saxlanılmasını və texnoloji yeniliklərin tətbiqi ilə keyfiyyətinin daim artırılmasını tapşırıb. Müasir informasiya texnologiyaları vasitələrinin kibertəhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən fəaliyyətlərlə bağlı göstərişlər verib. Hərbi təhsil sistemində əlçatanlığın, əhatəliliyin və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə tətbiq edilən yeni forma və metodlar nəzərə alınmaqla bölmələrin peşəkar kadr heyəti ilə komplektləşdirilməsinə xüsusi diqqət yetirilməsinin əhəmiyyəti qeyd olunub.

Nazir müxtəlif ixtisaslı hərbi vəzifəlilərin cəlb edildiyi təlim toplanışlarında onların bilik və bacarıqlarının artırılması, həmçinin silahlanmaya yeni qəbul edilmiş silah və texnikadan istifadə qaydalarının öyrədilməsi üzrə vəzifəli şəxslər qarşısında tapşırıqlar qoyub.

Şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, mənəvi-psixoloji hazırlığı, xüsusilə kəskin relyefli ərazilərdə dislokasiya olunan bölmələrin maddi-texniki təminatı, keyfiyyətli qidalanmasının təşkili, həmçinin təhlükəsizlik qaydalarına ciddi əməl edilməsinə nəzarətin gücləndirilməsi barədə tələblər bir daha komandir heyətinə çatdırılıb.

Qoşunların mövsümə uyğun bütün növ ehtiyatlarla təmin edilməsi, silah və texnikanın yaz-yay mövsümü istismarı rejiminə keçidinə hazırlıq işləri ilə bağlı müvafiq tapşırıqlar verilib.

General-polkovnik Z.Həsənov Azərbaycan Ordusunun Ali Baş Komandanın etimadını hər zaman doğrultduğunu, bundan sonra da doğruldacağını əminliklə ifadə edib.

Bir sözlə, Ali Baş Komandanın həyata keçirdiyi islahatlar onu deməyə əsas verir ki, Silahlı Qüvvələrimiz vahid proqram əsasında inkişaf etdirilir. Qalib Sərkərdənin söylədiyi kimi, görülən işlərə, aparılan islahatların real nəticəsinə əsasən deyə bilərik ki, hazırda Azərbaycan Silahl Qüvvələri müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Ordumuzdan daha da güclüdür. Bu hərbi güc Qafqazın ən güclü Zəfər Ordusudur. Güclü ordun varsa, qüdrətin və hötmətin də var. Ordumuz güclüdürsə, xalqımız da, dövlətimiz də güclüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Qoşulmama Hərəkatının daha səmərəli fəaliyyətinə böyük töhfələr verir

Milli Məclisin Sədri Sahibə Qafarovanın bu günlərdə Özbəkistana işgüzar səfəri müxtəlif tədbirlər, çoxsaylı görüş və memorandumun imzalanması ilə əlamətdar oldu. Belə ki, bu səfər zamanı Milli Məclisin Sədri Parlamentlərarası İttifaqın (PAİ) 150-ci Assambleyasında, bu Assambleya çərçivəsində keçirilən Asiya Parlament Assambleyasının (APA) Koordinasiya iclasında çıxış edib.

### Respublikamızın sədrliyi dövründə təşkilatın fəaliyyəti güclənib

Sahibə Qafarova həmçinin Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, PAİ Baş katibi, Pakistan Senatının, Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAPP) Daimi Komitəsinin, Bəhreyn Nümayəndələr Şurasının, İsrail Knessetinin, Mərakeş Krallığı Müşavirlər Palatasının sədrləri ilə görüşüb.

Daşkənddə keçirilən mühüm tədbirlərdən biri də Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin dördüncü konfransı olub. "Bandunq Ruhunun 70 illiyinin qeyd olunması: Bandunq prinsiplərinin dəstəklənməsində parlamentlərin rolu" mövzusuna həsr olunmuş konfransa Milli Məclisin və Parlament Şəbəkəsinin sədri Sahibə Qafarova sədrlik edib.

2019-2024-cü illərdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi bu təşkilatın son tarixində böyük nailiyyətlərlə əlamətdar olub. Hələ 2019-cu ildə Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi zamanı beynəlxalq hüququ və ədaləti müdafiə edəcəyini, fəaliyyətini tarixi "Bandunq prinsipləri" üzərində quracağını bəyan etmişdi. Sədrliyi dövründə ölkəmiz həyata keçirdiyi fəaliyyətlə dünyada Hərəkatın rolunun gücləndirilməsinə, "Bandunq prinsipləri"nin dəstəklənməsinə, üzv ölkələrin maraqlarının qorunmasına böyük töhfələr verib, BMT ilə çoxtərəfli əlaqələrin təşviq edilməsi, qorunması və gücləndirilməsi istiqamətində səylərini əsirgəməyib. Belə ki, bu dövrdə respublikamızın təşəbbüsləri ilə üzv dövlətlərin maraqları naminə təşkilatın potensialından və imkanlarından səmərəli istifadə olunub və Qoşulmama Hərəkatı qlobal məsələlərdə söz sahibi kimi çıxış etməyə başlayıb. Məhz Prezident İlham Əliyevin Sədrliyi ilə Qoşulmama Hərəkatının nüfuzu əhəmiyyətli dərəcədə yüksəlib və bu təsisat beynəlxalq münasibətlər sistemində mühüm rol oynayan siyasi platformaya çevrilib.

### Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin institusional çərçivəsi daha da inkişaf etdiriləcək

Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının institusional fəaliyyətinin inkişafı istiqamətində də mühüm işlər görülüb. Bu mənada respublikamızın QH-na uğurlu sədrliyinin əsas nümunələrindən biri təşkilatın Parlament Şəbəkəsinin yaradılmasıdır. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi Prezident İlham Əliyevin təşəbbüsünə əsasən təşkilatın prinsip, ideya və məqsədlərinin həyata keçirilməsində parlamentarilərin konstruktiv rolu nəzərə alınaraq, üzv dövlətlərin parlamentləri arasında əlaqələrin dərinləşdirilməsi məqsədilə 2021-ci ilin noyabr ayında təsis olunub.

Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin dördüncü konfransında bu barədə danışan Milli Məclisin Sədri Sahibə Qafarovanın sözlərinə görə, təsis olunduqdan indiyədək Parlament Şəbəkəsinin üç konfransı keçirilib. Bu tədbirlərdə 70 ölkədən, 15 beynəlxalq təşkilatdan olmaqla, iştirakçıların ümumi sayı 1000 nəfərdən çox olub. Sahibə Qafarova deyib ki, hər bir konfransda iştirakçıların sayı əvvəlki ilə müqayisədə daha da artıb ki, bu da Parlament Şəbəkəsinə artan marağın nəticəsidir. Hazırda isə Parlament Şəbəkəsi Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentlərinin yarısından çoxunu təmsil edir.

Azərbaycan parlamentinin sədri, həmçinin deyib ki, hər bir konfrans şəbəkənin institusional inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edib. Belə ki, Bakı Konfransı təşkilatın Əsasnaməsini, rəsmi loqosunu və bayrağını qəbul edib, sədr və 3 sədr müavini seçilib. Manama konfransı şəbəkənin iş üsullarını daha da inkişaf etdirib və təkmilləşdirib. Cenevrə konfransı büronun və 4 daimi komitənin yaradılması haqqında qərarlar qəbul edib.

Digər təşkilatlarla institusional dialoqun inkişaf etdirilməsi də Parlament Şəbəkəsinin əsas diqqət mərkəzində olan məsələlərdəndir. Hazırda Parlament Şəbəkəsi 6 təşkilatda müşahidəçi statusuna malikdir, 7 təşkilat isə şəbəkədə müşahidəçi statusu alıb. Həmçinin 7 təşkilatla Anlaşma Memorandumu imzalamaqla, şəbəkə beynəlxalq əməkdaşlıqda iştirakını daha da genişləndirib.

Parlament Şəbəkəsi Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentləri arasında ikitərəfli əlaqələrin inkişafı üçün də çox mühüm və faydalı platformadır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Milli Məclisində Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentləri ilə əməkdaşlıq üzrə əlavə işçi qruplar yaradılıb.

Xatırladaq ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın Özbəkistana işgüzar səfəri zamanı Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Türk Mədəniyyəti və İrsi Fondu və Tolerantlıq və Sülh Təşkilatı arasında memorandumlar imzalanıb. Bu sənədlər Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə sözügedən təşkilatlar arasında əməkdaşlığın gücləndirilməsinə xidmət edəcək.

Onu da qeyd edək ki, Daşkənd konfransında şəbəkəyə üzv parlamentlərin yekdil mövqeyini ifadə edən və bir sıra mühüm müddəaların əks olunduğu Daşkənd Bəyannaməsi qəbul olunub. Bəyannamədə digər məsələlərlə yanaşı, Parlament Şəbəkəsinin institusional çərçivəsinin daha da inkişaf etdirilməsi, o cümlədən büro və daimi komitələrin fəaliyyətlərinin təmin olunması, şəbəkənin mənzil qərargahının yaradılması istiqamətində müzakirələrin davam etdirilməsinin əhəmiyyəti vurğulanıb. Sənəddə, həmçinin Bakı İqlim Birliyi Paktına və COP29-un mühüm nəticələrinə, Qoşulmama Hərəkatına üzv dövlətlərdə öz yaşayış yerlərini zor gücü ilə dəyişməyə məcbur qalmış insanların, o cümlədən Qərbi Azərbaycan İcmasının öz evlərinə sülh yolu ilə təhlükəsiz şəraitdə və ləyaqətlə geri qayıdışı hüququna dəstək ifadə edilib.




***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi Qərbi Azərbaycan İcmasının öz yurdlarına qayıdışını dəstəkləyib

Qərbi azərbaycanlıların qayıdış hüququna beynəlxalq dəstəyin əldə edilməsi istiqamətində növbəti mühüm uğur əldə edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcması bəyanat yayıb. Bildirilib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin 6 aprel 2025-ci il tarixində Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində keçirilmiş IV konfransında qəbul edilmiş bəyannamədə Qərbi Azərbaycan İcmasının öz yurdlarına sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıdış səylərinə dəstək ifadə olunub.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin bu qərarı bütövlükdə Qoşulmama Hərəkatının, o cümlədən, onun Parlament Şəbəkəsinin Bandunq Prinsiplərinə sadiqliyini və Qərbi Azərbaycana qayıdışın beynəlxalq sülh və ədalətə xidmət edən mövzu kimi qəbul edilməsini bir daha göstərir.

Qərbi Azərbaycan İcması sərgilədiyi ədalətli mövqeyə görə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə və Parlament Şəbəkəsinə sədrlik edən Azərbaycan Respublikasının Milli Məclisinə təşəkkür edir.

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

# Qərbi Azərbaycan İcması Avropa Şurasının ali komissarını ikili standartlar siyasətinin girovu olmamağa çağırıb

Avropa Şurasının İnsan hüquqları üzrə ali komissarı Maykl O'Flaertinin "Avropa Şurası Parlament Assambleyası" adlanan qurumda Ermənistandan olan deputatların suallarına verdiyi cavablar onun məsələlərdən tam xəbərsiz olduğunu göstərir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda, həmçinin bildirilib: "Ali komissarın ermənilərin Azərbaycana qayıdışı məsələsinə toxunub Qərbi azərbaycanlıların Ermənistana öz dədə-baba yurdlarına qayıdışından bəhs etməməsi qəbuledilməzdir. Biz ali komissarı insan hüquqlarına münasibətdə bir sıra Qərb təsisatlarında dərin kök salmış ikili standartlar siyasətinin girovu olmamağa çağırırıq.

Bundan əlavə, Ali komissar, hazırda Bakıda davam edən məhkəmə ilə bağlı cəzasızlığı təşviq edən açıqlamalar verməməli, əksinə Ermənistan hakimiyyətini öz ərazisində olan hərbi caniləri, o cümlədən bu gun törədilməsindən 33 il keçən Ağdaban faciəsinin günahkarlarını mühakimə etməyə çağırmalı, "Azərbaycanlıları qovmaqla 600 ilik tarixi məqsədə nail olduq" deyə qürrələnən Ermənistanın birinci prezidenti Levon Ter Petrosyandan izahat tələb etməli, Azərbaycan xalqının dini-mədəni irsinin acınacaqlı vəziyyətinin monitorinq edilməsi, azərbaycanlılara qarşı xüsusən mediada və ictimai diskursda tüğyan edən etnik nifrət hallarının araşdırılması üçün Ermənistana səfər etməlidir".

# Azərbaycan enerji sahəsində etibarlı tərəfdaşdır



## İlham Əliyevin qətiyyəti "yaşıl enerji"yə yaşıl işıq yandırıb

### Avropa bu sahədə də Azərbaycanla əməkdaşlıqdan məmnundur

**Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları öz işini başa çatdırdı. Bu toplantıların üçüncü dəfədir yanaşı keçirilməsi enerji təhlükəsizliyi ilə enerji keçidi arasında uzlaşmanı gücləndirmək üçün atılan uğurlu addımlardan biridir.**

Azərbaycanın "yaşıl gündəliy"i artıq hamıya bəllidir. Sərmayədarlarla imzalanmış müqavilələr ölkəmizə 2030-cu ilə qədər 6 giqavat günəş və külək enerjisi istehsalını təmin edəcək. İşlər müvəffəqiyyətlə davam edir. 2023-cü ilin oktyabrında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən, günəşdən işıq payı alan "Qaradağ" stansiyası istifadəyə verildi. Hazırda Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə inşa edilən Xızı-Abşeron külək, işğaldan azad olunmuş Cəbrayıl rayonunda Böyük Britaniyanın BP şirkəti ilə tikilən "Şəfəq" günəş stansiyaları və digər layihələr həyata keçirilməkdədir.

İşğaldan azad edilmiş ərazilərdən söz düşmüşkən qeyd edək ki, burada artıq 270 meqavatlıq su-elektrik stansiyaları qurulub. 30-dan çox kiçik su-elektrik stansiyası istismara verilib və maksimum növbəti beş ildə bu rəqəm əlavə 30 kiçik su-elektrik stansiyası ilə 500 meqavata çatdırılacaq. Beləliklə, nəticədə 2030-cu ilə qədər 6,5 giqavatlıq enerji potensialı yaranacaq. Ümumiyyətlə, ölkəmizin növbəti beş il ərzində bərpaolunan mənbələrdən enerji istehsalı potensialı iki dəfə artacaq.

Azərbaycan Avropaya "yaşıl enerji" dəhlizi çəkməyi də hədəfləyib. Məşvərət Şurasında bu barədə geniş söhbət gedib. İndi həmin layihənin texniki əsaslandırma işləri son mərhələdədir. Prezident İlham Əliyev sözügedən tədbirdə diqqəti layihənin maliyyələşdirilməsi məsələsinə yönəldərək demişdir: "Əlbəttə, biz indidən söyləyə bilərik, ümid edirik ki, "yaşıl enerji" layihələrinin maliyyələşdirilməsi ilə bağlı məhdudiyyətlər qoyulmayacaq. Lakin düşünürəm ki, Avropa təsisatlarında həmin layihələrin ümumi maraq doğuran layihə səviyyəsinə qədər təkmilləşdirilməsi vacibdir".

Prezidentimiz həmçinin bildirmişdir ki, biz nəhəng hasilat və nəqletmə layihələrinin icrasını mümkün etmiş korporativ maliyyələşmə, o cümlədən borca götürülmüş pul vəsaitlərinin kombinasiyasında böyük təcrübəyə malikik. "Azəri-Çıraq-Günəşli", "Şahdəniz" və "Abşeron" bu gün bir çox ölkənin enerji təhlükəsizliyini təmin edən neft və qaz yataqlarıdır. Bir neçə ildən sonra digər neft-qaz yataqlarının da istismarına başlanılacaq. Müqavilələr artıq imzalanıb, işçi proqram təsdiqlənib. İndiyədək gerçəkləşdirilən layihələr, o cümlədən "Cənub qaz dəhlizi" bütün iştirakçılarla əməkdaşlıq sayəsində araya-ərsəyə gəlmişdir: "Beləliklə, faydalı qazıntı layihələrinin maliyyələşdirilməsinin dayandırılması siyasəti başlayanda bu, investorlara, şirkətlərə, ölkələrə müsbət olmayan siqnal göndərir... Ümid edirik ki, Avropada çox geniş "yaşıl gündəliy"ə baxmayaraq, faydalı qazıntı hasilatçıları və ənənəvi yanacaq enerji təhlükəsizliyinin mühüm meyarı kimi yaddan çıxmayacaq və ayrı-seçkiliyə məruz qalmayacaq. Əslində, bu, bizim COP29-dakı mesajımız idi. Azərbaycan qlobal beynəlxalq tədbirə evsahibliyi etdiyi zaman qeyd olundu ki, faydalı qazıntıları zəngin olan ölkələrlə sərvətləri olmayan ölkələr arasında ayrı-seçkilik və ayırıcı xətlər olmamalıdır. Əksinə, faydalı qazıntıları zəngin olan və bərpaolunan enerjiyə sərmayə qoyan ölkələr alqışlanmalıdır, onlara hücum çəkilməli deyil".

Vacib olan bir məqam da unudulmamalıdır ki, nəticədə daxildə bu gün elektrik enerjisinin istehsalında istifadə etdiyimiz təbii qaza xeyli dərəcədə qənaət etmək imkanı yaranacaq və həmin qaz ixraca yönəldiləcək.

"Burada biz vacib bir nöqtəyə gəlib çıxırıq və bu məsələni dəfələrlə qaldırmışıq. Bəlkə faydalı qazıntı layihələrinin maliyyələşdirilməsini dayandırmaq qərarını qəbul etmiş beynəlxalq maliyyə təsisatları xüsusən də müşahidə etdiyimiz böyük geosiyasi dəyişiklikləri nəzərə alaraq, öz siyasətinə yenidən baxsınlar. Çünki nəql infrastrukturuna və hətta hasilata əlavə sərmayələr qoyulmasa, bu, çox problemli olacaqdır," - deyə dövlətimizin başçısı tədbirdə demişdir.

"Biz gələn illərdə gözləyirik ki, Azərbaycandan daxil olacaq qaz xalis sıfra keçidimiz zamanı Avropa İttifaqının enerji sistemində mühüm rol oynayacaq". Bu fikri isə Məşvərət şuralarının toplantılarının açılışında Avropa İttifaqının energetika və mənzil tikintisi komissarı Dan Yorgensen söyləmişdir. O, Məşvərət Şurasındakı müzakirələri neft və qaz sektorunda metan emissiyalarını aradan qaldırmaq, bərpaolunan enerjidən istifadə etmək, elektrik enerjisi şəbəkəsini təşviq etmək və s. kimi səylərin mühüm hissəsi adlandırmışdır. Avropaya çəkəcəyimiz 1100 kilometrlik sualtı "yaşıl enerji" dəhlizi məsələsinə toxunaraq demişdir: "İşimiz yalnız bu günün çağırışlarının həllindən ibarət deyil. Biz gələcəyimizə doğru yolu müəyyən edirik. Bu səbəbdən biz Cənubi Qafqaz ilə Avropa İttifaqı arasında "yaşıl enerji" dəhlizinin qurulması üzərində çalışırıq. Müxtəlif texnologiya və fərqli marşrutlardan istifadə etmək barədə müxtəlif konkret ideyalar var. Ən perspektivli ideyaların bir araya gətirilməsini və onların lazımi "yaşıl enerji" dəhlizinə çevrilməsini müəyyən etmək qalır. Bütün tərəflər yaxşı əməkdaşlıq əzminə və böyük maraqlara malikdirlər. Prezident Fon der Lyayenin qeyd etdiyi kimi, biz bütöv regionun bu layihədən faydalanmasını təmin etmək üçün inklüziv yanaşmanı dəstəkləyirik".

Komissar Dan Yorgensen 2030-cu ilədək qlobal metan emissiyalarının 30 faizədək azaldılması öhdəliyini götürmüş 160 ölkədən biri olaraq Azərbaycanın ötən il qoşulduğu Qlobal Metan Vədini vurğulamış, ölkəmizin COP29-da bu məsələnin daha da qabardılmasına verdiyi töhfəni yüksək qiymətləndirmişdir. Bu layihənin həyata keçirilməsinin çox əhəmiyyətli olacağını, eyni zamanda Azərbaycanın xüsusilə enerji sektorunda metan emissiyalarının azaldılmasının müsbət təsirləri baxımından qlobal örnəyə çevrildiyini bildirmişdir: "Həmçinin Dövlət Neft Şirkətinin - SOCAR-ın Neft və Qaz Metan Tərəfdaşlıq 2.0-a qoşulması ilə Azərbaycan enerji sektorunda metan emissiyalarının əhəmiyyətli dərəcədə azaldılması və Avropa İttifaqının metan normalarına uyğunluğun təmin olunması istiqamətində doğru yoldadır… Bütün ölkələrimizdə bərpaolunan enerjinin yerli istehsalının inkişafı təbii qaza qənaət etməyə, münasib qiymətə elektrik enerjisinə çıxışı təmin etməyə və sənaye sahəsində rəqabətliliyi artırmağa kömək edə bilər. Xüsusilə Azərbaycana gəlincə, enerji səmərəliliyi və bərpaolunan enerji istiqamətində səylər qarşıdakı illərdə ixrac bazarları üçün daha çox qazı əhəmiyyətli dərəcədə əlçatan edə bilmək potensialına malikdir".

Beləliklə, Avropa İttifaqı Xəzər dənizində külək enerjisi texnologiyası da daxil olmaqla ölkəmizin böyük potensialını inkişaf etdirmək üçün bizimlə əməkdaşlığı gücləndirməyə hazır olduğunu da bəyan etmişdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycanın qlobal enerji ailəsində nüfuzu yüksəlir



"Aprelin 4-də Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları Azərbaycanın regional və qlobal enerji bazarlarında artan rolunu bir daha nümayiş etdirir. Prezident İlham Əliyevin açılış mərasiminə qatılması və çıxışı qlobal enerji ailəsinə böyük ehtiramın, hörmətin nümunəsi kimi qarşılanmaqla tədbirin xüsusi yüksək statusunu göstərdi".

Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. O bildirib ki, bu tədbirlərdə dünyanın 24 ölkəsinin, 7 beynəlxalq maliyyə institutu və 42 enerji şirkətinin nümayəndələrinin iştirakı dünyanın enerji sənayesi sahəsində mövcud reallıqların müzakirəsində Bakının mərkəzi coğrafiya olmasını təsdiqləyir.

Deputat qeyd edib ki, Bakıda müvafiq dövlət qurumlarının və müxtəlif ölkələrin nümayəndələri, xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin başçıları, enerji sahəsində fəaliyyət göstərən nüfuzlu şirkətlərin rəhbərləri, eləcə də tanınmış biznes icmasının bir araya gələrək səmərəli görüşlər keçirməsi, faydalı müzakirələr aparması əməkdaşlığın yeni yollarının müəyyən edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Enerji sənayesində çalışan, sərmayələr xərcləyən nəhəng şirkətlərin nümayəndələrinin əhəmiyyətli təklifləri isə dünya miqyasında enerji təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə töhfə verir. "Yaşıl enerji" ailəsinin üzvlərinin iclasda böyük bir investorlar qrupunda təmsil olunması Azərbaycanın bərpaolunan enerji sektoruna marağı əks etdirməklə, yeni layihələrə yol açır. Belə ki, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ), Səudiyyə Ərəbistanı, Çin, Türkiyə və digər ölkələrin sənaye və qabaqcıl texnologiyalar üzrə tanınmış şirkətlərinin Bakı iclasında yer alması "yaşıl enerji"nin aktual və gündəmdə ön plana çıxaraq yeni beynəlxalq platformaya çevrildiyini göstərir", - deyə o əlavə edib.

A.Hüseynov bildirib ki, qaz nəqlinin ana arteriyası olan "Cənub qaz dəhlizi" layihəsi Azərbaycanın enerji diplomatiyasının ən uğurlu nümunələrindən biridir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində həyata keçirilən bu layihə ölkəmizin dünya ölkələrinin enerji təhlükəsizliyində mühüm rol oynamasını təmin edib. 2020-ci ilin dekabrından qaz nəqlini həyata keçirən "Cənub qaz dəhlizi"nin sonuncu hissəsi - TransAdriatik Qaz Kəməri (TAP) ilə təkcə Avropanın 10-dan çox ölkəsinə yanacaq ixrac edilir. Hazırda illik 25 milyard kubmetr qaz nəql edən Azərbaycanın yaxın 5 il ərzində hasilatı və ixracı 20 faiz artıraraq ixracın həcmini 30-31 milyard kubmetrə qədər çatdırması proqnozlaşdırılır. Həmin qazın 20 milyard kubmetrinin Avropaya nəqli nəzərdə tutulur. Bu nikbin proqnozlar Qaz İxrac Edən Ölkələrin Forumunun (GECF) bir neçə ay əvvəl açıqladığı hesabatda da öz əksini tapıb. Həmin pronozlara əsasən, Avropanın etibarlı və uzunömürlü qaz təminatı strategiyasında Azərbaycanın rolu daha da artacaq və 2025-2027-ci illərdə ölkəmizin qaz istehsalı və nəqli 40 faiz çoxalacaq. Nəticədə Avropaya qaz nəql edən TAP kəmərinin illik gücü 20 milyard kubmetri də ötmüş olacaq. Həmçinin Avropa İttifaqı ölkələrinə Azərbaycanın enerji resursları ilə yanaşı, digər Xəzəryanı ölkələrin də yanacaq ehtiyatlarının cəlb olunması nəzərdə tutulur.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycanın enerji təchizatçısı kimi əhəmiyyəti ilbəil artır

**""Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında aparılan müzakirələrdən bir daha aydın oldu ki, Azərbaycan enerji təhlükəsizliyi məsələsini hər bir ölkənin milli təhlükəsizlik məsələsi hesab edir. Azərbaycanın təşəbbüsü ilə yaradılan platformada iştirakçıların sayının artması, "Cənub qaz dəhlizi"nin coğrafiyasının genişlənməsi bir daha göstərir ki, bütün tərəflər ortaq məqsəd ətrafında birləşir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Nigar Məmmədova deyib. Deputat qeyd edib ki, Prezidentin də bəyan etdiyi kimi, birinci məqsəd əməkdaşlığın gücləndirilməsidir, çünki əməkdaşlıq olmadan enerji təhlükəsizliyi layihələrinin heç biri gerçəkləşə bilməz. İkinci məqsəd özləri, öz qonşuları və tərəfdaşları üçün enerji təhlükəsizliyini təmin etməkdir. "Təsadüfi deyil ki, son bir ildə əlavə 5 ölkə də Azərbaycan qazının alıcısına çevrilib. Azərbaycan qazı artıq 12 ölkəyə çatdırılır. Avropaya qaz təchizatımızın coğrafiyasının genişlənməsi həm də etibarlı tərəfdaşlığın nəticəsidir. Əsas hədəf 3 seqmentdən - Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP-dan ibarət olan "Cənub qaz dəhlizi"nin daha da genişləndirilməsinə nail olmaqdır. Bu isə təbii ki, maliyyələşmə tələb edir. Bu səbəbdən dövlətimizin başçısı faydalı qazıntıların maliyyələşdirilməsinin vacibliyinə diqqət çəkib: "Faydalı qazıntılarla zəngin olan və bərpaolunan enerjiyə sərmayə qoyan ölkələrə dəstək olmalıdır, hücum çəkilməli deyil". Təbii ki, "yaşıl gündəlik" bu gün dövlətlərin milli prioritetləri sırasındadır. COP29-un ev sahibi kimi Azərbaycan dünyaya həm də faydalı qazıntıları zəngin olan ölkələrlə sərvətləri olmayan ölkələr arasında ayrı-seçkilik və ayırıcı xətlər olmamasına dair mesaj verdi. Əməkdaşlığın real nəticələrinə gəlincə, 2030-cu ilə qədər hədəf 6 giqavat günəş və külək enerjisinin təmin olunmasıdır. İşğaldan azad olunmuş ərazilərin potensialını da nəzərə alsaq, Azərbaycanın yaradılmış imkanları 8 giqavatdan çoxdur", - deyə o əlavə edib.

N.Məmmədova xatırladıb ki, Avropa İttifaqının rəsmisi də Azərbaycanın etibarlı tərəfdaş olduğunu bir daha bəyan edib. Hazırda Cənubi Qafqazla Avropa İttifaqı arasında "yaşıl enerji" dəhlizinin qurulması üzərində iş aparılır. Bu isə onu deməyə əsas verir ki, zaman-zaman bəzi Qərb dairələrinin, xüsusilə erməni lobbisinin Azərbaycanın Avropa üçün əhəmiyyətini kiçiltmək cəhdləri nəticə vermədi.

Deputatın sözlərinə görə, burada Fransanın qərəzli mövqeyi də qeyd edilməlidir: "Hər birimiz xatırlayırıq, Fransa Prezidenti Emmanuel Makron çıxışlarının birində "biz Ermənistanın maraqlarını Avropanın enerji maraqlarına qurban verə bilmərik" söyləmişdi. Burada sual meydana çıxır - hansı Ermənistan? Heç bir resursa, heç bir nüfuz və siyasi çəkiyə malik olmayan Ermənistan? Avropanın maraqlarını buna qurban vermək nə dərəcədə məntiqlidir? Azərbaycanmı Avropa üçün daha vacibdir, yoxsa Ermənistan?".

Deputat hesab edir ki, bu sualın cavabı hər kəsə aydındır: "On ildən çoxdur Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının toplantılarında da Azərbaycanın enerji təhlükəsizliyində əhəmiyyəti xüsusi vurğulanır, regiondakı mövqeyi dəyərləndirilir. Ölkəmizə qarşı təşkil olunan qara piar kampaniyaları isə iflasa uğrayır. Məşvərət Şurası iclaslarına qatılan nümayəndələrin də fikri bundan ibarətdir ki, Azərbaycan proqnozlaşdırmanı və etibarlı tərəfdaşlığı təmin edən ölkəyə çevrilib".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## "Diplomatic World Sweden" saytı "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci iclası barədə məqalə dərc edib

**Aprelin 4-də "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları keçirilib. Tədbirdə 24 ölkədən nümayəndələr Azərbaycan və Avropa arasında enerji əməkdaşlığının perspektivlərini müzakirə etmək üçün bir araya gəliblər.**




AZƏRTAC xəbər verir ki, siyasətçilər və diplomatlar üçün nəzərdə tutulmuş "Diplomatic World Sweden" saytında bu görüşə həsr olunmuş məqalə dərc edilib.

Məqalədə vurğulanır ki, Azərbaycan Avropanın əsas enerji tərəfdaşlarından biri kimi mövqeyini möhkəmləndirir. 2021-ci ildən ölkə qaz ixracını 8 milyard kubmetrdən 13 milyard kubmetrə qədər artırıb. Tədarüklər 12 ölkəni, o cümlədən 10 Avropa ölkəsini əhatə edir, onlardan 8-i Aİ-nin tərkibinə daxildir.

İsveç saytı qeyd edir ki, Prezident İlham Əliyev tədarük coğrafiyasını genişləndirmək və Avropanın qaz infrastrukturuna sərmayə qoymaq niyyətini bəyan edib ki, bu da Aİ ilə münasibətlərə strateji xarakter verə bilər.

Bundan əlavə, Azərbaycan bərpaolunan enerjinin inkişafı planlarını təqdim edib. Ölkə 2030-cu ilə qədər günəş və külək enerjisi üzrə gücün 6 giqavata çatacağını gözləyir ki, bu da daxili istehlakı azaltmaqla yanaşı, qaz ixracını artıracaq.

Məqalədə Xəzər regionunu Avropa ilə birləşdirən 3500 kilometr uzunluğunda "Cənub qaz dəhlizi"nə xüsusi diqqət yetirilir. Marşrut tam gücü ilə işləyir, amma dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, onun daha da genişləndirilməsi tələb olunur. Eyni zamanda bu cür layihələrin maliyyələşdirilməsi getdikcə çətinləşir, çünki bir çox beynəlxalq maliyyə institutu mədən yanacaqları ilə bağlı təşəbbüsləri dəstəkləməkdən imtina edir.

Qeyd olunur ki, Cənubi Qafqaz ilə Avropa arasında "yaşıl enerji" dəhlizinin yaradılması təşəbbüsü də müzakirə olunub. Layihə ilkin araşdırma mərhələsindədir və gələcəkdə dayanıqlı enerji tərəfdaşlığının mühüm komponentinə çevrilə bilər.

Müəllifin fikrincə, Bakıda keçirilən görüş Azərbaycanla Avropa İttifaqı arasında enerji əlaqələrinin möhkəmləndirilməsi istiqamətində mühüm addım olub.

## Karoli MATRAİ: "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi qlobal xarakter daşıyan layihədir"

**"Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi qlobal xarakter daşıyan enerji nəqli layihəsidir. Bu layihənin texniki-iqtisadi əsaslandırılması bu ilin üçüncü rübündə hazır olacaq".**

AZƏRTAC xəbər verir ki, bu sözləri ADA Universitetində "İnnovativ yollarla "yaşıl gələcəy"ə doğru" mövzusunda keçirilən beynəlxalq konfransın panel iclasında Macarıstanın MVM şirkətinin rəhbəri Karoli Matrai deyib.

O bildirib ki, texniki-iqtisadi əsaslandırma ilə bağlı sənədi CESI şirkəti hazırlayır.

"Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizinin reallaşması üçün 2 milyard avro sərmayə lazım olacaq. Layihə region ölkələri ilə yanaşı, Şərqi və Mərkəzi Avropa dövlətləri üçün də səmərəlidir. Bu layihə enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamaqla yanaşı, dövlətlərin iqtisadi inkişafına böyük təkan verəcək. Layihə çərçivəsində tikinti işləri 3 il davam edə bilər. Dünyanın bir sıra regionlarında bənzər layihələr həyata keçirilib", - deyə Karoli Matrai əlavə edib.



# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında Milli Məclisin deputatları ilə görüş olub



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvləri ilə görüş keçirilib.**





Görüşdə komitənin sədri Fazil Mustafa, sədr müavini Sahib Alıyev, üzvləri - Azər Allahverənov, Səbinə Salmanova, ekspert Əkbər Qoşalı, AHİK-in nümayəndələri iştirak ediblər.

Konfederasiya sədri Sahib Məmmədov ölkəmizdə həmkarlar ittifaqlarının səmərəli fəaliyyəti üçün yaradılan əlverişli şəraitdən, dövlət başçısı cənab İlham Əliyevin bu sahəyə diqqət və qayğısından danışıb, ittifaq üzvlərinin əmək, sosial, iqtisadi hüquqlarının müdafiəsi, sağlamlıqlarının qorunması, müalicə və istirahətinin təşkili istiqamətində görülən işlər barədə məlumat verib.

Tədbirdə AHİK-də aparılan struktur islahatları, həyata keçirilən layihələr, tətbiq olunan yeniliklər, Əmək və Sosial Münasibətlər Akademiyasında kadr hazırlığı üçün yaradılmış əlverişli şərait deputatların diqqətinə çatdırılıb. Bildirilib ki, yeni layihələrdən olan "AHİK Könüllüləri" uğurla davam etdirilir, "Layiqli Əmək Səfirləri" layihəsinə başlanılıb. Yaxın vaxtlarda isə ittifaq üzvləri üçün xüsusi endirimlər nəzərdə tutan "AHİK Plus" proqramına start veriləcək. Qeyd olunub ki, yollayışların vahid mərkəzdən verilməsi üçün "Kurort" Turizm İnformasiya Mərkəzi yaradılıb, prosedur sadələşdirilib, prosesin tam rəqəmsallaşdırılması işləri davam etdirilir.

AHİK-in 2025-2027-ci illər üzrə inkişaf strategiyasının təsdiqləndiyini vurğulayan konfederasiya sədri beynəlxalq təcrübəyə və müasir çağırışlara uyğunlaşdırılması üçün həmkarlar ittifaqları ilə bağlı qanunvericiliyə dəyişikliklərin hazırlandığını qeyd edib.

Sonra AHİK-in fəaliyyəti və "Layiqli Əmək Səfirləri" layihəsi barədə videomateriallar nümayiş olunub.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa konfederasiyada həyata keçirilən islahatları yüksək qiymətləndirib.

Deputatlar Sahib Alıyev, Azər Allahverənov və Səbinə Salmanova çıxışlarında əmək münasibətlərinin tənzimlənməsindən, ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafında həmkarlar ittifaqlarının xidmətlərindən bəhs edib, qurumun işinə uğurlar arzulayıblar.

Sonra Milli Məclisin üzvləri AHİK-də vətəndaşların qəbulu üçün yaradılmış şəraitlə, həmçinin "Kurort" Turizm İnformasiya Mərkəzində yollayışların verilməsi prosesində tətbiq edilən yeniliklərlə tanış olublar.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Cəbrayılda növbəti əmək yarmarkası olub, 100-dən çox vakansiya təqdim edilib

**Böyük Qayıdış proqramına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizə köçürülən sakinlər üçün aktiv məşğulluq proqramlarını davam etdirir.**







Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə agentlik Cəbrayıl rayonu, M.Mehdizadə adına tam orta məktəbdə növbəti əmək yarmarkası keçirib.

Yarmarkada 13 işəgötürən tərəfindən 100-dən çox vakansiya (o cümlədən, elektrik mühəndisi, departament müdiri, şöbə müdiri, böyük məsləhətçi, mühasib, anbardar, kassir, satıcı, çilingər, bənna, rəngsaz, aşbaz, nəzarətçi, santexnik, qazpaylayıcı stansiyada operator və sair) təqdim olunub.

Tədbirə qatılan sakinlərə vakansiyalar, iş öhdəlikləri barədə məlumat verilib, vakansiyalara uyğun namizədlərin qeydiyyatı aparılıb.



# Azərbaycanın ECO çərçivəsində əməkdaşlığı: Regional inkişaf yolunda mühüm addımlar

**Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində əməkdaşlığı ölkənin regional və beynəlxalq iqtisadi münasibətlər sistemindəki fəal rolunu əks etdirir. ECO-ya 1992-ci ildən üzv olan Azərbaycan təşkilat daxilində həyata keçirilən bir sıra təşəbbüslərdə fəal iştirak edir və üzv dövlətlərlə iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, turizm, kənd təsərrüfatı və ekologiya sahələrində əməkdaşlığın inkişafına töhfə verir. Azərbaycanın ECO ilə əməkdaşlığı yalnız iqtisadi əlaqələrin genişləndirilməsi deyil, həm də mədəni, elmi və humanitar sahələrdə qarşılıqlı fəaliyyətin gücləndirilməsi baxımından əhəmiyyət daşıyır. Bu əməkdaşlıq ölkənin regional inteqrasiya proseslərinə daha sıx qoşulmasına və ECO məkanında sülh, sabitlik və inkişaf naminə həyata keçirilən birgə təşəbbüslərdə mühüm tərəfdaş kimi çıxış etməsinə imkan yaradır.**



AZƏRTAC təşkilatın fəaliyyətinə və Azərbaycanın bu qurumun inkişafına verdiyi töhfələrə bir daha nəzər salır.

1964-cü ildə Türkiyə, Pakistan və İran tərəfindən "Regional İnkişaf üçün Əməkdaşlıq" adı ilə yaradılan təşkilat 1985-ci ildən etibarən İqtisadi Əməkdaşlıq Təşkilatı adını alaraq fəaliyyətini daha da genişləndirib. ECO-ya üzv olduqdan sonrakı illər ərzində Azərbaycan təşkilatın fəal iştirakçılarından birinə çevrilib, üzv dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri qurmağa müvəffəq olub.

Azərbaycanın xarici siyasətində ECO-ya üzv ölkələrlə əlaqələr önəmli yer tutur. Prezident İlham Əliyevin bununla bağlı çıxışı Azərbaycanın mövqeyini aydın şəkildə ifadə edib: "Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə münasibətlərimiz dostluq və qarşılıqlı hörmətə əsaslanır. Biz həmçinin beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə səmərəli əməkdaşlıq edirik".

## Azərbaycanın ECO-dakı iqtisadi təşəbbüsləri və regional liderlik rolu

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatında iqtisadi təşəbbüsləri və regional liderlik rolu ölkənin son illərdə artan iqtisadi gücü, strateji mövqeyi və çoxşaxəli diplomatik fəallığı fonunda ön plana çıxır. Azərbaycan regionda ticarət, enerji, nəqliyyat və logistika sahələrində irəli sürdüyü təşəbbüslərlə ECO məkanında əməkdaşlığın dərinləşdirilməsinə mühüm töhfələr verir. Bakı-Tbilisi-Qars dəmir yolu, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və "Cənub qaz dəhlizi" kimi layihələr bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Təşkilatın fəal və etibarlı üzvü olan Azərbaycan regionda bir sıra təşəbbüslərlə çıxış edir və ECO çərçivəsində reallaşdırılan layihələrdə mühüm mövqeyə malikdir.

ECO-ya üzv ölkələrin Avropa və Çin arasındakı coğrafiyada yerləşməsi geosiyasi və geoiqtisadi baxımdan olduqca əhəmiyyətlidir. Bu, təşkilatın strateji mövqeyini gücləndirir və üzv dövlətlərin birgə fəaliyyətlərini daha da səmərəli edir.

Azərbaycan ECO-nun üzvü olaraq təşkilatın məqsəd və prinsiplərinə sadiqliyini dəfələrlə nümayiş etdirib. Xüsusilə enerji, nəqliyyat, ticarət, kənd təsərrüfatı və "yaşıl iqtisadiyyat" sahələrində həyata keçirilən əməkdaşlıq təşəbbüsləri ölkəmizin regional və beynəlxalq rolunu daha da gücləndirib. Bu baxımdan Azərbaycan ECO-nun strateji hədəflərinə uyğun addımlar ataraq, regionda sabitliyin və inkişafın təmin olunmasına töhfə verir. Ölkəmiz ECO-nun 2006-cı ilin mayında və 2012-ci ilin oktyabrında Bakıda keçirilmiş IX və XII Zirvə görüşlərinə uğurla evsahibliyi edib. Bu toplantılar çərçivəsində qəbul olunan qərarlar təşkilat daxilində əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə keçməsinə şərait yaradıb. Həmin Zirvə görüşlərində Azərbaycanın təşəbbüsü ilə enerji təhlükəsizliyi, nəqliyyat bağlantılarının gücləndirilməsi, ekoloji məsələlər və davamlı inkişaf mövzularında önəmli sənədlər qəbul olunub. Bu da Azərbaycanın ECO daxilində təşəbbüskar və regional lider statusunu bir daha təsdiqləyib.

## Enerji və nəqliyyat sahələrində əməkdaşlıq: Azərbaycanın strateji rolu

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində enerji və nəqliyyat sahələrində mühüm strateji mövqeyə malikdir. Ölkənin zəngin enerji ehtiyatları və əlverişli coğrafi yerləşməsi onu regionun əsas tranzit və enerji mərkəzlərindən birinə çevirib. Azərbaycan yalnız enerji resurslarının hasilatında deyil, həm də onların beynəlxalq bazarlara daşınmasında mühüm rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və "Cənub qaz dəhlizi" kimi layihələr ECO məkanında enerji təhlükəsizliyinin təmin olunmasına əhəmiyyətli töhfələr verir. Azərbaycan yerləşdiyi geostrateji mövqe sayəsində həm "Şimal-Cənub", həm də "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin əsas iştirakçısıdır. Ölkəmiz bu marşrutların texniki və logistika infrastrukturunun inkişaf etdirilməsinə, regional tranzit imkanlarının artırılmasına yönəlmiş layihələrdə fəal rol oynayır. Bu baxımdan ECO çərçivəsində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və Orta dəhliz kimi təşəbbüslərin reallaşdırılmasında Azərbaycanın rolu danılmazdır.

Bu gün nəqliyyat sahəsində də Azərbaycanın ECO regionunda aparıcı aktor kimi çıxış etdiyini əminliklə deyə bilərik. Prezident İlham Əliyevin İqtisadi Əməkdaşlıq Təşkilatının Özbəkistanın paytaxtı Daşkənddə keçirilən 16-cı Zirvə toplantısında səsləndirdiyi fikirlər bunu bir daha təsdiqləyir: "Azərbaycanın nəqliyyat və logistika infrastrukturu ECO-nun üzv dövlətləri üçün açıqdır. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub və Avrasiyanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Hər iki dəhlizin Azərbaycandan keçən hissələri tam hazırdır. Biz hazırda bu dəhlizlər boyu dəmir yolu xətlərinin yükaşırma qabiliyyətinin genişləndirilməsi üzərində işləyirik".

Prezidentin bu çıxışı Azərbaycan dövlətinin nəqliyyat sektoruna verdiyi strateji önəmi və region ölkələri ilə əməkdaşlığa göstərdiyi səyləri aydın şəkildə ifadə edir. Azərbaycanın multimodal nəqliyyat infrastrukturuna yatırdığı sərmayələr, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri boyunca əlaqələrin genişləndirilməsi ECO məkanında logistik qovşaq rolunu daha da möhkəmləndirir. Bu da üzv dövlətlər arasında ticarətin asanlaşdırılması və iqtisadi inteqrasiyanın gücləndirilməsi baxımından əhəmiyyətli addımdır.

Bundan əlavə, Azərbaycan ECO çərçivəsində "yaşıl enerji" təşəbbüslərinə də böyük önəm verir. Son dövrlərdə Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında enerji sistemlərinin birləşdirilməsi layihəsi üzrə sənəd imzalanıb. Bu təşəbbüs regionda alternativ enerji mənbələrinin səmərəli istifadəsini, enerji təhlükəsizliyinin artırılmasını və dayanıqlı inkişafın təmin olunmasını hədəfləyir. Bakıda ECO regionu üçün "Təmiz Enerji Mərkəzi"nin yaradılması ilə bağlı aparılan müzakirələr də Azərbaycanın bu sahədəki liderlik iddiasını bir daha ortaya qoyur.

## Azərbaycan ECO çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində maraqlıdır

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində çoxşaxəli maraqlara sahibdir. Bu maraqlar həm iqtisadi, həm geosiyasi, həm də mədəni və sosial sahələri əhatə edir.

İlk növbədə Azərbaycan ECO ölkələri ilə ticarət dövriyyəsinin və iqtisadi əlaqələrin genişlənməsində maraqlıdır. Ölkəmiz regionda ticarətin asanlaşdırılması, gömrük və logistika prosedurlarının sadələşdirilməsi, sərmayə mühitinin yaxşılaşdırılması və sənaye əməkdaşlığının gücləndirilməsi kimi təşəbbüslərlə çıxış edir.

Geosiyasi baxımdan ECO platforması Azərbaycan üçün regional həmrəyliyin və strateji tərəfdaşlığın möhkəmləndirilməsi üçün mühüm vasitədir.

İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci sammitinin cari ildə Azərbaycanda keçirilməsi qərarı ölkəmizin bu nüfuzlu regional qurum çərçivəsində artan rolunun və fəallığının təsdiqidir. Bu mühüm tədbirin Bakıda baş tutması Azərbaycanın təşkilat daxilində təşəbbüskar mövqeyə malik olduğunu, regional əməkdaşlığa verdiyi töhfələrin yüksək qiymətləndirildiyini göstərir.

Bu tədbir Azərbaycanın regional inteqrasiya proseslərində fəal iştirakını daha da gücləndirməklə yanaşı, ölkənin beynəlxalq miqyasda diplomatik və iqtisadi mövqeyinin möhkəmlənməsinə də mühüm töhfə verəcək. Eyni zamanda Azərbaycanın təklif etdiyi yeni əməkdaşlıq formatlarının və layihələrin ECO məkanında həyata keçirilməsi üçün əlverişli imkanlar formalaşacaq.

Beləliklə, Azərbaycanın ECO çərçivəsində əməkdaşlığın genişləndirilməsində maraqları kompleks və strateji xarakter daşıyır, bu təşkilatla əlaqələrin inkişafı ölkənin regional və beynəlxalq mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir.

# Azərbaycan Əbu-Dabidə Böhranların və Fövqəladə Halların İdarə Olunması üzrə Dünya Sammitində təmsil olunur

**Aprelin 8-də Əbu-Dabi şəhərində Böhranların və Fövqəladə Halların İdarə Olunması üzrə Dünya Sammiti işə başlayıb. Sammit "Birlikdə qlobal davamlılıq yolunda" şüarı altında keçirilir.**

AZƏRTAC BƏƏ Xəbər Agentliyinə istinadla bildirir ki, tədbirdə dünyada əlaqədar qurumların rəhbərləri, ekspertlər iştirak edəcəklər. Azərbaycanı bu tədbirdə Fövqəladə Hallar Nazirliyinin nümayəndə heyəti təmsil edir.

BƏƏ-nin Fövqəladə Hallar və Böhranların İdarə Edilməsi üzrə Milli Şurasının sədri Əli Səid əl-Niyadi bildirib ki, builki sammitdə hökumət nümayəndələri, nazirlər, siyasətçilər, fövqəladə hallar üzrə mütəxəssislər, beynəlxalq təşkilatlar, akademik dairələr və özəl sektor təmsil olunur. Sammit çərçivəsində beynəlxalq və hökumət təşkilatları arasında bilik mübadiləsi və böhranların idarə edilməsi üçün inteqrasiya olunmuş siyasətlərin hazırlanmasına dair əməkdaşlıq sazişləri imzalanacaq.

Sammitin birinci günündə "Qlobal imkanlar", "İmkanların körpüsü" adlı sessiyalar keçirilib. İkinci gündə "Qeyri-müəyyənliyin idarə olunması" və "Adaptiv iqtisadiyyat" adlı sessiyalar təşkil olunacaq.

Bundan başqa, beynəlxalq tədbir ərzində altı əsas seminar təşkil ediləcək. Eyni zamanda tədbir ərzində qurulacaq "Böhran idarəetmə texnologiyaları" və "Nəsillərin hazırlığı" adlı sərgilərdə son həllər və innovasiyalar nümayiş olunacaq.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Ermənistan atəşkəsi pozmaqla Azərbaycanı təxribata çəkməyə çalışır

"Ermənistan 30 ildə Azərbaycanın suveren ərazilərinin 20 faizini işğal altında saxlayıb. Münaqişənin dinc yolla həll olunması istiqamətində tərəfimizdən böyük cəhdlərə baxmayaraq, Ermənistan işğalçılıq siyasətindən əl çəkmədi. Beləliklə, BMT TŞ-nin 4 qətnaməsi icra olunmayaraq kağız parçasına çevrilmişdi".

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, münaqişənin dinc yolla həll edilməsi və Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən qeyd-şərtsiz çıxarılmasına dair BMT TŞ-nin qətnamələrinin icra olunması üçün yaradılmış ATƏT-in Minsk qrupu 27 ildən çox müddətdə heç bir iş görməyərək, fəaliyyətsiz bir təşkilata çevrildi. Hətta Minsk qrupunun həmsədrləri regiona turist səfərləri edirdi və Azərbaycan xalqını erməni işğalı ilə barışmağa, eyni zamanda münaqişənin həllinin hərb yolu olmadığını qəbul etdirməyə çalışırdılar. Amma dövlətimizin başçısı bütün tribunalardan münaqişə dinc yolla həll olunmazsa, hərb yolunun qaçılmaz olacağını bəyan edirdi. Nəhayət, 2020-ci il sentyabrın 27-də başlanan II Qarabağ müharibəsi 44 gün ərzində Şuşaya bayrağımızın sancılması ilə başa çatdı.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri arasında 10 noyabr üçtərəfli Bəyanatı imzalanaraq yerdə qalan məsələlərin siyasi yolla həll olunmasına razılıq əldə olundu. Bəyanatın bəndlərini qalib tərəf kimi Azərbaycan diktə etdi və Ermənistan kapitulyasiya olunmuş tərəf kimi bütün şərtləri qəbul etdi. Prezident İlham Əliyev münaqişənin başa çatdığını elan etdiyi ilk gündən Ermənistana çağırış edərək düşmənçilik səhifəsini bağlamağı və iki ölkə arasında münasibətlərə təmiz səhifədən başlamağı təklif etdi. Amma Ermənistan yenə də çirkin niyyətlərindən əl çəkməyərək, ərazilərimizdə qeyri-qanuni silahlıları saxladı. 2023-cü il sentyabrın 20-də keçirilən lokal xarakterli antiterror tədbirləri ilə müzəffər ordumuz ərazilərimizdə qalmaqda olan 15 minə yaxın erməni silahlısını tərksilah edərək torpaqlarımızda konstitusion hüququn tələblərini bərpa etdi və erməni separatçılarının kökünü kəsdi", - deyə A.Badamov əlavə etdi.

Deputat qeyd edib ki, Azərbaycanla Ermənistan arasında müzakirə olunan sülh müqaviləsinin müəllifi Azərbaycandır. Ölkəmiz sülh müqaviləsindəki bəndləri müəyyən edəndə beynəlxalq hüququ rəhbər tutaraq sülh tələbləri ilə çıxış etdi. Əgər ölkəmizin sülh məqsədləri olmasaydı, qalib tərəf kimi daha ağır şərtlər irəli sürə bilərdi və bu, qalib ölkənin haqqı idi. Azərbaycan regionda sülh və əməkdaşlıq istəyir və ona görə də "3+3" əməkdaşlıq formatının da təşəbbüsçüsü oldu. Ermənistan uzun müzakirələr və danışıqlardan sonra Qarabağın Azərbaycanın suveren ərazisi olduğunu beynəlxalq platformadan bəyan etməyə məcbur oldu və sülh müqaviləsinin imzalanması istiqamətində danışıqların davam etdirilməsinə hazır olduğunu açıqladı. İki ölkə arasında müzakirə olunan sülh müqaviləsi 17 bənddən ibarət olaraq tərtib edildi, amma Ermənistan müqavilənin son iki bəndini qəbul etmək istəmirdi. Nəhayət, bu il martın 13-də Ermənistan baş naziri Nikol Paşinyan sülh müqaviləsi ilə bağlı bütün bəndləri qəbul etdiyini və sənədi qısa zamanda imzalamağa hazır olduğunu açıqladı. Hətta bu məsələni səsləndirməklə özünü beynəlxalq ictimaiyyətə "sülh göyərçini" kimi təqdim etməyə və yarımçıq sülh sazişi imzalamağa çalışdı. Azərbaycanın tələbinin dəyişilməz olduğunu görən Ermənistan 16 martdan başlayaraq şərti sərhəddə atəşkəsi pozmağa və mütəmadi olaraq təxribatlara əl atmağa başladı.



A.Badamov vurğulayıb ki, sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyümüz tələblər Ermənistana heç bir təhlükə yaratmır: "Birinci tələbimiz Ermənistan Konstitusiyasında yazılmış Azərbaycana qarşı olan ərazi iddialarının referendum yolu ilə ləğv edilməsidir. Əslində, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmi şəkildə açıqlayıb. Belə olan halda konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarını saxlamaqda məqsədi nədir? İkinci tələbimiz isə Minsk qrupunun ləğv edilməsi ilə bağlı ATƏT-ə birgə müraciətin göndərilməsidir. Minsk qrupu keçmiş Qarabağ münaqişəsinin həll olunması üçün yaradılmışdı. Artıq münaqişə həll olunub və keçmişdə qalıb. Yenə sual olunur ki, Minsk qrupunun saxlanılmasında Ermənistanın məqsədi nədir? İstər-istəməz belə fikir yaranır ki, Ermənistan sülh istəmir və çirkin niyyətlərindən əl çəkmir".

Deputat bildirib ki, Ermənistan Fransadan, Hindistandan və ABŞ-dən öldürücü silahlar alır. Ermənistanın xüsusi təyinatlıları Hindistanda dağ şəraitində təlim keçir. Şərti sərhədimiz boyunca istehkam və fortifikasiya qurğuları tikir. Ermənistan şərti sərhədlərimizdə tikdiyi dərin bunkerlərdə alınmış silahları yerləşdirməklə yenidən müharibə üçün dayaq nöqtələri yaradır. Eyni zamanda mütəmadi atəşkəsi pozmaqla ölkəmizi təxribata çəkməyə çalışır. Hətta Xanazak kəndində özləri kiminsə pəncərəsinə atəş açaraq guya Azərbaycan Ordusu tərəfindən atəşkəsin pozulduğunu sübut etməyə çalışırlar. Amma araşdırmalar Ermənistanın yalanlarını ifşa etdi. Ermənistanın məqsədi Azərbaycan haqqında beynəlxalq ictimaiyyətdə pis imic formalaşdırmaq və yenidən münaqişəyə başlayacaqları təqdirdə ölkəmizə beynəlxalq təzyiqin göstərilməsinə nail olmaqdır.

A.Badamov qeyd edib ki, Ermənistanın bu hərəkətləri onların sülhdən uzaq olduğunu sübut edir: "Ermənistan hakimiyyəti ağlını başına yığıb 30 ildə ərazilərimizdə yaratdığı dayaq nöqtələrinin taleyinin necə bitdiyini bir daha göz önünə gətirməlidir. Çünki ordumuz hərəkətə keçərsə, onun qabağında heç bir dayaq nöqtəsi maneə yarada bilməz. Bu gün Azərbaycan Ordusunun gücü aparıcı ölkələrin ekspertləri tərəfindən yüksək dəyərləndirilir. Əgər Ermənistan ölkəmizi yenidən müharibəyə təhrik edərsə, bu, onlar üçün böyük faciə olacaq. Ona görə də Paşinyan hakimiyyəti revanşist fikirlərindən, mifik arzularından əl çəkərək, Azərbaycanla sülhə getməli və qəti tələbimiz olan iki bəndin icrasına tələsməlidir. Əks halda hadisələrin gedişatı Ermənistana yaxşı heç nə vəd etmir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Erməni xəstəliyi

**Həm Azərbaycan, həm də Ermənistan tərəfi sülhə hazır olduqlarını bəyan edirlər. Ötən dövrdə sülh sazişinin imzalanması istiqamətində atdığı əməli addımlar və bu sahədə əldə olunan müsbət nəticələr Azərbaycanın sülhə sadiqliyini təsdiq edən amillərdir. Lakin təəssüf ki, bunu Ermənistan tərəfi üçün demək mümkün deyil. Hər nə qədər dildə desə də, Ermənistan hakimiyyəti qətiyyən sülh istəmir. Sürətlə silahlanan İrəvanın gündən-günə hərbi eskalasiyanı artırması, sərhədlərimizi atəşə tutması da buna bariz nümunədir.**



Eyni zamanda Ermənistanın bütün sosial şəbəkə seqmentində Azərbaycana qarşı təhqir, hədyan ab-havası hökm sürür. Həm də təkcə müxalifətə və revanşistlərə deyil, hökumətə yaxın sosial şəbəkə seqmentində də istisnasız olaraq vəziyyət belədir. Bu isə ümumilikdə erməni cəmiyyətinin sülh əleyhinə olmasının göstəricisidir.

Aprelin 8-də Kəlbəcərdə 3.7 maqnitudalı zəlzələ olması ilə bağlı xəbərin sosial şəbəkələrin erməni seqmentində doğurduğu reaksiyaya baxaq. Haylar Bakıda da 12 bal gücündə zəlzələ olmasını, yəni azərbaycanlıların kütləvi şəkildə faciə yaşamasını istədiklərini yazıblar. Ermənilərin sosial şəbəkələrdəki paylaşımlarına, yazdıqları şərhlərinə nəzər saldıqda aydın görünür ki, haylar sosial şəbəkələrdə dayanmadan müharibəni, qan-qadanı təbliğ edirlər. Ümumiyyətlə, Ermənistanda təkcə Azərbaycana qarşı yox, Türkiyəyə, qonşuluqlarında yaşayan digər ölkə və xalqlara qarşı da bu cür milli nifrət psixologiyası hökm sürür.

Monoetnik dövlətin hay vətəndaşlarındakı bu xəstə təfəkkürün səbəbi isə erməni xəstəliyidir...

Bəli, məhz xəstəlik!

Ən dəhşətlisi isə şovinizm və separatçılıq mahiyyətli, deportasiya, təcavüzkarlıq, soyqırımı kimi insanlığa sığmayan bədxah hisslərdən bəslənən erməni xəstəliyinin heç bir müalicə üsulunun olmamasıdır.

### Azğınlaşmış, quduzlaşmış kütlə, qəbilə

Dünyaya qan tökmək missiyası ilə gələn faşist ideologiyalı erməni vandallarının törətdikləri 1918-ci il mart soyqırımı, 1992-ci il 26 fevral - Xocalı soyqırımı, əsir və girov götürdükləri soydaşlarımızın başına gətirdikləri müsibətlər erməni adının qarşısında heç zaman silinməyəcək qara ləkədir.

İnsan faciəsindən zövq alan hayların bu günə qədər də özlərini "mədəni xalq" adlandırmaları hər kəsdə dərin nifrət oyadır. Bu il aprelin 7-də Cəbrayılda hərbi qulluqçumuz minaya düşərək həlak olub. Sosial şəbəkələrin erməni seqmentində isə bu faciəvi hadisəyə şadyanalıqla münasibət bildirən, həyatını itirən hərbçimizə qarşı təhqiramiz ifadələr işlədən haylar azərbaycanlı mina qurbanlarının sayının daha da artmasını, bunun davamlı olmasını arzulayırlar...

Təkcə sıravi ermənilərmi?! Xeyr! Dəqiq mina xəritələrini Azərbaycana təqdim etməkdən yayınaraq xalqımıza qarşı mina terrorunu davam etdirən Ermənistan hökuməti də bu çirkin arzu və niyyətdədir.

Bəs budurmu erməni "mənəviyyatı", "mədəniyyəti"?!

Əslində, Qarabağda 30 il törətdikləri vandallıqlar, vəhşiliklər, talanlar da ermənilərin hansı "mədəniyyət"in yiyəsi olduğunu əyani şəkildə gözlər önünə sərir.

Nümayiş etdirdikləri bu iyrənc davranışları ilə haylar sübut edirlər ki, zaman dəyişsə də, erməni xisləti dəyişmir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2021-ci il sentyabrın 27-də Anım günü ilə əlaqədar xalqa müraciəti zamanı söylədikləri də dəyişməyən erməni xislətinin sözlərlə dəqiq təsviridir: "Ermənistanda hakimiyyət dəyişikliyi olur və olubdur, ancaq düşmənin xisləti dəyişmir. Ermənistanda tüğyan edən azərbaycanofobiya, islamofobiya psixi xəstəlik dərəcəsinə çatmışdır. Azərbaycanlılara qarşı olan nifrət orada rəsmi ideologiya kimi bərqərar edilib. Əks təqdirdə, bu qədər vəhşilik törədilməzdi. Azad edilmiş torpaqlara hər gələn insan dəhşətə gəlir ki, bunu törədən insan deyil. Mən hətta deyə bilərəm ki, bunu törədən heyvan da deyil. Bunu törədən azğınlaşmış, quduzlaşmış, azərbaycanofob kütlədir, qəbilədir".

### "Sən köləsən, sən qorxaqsan, çünki sən..."

Əsrlərdir bu cür psixi xəstəliyə düçar olan haylar tarixə saxta izlər qarışdırır, utanmadan erməni köklərinin "minillər" əvvələ uzandığını iddia edir, başqa xalqların mədəniyyətini oğurlayır, mənimsəyir, həyasızlıqla özününkü olduğunu söyləyirlər.

Yer üzərində şərə xidmət edən ən pis insan əməli yalanın erməni genetikasında kodlaşdığı gerçəklikdir. Hələ ötən əsrlərdə dünyaca məşhur yazıçılar, şairlər yalançı erməni xisləti ilə bağlı əsərlərində qeydlər etməyi və digər xalqları bundan hali etməyi özlərinə borc sayıblar. "Qışqıra-qışqıra danışmaq bu xalqın xəstəliyidir. Özgə millətləri də özlərinin xeyrinə qışqırmağa, yalan informasiya yaymağa cəlb edə bilirlər", - deyə yazıçı Jemçuynikov yazıb.

Əsrlər boyu namərdliklə, xainliklə, yaltaqlıqla, ikiüzlülüklə, eyni zamanda "zavallı xalq" rolunu oynamaqla başqalarına aid torpaqlarda qondarma dövlət yaratmaq istəyən haylar iyrənc niyyətlərinə heç zaman nail ola bilməyiblər və bundan sonra da arzularına çatmayacaqlar.

Çünki bu cür xəstə təfəkkürə malik millətin axırı yoxdur. Onlar nə sağlam dövlətçiliyə, nə də sağlam gələcəyə nail ola bilərlər!

Erməni xislətinə yaxşı bələd olan dahi rus şairi Puşkinin yazdığı kimi: "Sən köləsən, sən qorxaqsan, çünki sən ermənisən"...

Artıq şərhə daha ehtiyac yoxdur!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## *ZƏRƏRÇƏKƏN:* "Tibb məntəqəmiz, sanitar maşınlarımız, həkimlərimiz artilleriya zərbələrinə məruz qalmışdı"

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi aprelin 8-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Məhkəmə prosesi zərərçəkmiş şəxslərin dindirilməsi ilə davam etdirilib.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələrini izah edib.

Sonra təqsirləndirilən Ruben Vardanyan və onun hüquqlarını müdafiə edən vəkili Avraam Berman məhkəməyə müraciət edərək məhkəmənin iclas protokolları ilə təkrarən tanış olmaq istədiklərini bildiriblər.

İclasa sədrlik edən Zeynal Ağayev onlara protokollarla tanış olmaq üçün yenidən şərait yaradılacağını deyib.

İclasda Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, Ermənistan dövləti tərəfindən aparılan təcavüzkar müharibənin gedişində çoxsaylı cinayət faktları törətmiş cinayətkar birliyə təqsirləndirilən şəxs Ruben Vardanyan 2020-ci ilin dekabr ayında qoşulduqdan sonra həmin birlik tərəfindən törədilən cinayətlər nəticəsində zərərçəkmiş şəxslər dindirilib.

Zərərçəkən Vahid Əliyev təqsirləndirilən şəxslə tanışlığının olmadığını, R.Vardanyanı sosial şəbəkələr və media vasitəsilə tanıdığını bildirib. O, Ermənistan ordusunun hərbi təxribatı zamanı açılmış atəş nəticəsində yaralandığını, döyüş yoldaşlarının bir neçəsinin isə şəhid olduğunu və müxtəlif xəsarətlər aldıqlarını deyib.

Zərərçəkmiş Anar Cəlalov ifadəsində Ermənistan silahlı qüvvələrinin hərbi təxribatı zamanı atılmış artilleriya mərmisinin partlaması nəticəsində xəsarət aldığını bildirib. O, hadisə zamanı hərbi hissənin qərargah rəisi olduğunu söyləyib və əlavə edib: "Qarşı tərəfdən top atəşləri açılırdı. Həmin vaxt xidmət yoldaşlarımdan xəsarət alanlar və şəhidlik zirvəsinə ucalanlar oldu".

Bundan başqa, zərərçəkmiş Xocavənd istiqamətində atəşkəsin tez-tez pozulduğunu, qarşı tərəfin bütün atıcı silahlardan istifadə etdiyini bildirib.

İfadə verən zərərçəkmiş Emin Şahbazov dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zaman Ağdamda yaralandığını bildirib.

Kəllə-beyin travması almış hərbçi hospitala aparıldığını, orada danışa bilmədiyini, istəklərini həkimlərə yazı vasitəsilə çatdırdığını deyib.



O, yaralanması hadisəsini belə danışıb: "Düşmənin iki postu var idi. Onlar hərbi təxribat törətmək istəyərkən biz bunun qarşısını aldıq. Sonra onların artilleriya hücumu başlandı. Nəticədə yaralandım. Müxtəlif hospitallarda müalicə olunmuşam. Müalicəm indi də davam edir".

Zərərçəkmiş Hilal Həsənov dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zaman Ağdərə istiqamətində düşmənin hərbi təxribatının qarşısını alarkən yaralandığını bildirib və deyib: "Düşmən hərbi təxribat törədərək əvvəlcə artilleriya atəşi açır, sonra canlı qüvvə ilə hücuma keçməyə cəhd edirdi, lakin bu təxribatın qarşısı alındı. Şəhidlərimiz, yaralılarımız oldu".

Zərərçəkmiş Zamiq Həsrətov ifadəsində düşmən təxribatının qarşısını alarkən minaatandan atılan atəş nəticəsində yaralandığını deyib.

Zərərçəkmiş Elnur Həsənov dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zaman Ermənistan tərəfinin açdığı atəşlər nəticəsində dəfələrlə yaralandığını bildirib. O, 3 güllə yarası aldığını, bədənində olan qəlpələrdən 70-nin çıxarıldığını, 30-dan artıq qəlpənin hazırda bədənində olduğunu bildirib və deyib: "Hazırda xidmətdəyəm, xidmətimi davam etdirirəm".

Zərərçəkmiş Fariz Manafov da ifadəsində təqsirləndirilən şəxsi sosial şəbəkələr vasitəsilə tanıdığını, yaralandığını bildirib. F.Manafov hadisə zamanı qarşı tərəfin iriçaplı silahlarla və artilleriya silahları ilə atəş açdığını vurğulayıb və deyib: "Xocavənd rayonunun Çartaz kəndi istiqamətində motoatıcı taqım komandiri vəzifəsində xidmət etmişəm. Düşmən tərəfinin təxribatları tez-tez olurdu. İriçaplı silahlardan, artilleriyadan istifadə edirdilər".

O, hərbçi yoldaşlarından 14-nün yaralandığını, 2 əsgərin və 1 nəfər gizirin isə şəhid olduğunu deyib.



İfadə verən zərərçəkmiş şəxs, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində tibb xidməti rəisi olmuş Aqşin Balakişiyev deyib: "Düşmən təxribatı nəticəsində arxa məntəqədə düşmən artilleriyasından açılan atəş nəticəsində yaralandım".

O, çalışdığı səyyar tibb məntəqəsinin döyüş şəraitindən 5-10 kilometr arxada olduğunu, məntəqənin tibb məntəqəsi olmasını göstərən işarənin (qırmızı aypara şəkli) mövcudluğuna baxmayaraq atəşə tutulduğunu söyləyib: "Orada bütün həkimlərin və sanitarların qollarında qırmızı bayraq olur. Bizim tibb məntəqəmizlə yanaşı, həm sanitar maşınlarımız, həm sanitarlarımız, həm də həkimlərimiz düşmən təxribatı nəticəsində artilleriya zərbələrinə məruz qalmışdı. Yəni, beynəlxalq konvensiyanın tələbləri pozulub".

Zərərçəkmiş Habil Quliyev ifadəsində yaralandığını bildirib. "Düşmən mütəmadi olaraq atəş açırdı", - deyə o əlavə edib.

Zərərçəkmiş Fərhad Tağıyev Ağdamda yaralı hərbi qulluqçuları təxliyə etmək üçün sanitar avtomobillə gedərkən nəqliyyat vasitəsinin vurulduğunu bildirib və deyib: "Avtomobilin üç tərəfi qızıl aypara şəkli ilə işarələnib. Yəni, açıq-aydın bilinir ki, bu, yaralıları təxliyə edən maşındır. Maşınımız raketlə vuruldu. Nəticədə mən və maşında olan digər 4 hərbçi yoldaşım xəsarət aldı".

Onunla birlikdə həmin sanitar nəqliyyatında olmuş digər zərərçəkmiş Fərid Zeynalov F.Tağıyevin ifadəsini təsdiqləyib. O, maşının idarəolunan raketlə vurulduğunu söyləyib.

Zərərçəkmiş Hicran Sultanov Ağdamda düşmən təxribatının qarşısını alarkən yaralandığını bildirib və deyib: "Qrup komandiri vəzifəsində olmuşam. Döyüş yoldaşlarımızı - yaralılarımızı və şəhidlərimizi təxliyə edərkən tibb maşınını vurmaq istəyirdilər. Tibb maşınını vurmaları alınmadı. Düzgün nişan ala bilməmişdilər, atıcı səhv etmişdi. Hər halda tank əleyhinə olan "Faqot"u iki nəfərə görə atmazdılar. Əsas mərmi bizdən 10-15 metr aralı düşdü. Bəxtimiz gətirdi ki, olduğumuz yer torpaq idi, boşluq idi. O qədər qəlpənin hamısı üstümüzə gəlmədi".

Zərərçəkmiş Ruslan Heydərov Xocavənddə snayper tüfəngindən açılmış atəş nəticəsində sağ çiynindən yaralandığını bildirib.

Digər zərərçəkənlər - Nəbi Babayev, Vüqar Məmmədov, Emil Nəbiyev, Mahir Zeynalov, Sübhan Əlirzayev, Əfran Kamilov, Təbriz Əhmədov, Cavidan Talıblı, Niyaməddin Əsgərov, Həsən Qurbanov və başqaları ifadələrində qarşı tərəfin müxtəlif silahlardan onların mövqelərinə atəş açdığını bildirib, özlərinin müxtəlif xəsarətlər aldıqlarını deyiblər.

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Məhkəmənin növbəti iclası aprelin 15-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# REGİONLAR

## Ağstafalı "Sərhəd Pələngi"

**Ağstafada Vətən müharibəsi qəhrəmanı Azər Yusifliyə həsr olunan "Sərhəd Pələngi" adlı sənədli filmin nümayişi olub.**



Heydər Əliyev Mərkəzində keçirilən filmin nümayişində qəhrəman şəhidin atası Nazim Yusifov, rayonun yerli icra və hüquq-mühafizə orqanlarının rəhbərləri, Dövlət Sərhəd Xidmətinin əməkdaşları, şəhid ailələrinin üzvləri, müharibə veteranları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Filmin nümayişindən əvvəl müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Rayon icra hakimiyyətinin başçısı Seymur Orucov çıxış edərək Azər Yusiflinin 44 günlük Vətən müharibəsi zamanı müqəddəs torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə nümayiş etdirdiyi şücaət və fədakarlıqdan, eləcə də şəhid ailələrinin üzvlərinə, müharibə iştirakçılarına dövlətimiz tərəfindən göstərilən yüksək qayğıdan söz açıb.

Qəhrəman şəhidin atası N.Yusifov çıxış edərək Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə xalqımıza bəxş etdiyi tarixi Zəfərə, həmçinin şəhidlərimizin əziz xatirəsinin hər zaman uca tutulmasına, onların ailə üzvlərinə göstərilən hərtərəfli dövlət qayğısına görə minnətdarlığını bildirib.

Filmin nümayişindən sonra tədbir iştirakçıları mərkəzin foyesində Azər Yusiflinin keçdiyi ömür və döyüş yolundan bəhs edən jurnal, kitab və qəzetlərdən ibarət sərgi ilə tanış olmuşlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## "Gəncliyin səsi" Sumqayıtdan gəlib

**Sumqayıtda "Gəncliyin səsi" adlı ədəbi-bədii tədbir keçirilib. Tədbiri Musiqi Kollecinin direktoru Səbinə Mehdiyeva açaraq bildirib ki, ötən əsrin 70-ci illəri və 80-ci illərinin birinci yarısı Sumqayıt üçün xüsusən əlamətdar olub.**



Məhz bu dövrdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Sumqayıtın tərəqqi və dirçəliş dövrünü yaşadığını deyən natiq bu gün onun Ulu Öndərin arzuladığı müasir şəhərə çevrildiyini bildirib. Vurğulanıb ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Sumqayıt daha da inkişaf edib. Dövlət başçısının hər səfəri şəhərin tarixinə mühüm hadisə kimi yazılmaqla yanaşı, Sumqayıtın tərəqqisinə təkan verib.

Milli Məclisin deputatı Səbinə Salmanova çıxışında şəhərin simasının tamamilə dəyişdiyini qeyd edib. Bildirib ki, bu dəyişikliklər Prezident İlham Əliyevin Sumqayıta göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov isə çıxışında Ulu Öndər Heydər Əliyevin dövlətçilik ideyalarına sadiq olan sumqayıtlıların Azərbaycanın müasir inkişafında mühüm rol oynadığını diqqətə çatdırıb. Qeyd edib ki, şəhərin gündən-günə inkişaf etməsi, abadlaşması Prezidentin dəstəyinin və səylərinin göstəricisidir. ŞİH-in başçısı diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin qayğısı ilə Sumqayıt öz tarixi şöhrətini bərpa edir, müasirlik və tərəqqi simvoluna çevrilir. Şəhər qazandığı uğurları ilə Azərbaycanın iqtisadi və mədəni potensialına mühüm töhfələr verir.

Tədbirdə həmçinin bildirilib ki, son illər Sumqayıtda həyata keçirilən genişmiqyaslı layihələrin miqyası və əhatə dairəsi bir neçə onillik dövrü əhatə edir. Qısa zamanda şəhər tamamilə modernləşib, tətbiq olunan müasir quruculuq işləri yeni şəhər standartlarının formalaşmasına səbəb olub.

Şəhid ailələri və şəhər ictimaiyyəti nümayəndələrinin iştirak etdikləri tədbir tanınmış incəsənət ustalarının ifasında musiqi nömrələri ilə yekunlaşıb.

*A.ƏLİYEV,*
*"Azərbaycan"*

## Mingəçevirdə tikilən yeni enerji nəhənginin istifadəyə verilməsinə çox qalmayıb

**Azərbaycan bu gün regionda kənardan heç bir enerji asılılığı olmayan, bütün sahələr üzrə öz enerji tələbatını daxili imkanları hesabına tam ödəməyə qadir olan azsaylı ölkələrdən biridir. Odur ki, bu gün ölkəmizdə həyata keçirilən enerji siyasətinin hədəfi dünya bazarlarına çıxış imkanlarını artırmaq və dünya dövlətləri üçün alternativ enerji mənbəyi yaratmaqdan ibarətdir.**



Öz enerji potensialından səmərəli istifadə edən ölkəmizdə daim yeni elektrik stansiyalarının işə salınması, mövcud infrastrukturun təzələnməsi Azərbaycanı enerji ixrac edən ölkəyə çevirmişdir. Ölkəmizdə elektrik enerjisinin əsas istehsalçısı "Azərbaycan" İstilik Elektrik Stansiyasıdır (İES). Məlumat üçün bildirək ki, "Azərbaycan" İES Mingəçevirdə fəaliyyət göstərən, hər biri 300 MVt gücündə olan 8 aqreqatdan ibarət istilik-elektrik stansiyasıdır. Stansiyanın soyutma suyunun mənbəyi "Qarabağ" kanalıdır. İES-in tikintisinə 1974-cü ildə başlanılmışdır. Ümumi gücü 2400 meqavat olan stansiyanın birinci enerji bloku 1981-ci, 8-ci enerji bloku isə 1990-cı ildə istismara verilmişdir.

Mingəçevir Elektrik Stansiyasının önəmi İkinci Qarabağ müharibəsi zamanında bir daha bəlli oldu. Çünki o vaxt döyüş meydanında məğlub olan Ermənistan Azərbaycanın mülki obyektlərini atəşə tuturdu. Düşmən yüzlərlə yaşayış evini tamamilə dağıtmış, 100-ə yaxın dinc insanı qətlə yetirmişdir. Ermənistanın hədəfində Mingəçevir Elektrik Stansiyası da var idi. Döyüş meydanında məğlub olan Ermənistan Azərbaycanın elektrik potensialının əsas mərkəzini sıradan çıxarmaq istəyirdi. Ancaq buna nail ola bilmədi. Çünki həmin raketlərin bir çoxu Azərbaycanın hava hücumuna qarşı müdafiə sistemləri tərəfindən məhv edildi.

Zəfərdən sonra Mingəçevir şəhərinin nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başladı. 2023-cü ilin fevralında Mingəçevirdə 1280 meqavat gücündə yeni İES-in tikintisinə start verildi. Stansiyanın təməlqoyma mərasimində çıxış edən Prezident İlham Əliyev söyləmişdi ki, 2025-ci ildə fəaliyyətə başlayacaq yeni stansiya Azərbaycanın enerji potensialını daha da gücləndirəcək. Burada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin. Hazırda Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu üçün bu, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaqdır: "Çünki buna həm Azərbaycanda, həm də Avropada ehtiyac var. Biz azad edilmiş torpaqlarda bərpa-yenidənqurma işlərini, ilk növbədə, elektroenergetika sahəsindən başlamışdıq və artıq 10-dan çox yarımstansiya, 10-dan çox su-elektrik stansiyası inşa edilmişdir. Artıq biz iki il ərzində Şərqi Zəngəzur bölgəsində 50 meqavatdan çox generasiya gücü yaratdıq və bu rəqəm bu ilin sonuna qədər 200 meqavata çatacaq. Yəni biz ancaq azad edilmiş torpaqlarda cəmi 3 il ərzində 200 meqavatlıq enerji gücü yaratmış olacağıq. Bütün stansiyalar ümumi şəbəkəyə qoşulmuşdur. Şərqi Zəngəzurun və Qarabağın böyük hidroenergetika potensialı imkan verəcək ki, biz o bölgələrdə 500 meqavata qədər generasiya gücləri yaradaq. Yəni bu sahə prioritet olaraq qalır".

"AzərEnerji"nin məlumatına görə, 1280 meqavatlıq yeni elektrik stansiyasında artıq işlər yekunlaşmaq üzrədir: "Mingəçevir şəhərindəki "Azərbaycan" İES-in ərazisində inşa edilən bu nəhəng enerji obyektinin qrafikə uyğun olaraq, 2025-ci ilin sonuna kimi istismara verilməsi planlaşdırılsa da, artıq proses qrafikdən əvvəl başa çatmaqdadır. Hazırda yeni elektrik stansiyasının 4 ədəd turbin və generatorlarından 3 dəsti test edilərək qoşulub və bir dəstinin isə yaxın vaxtlarda işə buraxılması həyata keçiriliəcək". Qeyd edək ki, yeni tikilən elektrik stansiyası qoyuluş gücünə görə müstəqillik dövründə tikilən ən böyük elektrik stansiyası olmaqla yanaşı, ölkədəki digər istilik-elektrik stansiyaları arasında hər kilovat-saat üçün ən az qaz yandıran elektrik stansiyası olacaq.

Bəs bu nəhənglikdə enerji obyektinin istismarı və idarə edilməsi üçün yerli kadr təminatı necə olacaq? "AzərEnerji"yə istinadən bildirək ki, yeni elektrik stansiyasının turbin və generatorları İtaliyanın "Ansaldo Energia", util qazanlar isə Çinin "Dongfang" şirkətinin istehsalı olduğundan dəfələrlə bu şirkətlərin mütəxəssisləri Mingəçevirdə, "AzərEnerji" mütəxəssisləri isə İtaliya və Çində olub, əyani kurslarda iştirak ediblər. Hazırda isə stansiyada qurğuların, avadanlıqların texniki sistemlərinin tam və etibarlı şəkildə istismarının təmin edilməsi, Qazan-Turbin sexinin işçilərinin bilik və peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə "Util qazan təlim proqramı" üzrə aparılan turbin, generator və avtomatika sahələri üzrə kadr hazırlığı proqramı həyata keçirilir. İtaliyanın "Ansaldo Energia" şirkətinin nümayəndələri tərəfindən keçirilən proqramda stansiyanın işçiləri iştirak edirlər. Kurs şəklində keçirilən proqrama indiyəcən "AzərEnerji" ASC-nin 130 əməkdaşı cəlb olunmuşdur.

Yeni stansiyanın tikilməsi ölkənin enerji dayanıqlığının təmin olunması, əlavə generasiya güclərinin yaradılması, yüksələn enerji tələbatının qarşılanması deməkdir. Stansiya həm də ixrac imkanlarının artırılması, bərpaolunan enerji mənbələrinin enerji sisteminə inteqrasiyasının əks təsirlərinin balanslaşdırılması yönümündən, önəmli olması ilə diqqət çəkir. Bundan başqa, yeni İES ətraf mühitin qorunması, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsi, iqlim dəyişiklikləri ilə bağlı baş verən kataklizmlərin qarşısının alınması baxımından da xüsusi əhəmiyyətə malikdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Quba baharda daha füsunkar olur

**Ölkəmizdə qeyri-neft sektorunun inkişafı prioritet elan ediləndən sonra qiqqət mərkəzində dayanan sahələrdən biri də turizmdir. Turizm həm də bir çox digər sahələrin inkişafını təmin edir. İndi Azərbaycanda bu sektorun gəzinti turizmindən sağlamlıq turizminədək az qala bütün növləri fəaliyyət göstərir. Turistlər onlardan ilin bütün fəsillərində yararlanıb istirahət və müalicə oluna bilirlər.**



Səyahət sevənlərin ən çox seçdikləri turizm məkanlarından biri də Qubadır. Qubada ölkəmizin şəhər və rayonlarından, eləcə də xaricdən gələnlərə hər gün rast gəlmək mümkündür. Onlar bu bölgəni yayda da, qışda da bəyənirlər. Yazda səyahətin isə öz yeri var. Zəngin flora və faunası ilə seçilən Quba yazda xüsusi bir görkəm alır. O üzdən bahar girəndən bəri rayona istirahətə gələn turistlərin sayı xeyli artıb. Quba Olimpiya İdman Kompleksi, SPA mərkəzləri, Xınalıq kəndi, Qonaqkənd, Afurca və digər ərazilərdəki turizm məkanlarında xüsusən həftəsonu canlanma müşahidə olunur. Yeri gəlmişkən, deyək ki, turizm obyeklərində şərait fəsillər nəzərə alınmaqla dəyişir. Turistlərin yerləşdikləri binaların havalandırılması, ətrafın infrastrukturu fəslə uyğun qurulur.

Quba rayonunda dağ, kənd, çadır turizmi geniş yayılıb. Yazda hotellərə müraciət edənlər daha çox olur. Görünür, qonaqlar yaz yağışından sığortalanmaq üçün qapalı yerlər seçirlər. Bununla belə, turistlərin sevdiyi marşrutlardan biri dağ kəndlərinə, o cümlədən Xınalıq istiqamətinədir. Xınalığın tarixi, onun qədim yaşayış məskəni kimi indiyədək qalması bu məkana turist axınını şərtləndirir. Şəraitə uyğun olaraq burada turizmin kənd və çadır növləri daha çox yayılıb. Odur ki, kənd evlərində, təbiətin qoynunda qurulmuş çadırda istirahət edən qonaqlarla hər zaman rastlaşmaq mümkündür. Haput, Qrız, Cek, Afurca, Gültəpə və digər kəndlərə yol alan turistlərin də sayı azalmır. Havalar bir az isinən kimi iri qayaların, daş parçalarının yaxınlığında dincələn çox sayda romantik duyğulu insanlara rast gəlinir. Onlar baş gicəlləndirən dərin dərələrə, keçilməz yarğanlara baxmaqdan heyran qalanlardır.

Ümumiyyətlə, hazırda dünyada ən çox yayılmaqda olan turizm növlərindən biri kənd turizmidir. Bu, turizm bölgəsi olan Qubada da belədir. İlin bütün fəsillərində minlərlə turist yolunu rayonun kəndlərinə, xüsusən Nügədi, Təngaltı, Afurca, Qəçrəşə salır. Azərbaycanın elə bir rayonu yoxdur ki, oradan Qubanın kəndlərinə turist marşrutları təşkil edilməsin. Yerli turistlərlə yanaşı, müxtəlif ölkələrdən yüzlərlə qonaq Qubanın səfalı kəndlərinə üz tutur. Özü də ildən-ilə onların sayı artmaqdadır.

Bu səbəbdən Qubadakı istirahət mərkəzlərinin sayı da ilbəil çoxalır. Bunun digər səbəbi dağ kəndlərinin yollarının təmiridir. Məsələn, Qonaqkənd istiqamətində yolların təmiri əraziyə turist axını ilə müşahidə edilir. Səfalı Möhüc, Tülər, Gültəpə, Yenikənd kimi dağ kəndləri də tezliklə yeni turist marşrutları olacaq. Artıq həmin kəndlərdə turizm infrastrukturu yaradılır.

Həmsöhbətim Ruslan Hüseynov Qubada turizm sahəsində çalışır. O da təsdiqləyir ki, bahar girəndən Qubaya gələn qonaqların sayı çoxalıb. Onlar təbiətin oyanışından həzz almaq istəyənlərdir. Ruslan həm də bildirdi ki, yaz-yay mövsümü ilə bağlı turizm obyektlərində təmizlik və hazırlıq işləri başa çatıb.

Yeri gəlmişkən, onu da qeyd edək ki, son illərədək istirahət mərkəzlərində çalışanlar arasında mütəxəssislərin sayı az idi. Bu da turistlərin qəbulunda, eləcə də, onlara göstərilən xidmətdə özünü göstərirdi. Hətta bəzən turist bir istirahət yerində qəbuldan, xidmətdən məmnun qalmayıb digər məkana üz tuturdu. Artıq bu problem də aradan qaldırılır. Rayonda bu sahədə çalışanlar vaxtaşırı xüsusi kurslarda iştirak edir, təcrübələrini artırırlar. Çünki bu gün turist üçün istirahət mərkəzlərinin təkcə təbiəti deyil, həm də orada işin necə təşkil olunduğu da önəmlidir.

Qubanın dağətəyi kəndlərində isə çadır turizmi geniş yayılıb. Çadır turizmini daha çox avropalılar sevirlər. Şəxsi maşınlarında səyahətə çıxanlar bəyəndikləri yerlərdə gecələməyə üstünlük verirlər. Belə ərazilərdə olan turistlər həm də yaxınlıqda yaşayan insanlarla təmasda olurlar. Məlumdur ki, Qubada bir sıra azsaylı xalqların nümayəndələri yaşayırlar. Onların tarixi kökləri ilə maraqlanan turistlər, daha doğrusu, həmin xalqların tarixini və mədəniyyətini öyrənən mütəxəssislər ilk növbədə Qubaya üz tuturlar. Bu o deməkdir ki, tat, yəhudi, ləzgi, ahıska türklərinin mədəniyyəti turizm sektorunun inkişafı üçün yeni imkanlar açıb.

Təbiət getdikcə min rəngə boyanır. Bahar yerini bərkitdikcə çal-çağırı da artır. Sonra isə yay gəlir. Deməli, Quba hələ uzun müddət qonaq-qara sarıdan korluq çəkməyəcək.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Görüş yeri dəyişir

**Biz görmüşdük məmur hansısa bir sual yarananda iş adamını yanına dəvət edir. Bu dəfə əksinə olmuşdur. Belə bir görüş Göygöl rayonunun Üçtəpə kəndində fəaliyyət göstərən "SYN Agro" MMC-də keçirilmişdir.**

Rayon icra hakimiyyəti başçısının müavini Arzu Qocayevin, Gəncə-Daşkəsən Regional Məşğulluq Filialının Təhlil və tərəfdaşlarla iş şöbəsinin müdiri Pərviz Əliyevin, rayon Statistika İdarəsinin rəisi Ruzigar Həsənovun, Göygöl KOB dostu Orxan Məmmədovun, Göygöl Dövlət Aqrar İnkişaf Mərkəzinin sektor müdiri Ramin Kərimovun və digər aidiyyəti qurumların nümayəndələrinin iştirak etdikləri görüşdə qeyri-formal məşğulluğun qarşısının alınması üçün əlaqələndirmə komitəsi tərəfindən gö-



rülən işlərdən, əmək münasibətlərinin təkmilləşdirilməsi sahəsində bundan sonra da zəruri tədbirlərin həyata keçiriləcəyindən danışılmışdır. Dövlətin sahibkarlığın inkişafına böyük dəstək verdiyini, iş adamlarının hüquqlarının qanunvericilik əsasında qorunması üçün genişmiqyaslı hüquqi islahatlar aparıldığını, həmçinin sahibkarlara bir çox güzəştlər edildiyini, bunun sayəsində özəl sektorun inkişaf etdiyi qeyd olunmuşdur. O da bildirilmişdir ki, görülən bu cür işlər nəticəsində təkcə keçən il rayonda 223 yeni iş yeri açılmışdır.

Görüşdə "SYN Agro" MMC-nin rəhbəri Yaşar Məmmədzadə görüş iştirakçılarını təsərrüfatla əyani tanış etmişdir. Məlumat vermişdir ki, təsərrüfat 2015-ci ildə yaradılmışdır. Hazırda burada 42 baş qaramal və 20 baş davar bəslənilir. Təsərrüfatda gündəlik 550 litr süd sağılır və ondan müxtəlif süd məhsulları istehsal olunaraq satışa çıxarılır.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüş mövcud problemlər, onların həlli yolları, qarşıda duran vəzifələrin müzakirəsi ilə başa çatmışdır.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*





# Mədəniyyət





Tarixi məkanlara səyahət

# Ölkəmizin turizm coğrafiyası genişlənib

**Yaz fəslində təbiətdə, eləcə də sosial həyatda xüsusi bir canlanma olur. Təbiət yaşıl libasa büründükcə, havalar istiləndikcə insanların istirahət etmək, gəzintidə olmaq, səyahətə çıxmaq istəyi çoxalır.**



Bakıda, mavi Xəzərin sahillərindəki istirahət guşələri, sanatoriyalar, çimərliklər, Quba, Qusar, Qax, Balakən, Zaqatala, Lənkəran, Astara, Lerik, Göygöl, Hacıkənd, Daşkəsən, Gədəbəy kimi rayonlar, bu yerlərdə dağlı-dərəli meşəliklər, buz bulaqlar, axar çaylar, yüksək standartlar səviyyəsində yaradılmış istirahət mərkəzləri turizm həvəskarlarına xüsusi zövq verir. Bu sıraya beş il bundan əvvəl Ermənistan silahlı birləşmələrinin işğalından azad edilmiş Qarabağ bölgəsini də əlavə etsək, ölkəmizdə turizmin coğrafiyasının nə qədər böyük olduğu bir daha göz önündə canlanar. Cıdır düzünü gəzmək, İsa bulağından su içmək, Şuşanı görmək, Şərqi Zəngəzuru ziyarət etmək yerli turizm həvəskarları ilə yanaşı, xarici ölkə vətəndaşlarının da maraq dairəsindədir.

Son illər bu əraziləri ziyarət edənlərin sayı artıb. Bu il Novruz bayramı günlərində Şuşaya səfər edənlərin sayı ötənildəkindən qat-qat çox olub. Ölkənin müxtəlif şəhər və rayonlarında yaşayan soydaşlarımız Ağdam, Xocalı, Xankəndi, Şuşa marşrutu üzrə işğaldan azad olunan əraziləri ziyarət ediblər. "Yolumuz Qarabağa" portalından qeydiyyatdan keçərək bu ərazilərdə minlərlə insan gəzintidə olub. Onlar sözügedən ərazilərin tarixi, gəzməli-görməli yerləri ilə maraqlanıblar. Şuşa şəhərinin qonaqları buranın müxtəlif çeşidli milli mətbəxindən olan təamlardan da dadıblar.

Bu bölgənin şəhər və kəndlərinə fərdi avtomobillə gələnlərin sayında da çoxluq müşahidə olunub. Məlumata görə, indiyədək vətəndaşlar yalnız müəyyən istiqamətlərdə təşkil edilmiş avtobus reysləri və qrup şəklində turist səfərləri ilə işğaldan azad edilmiş ərazilərə səfər edirdilərsə, cari ilin yanvarından Şuşa şəhərinə səfər Füzuli rayonunun Alxanlı keçid məntəqəsindən daxil olmaqla "Zəfər Yolu" ilə, Suqovuşan qəsəbəsinə isə Tərtər və Goranboy (Tapqaraqoyunlu kəndi) rayonlarından keçməklə gəzintilərini davam etdiriblər.

Görünən odur ki, yaxın illərdə Azərbaycan turizminin ürəyi bu bölgədə döyünəcək. Bunun üçün müəyyən addımlar da atılır. Təhlükəsizliyin təmin olunması, infrastrukturun yenidən qurulması, habelə turizm sektoru üzrə peşəkar kadr potensialının formalaşdırılması istiqamətində işlər aparılır. Bütün tikililər, "ağıllı kənd" layihələri, yeni evlərin inşası, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qayıdışı gələcəkdə həmin ərazilərdə qaynar həyatdan, geniş turizm imkanlarının yaranacağından xəbər verir.

Şərqi Zəngəzur və Qarabağ böyük su hövzələri, meşələri, dağları, mənzərəli məkanları ilə zəngindir. Təbii və antropogen resurslarla zəngin olan bu ərazilərdə müxtəlif turizm fəaliyyətlərinin inkişafı üçün olduqca əlverişli şərait mövcuddur. Əvəzsiz təbiət mənzərələri, mineral sular, tarixi-mədəni abidələr, ləziz mətbəx, folklor və sairə amillər turistlərin bu yerləri təkrar görmək istəyini birə-beş artırır. Qarabağ ərazisində milli parkların yaradılması turizm marşrutlarının artırılmasına, bu sahəyə maraqlı olan səyahətçilərin sayının çoxalmasına səbəb olacaq. Azərbaycan Ekoturizm Assosiasiyasının fəalları ötən il bir neçə dəfə bölgədə olublar, doğma yurdda ekoturizm üçün müvafiq işlərin aparılmasına start veriblər.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın hədəf göstəricilərində turizm sektorunun inkişafı əsas infrastruktur layihələrindəndir. Onun əsasında Dövlət Turizm Agentliyində "İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişafı ilə bağlı Fəaliyyət Planı" təsdiq edilib. İşğaldan azad edilmiş ərazilər üzrə Qarabağ Regional Turizm İdarəsinin, habelə Prezidentin sərəncamı ilə ötən ilin iyun ayında "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılması bu sahəyə diqqətin bariz nümunəsidir.



Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji" zonası elan edilməsi isə turizmin inkişafında yeni qapıların açılması deməkdir. Artıq Şuşa, Xankəndi və Zəngilanda ən müasir hotellərin istifadəyə verilməsi, əlavə zəruri turizm infrastrukturlarının yaradılması istiqamətində işlərin davam etdirilməsi bu bölgənin ən münbit və əlverişli ekoturizm sənayesi mərkəzinə çevrilməsinə güclü zəmin yaratmaqdadır.

Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında sərəncamında deyildiyi kimi, "Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır". Deyə bilərik ki, ölkəmizdə rəsmi səfərdə olan dövlət başçıları, ictimai-siyasi xadimlər, qonaqlar, eləcə də Azərbaycana gələn turistlər bu hüquqi bazadan yaranan reallıqların, ölkəmizdə yaşayan azsaylı xalqlar da daxil olmaqla, dinindən, dilindən və irqindən asılı olmayaraq bütün insanların qanuni hüquq və azadlıqlarının şahidi olacaqlar.

İstisna deyil ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində ekoloji tədbirlərin təşviqi ilə bağlı xarici qonaqlarda əyani təsəvvür yaratmaq üçün Qarabağ və Şərqi Zəngəzura səfərlər təşkil olunacaq. Azad edilmiş ərazilərə səfər edən xarici qonaqlar bölgənin ekoturizm zənginliyini gördükdən sonra davamlı olaraq bu yerlərə gəlməyə çalışacaqlar.

Rəsmi mənbələrin, eləcə də kütləvi informasiya vasitələrinin açıqlamalarından məlum olduğu kimi, pandemiya dövründən başlayan 3-4 illik azalmadan sonra turizm sektorunda yenidən canlanma müşahidə edilir. Xüsusilə də ərəb ölkələri və körfəz dövlətlərindən Azərbaycana gələnlərin sayı artmaqdadır. Son illərdə Azərbaycana dünyanın 180 ölkəsindən turist səfərləri olub. Körfəz ölkələrindən, Avropa İttifaqından, habelə MDB regionundan gələnlərin sayında ötənilki dövrlə müqayisədə artım qeydə alınıb.

Yeri gəlmişkən, ərəb və körfəz ölkələrindən gələn turistlərin tələbatını nəzərə alaraq turizm obyektlərinə "halal hotel" sertifikatı verilib. "Halal hotel" konsepti islam qanunlarına uyğun xidmət göstərən hotellərə aid olur və ziyarətçilərə islam dininin tələblərinə uyğun qida, yaşayış və digər xidmətləri təmin edir.

Turizmdə diqqətçəkən digər məqamlardan biri də ötən ilin eyni dövrü ilə müqayisədə yanvar-fevral-mart aylarında uzaq Asiyadan, xüsusilə də Çindən, Hindistandan, Cənubi Koreyadan, Filippindən Azərbaycana gələn turistlərin sayında artım qeydə alınıb. Ekspertlərin fikrincə, bu, yaz fəslinin sonunda, eləcə də yay aylarında turistlərin sayının dəfələrlə çox olacağına əminlik yaradır. Digər tərəfdən "Konstitusiya və Suverenlik İli" çərçivəsində turizm sektorunda əlavə dalğalanmaların baş verəcəyi və turist axınının sayının 3-4 dəfə çoxalacağı gözlənilir. Sözsüz ki, "Konstitusiya və Suverenlik İli" ölkəmizin tanınmasında, eləcə də onun turizm potensialının dünyaya çatdırılmasında gözəl imkanlar açır və turizmin inkişafına yeni təkan verəcək. Odur ki, turizm agentlikləri günün tələblərinə uyğun olaraq xaricilərin hotellərə yerləşdirilməsi, istirahətlərinin təşkili, paytaxtımızla tanışlıq kimi məsələləri diqqətdə saxlamaq üçün öz infrastrukturlarını və xidmət fəaliyyətlərini hazır vəziyyətə gətiriblər.

"Konstitusiya və Suverenlik İli" Azərbaycana gələn turistlərin Bakı şəhəri ilə yanaşı, bölgəmizin də tarixi-mədəni abidələrini, görməli məkanlarını ziyarət etmələrinə stimul verəcək. Onu da qeyd edək ki, Azərbaycan hökuməti xarici turistlərin ölkəmizə problemsiz gəlişi üçün asan viza rejimi təmin etmişdir.

Təbii ki, respublikamızda insanların sağlamlığına hesablanmış yeni qurulan istirahət məkanları, dövlət tərəfindən edilən güzəştlər turizm sektorunda xərclərin azalmasına və qiymətlərin ucuzlaşmasına imkan yaradacaq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Teatr xadimləri

# Yaradıcılıq axtarışları ona böyük uğurlar gətirirdi

Sənət adamları heç vaxt unudulmur. Əbədi olaraq yazıb-yaratdıqları əsərlərdə, çəkildikləri filmlərdə, oynadıqları obrazlarda yaşayır, tanınır və sevilirlər. Onlar hər zaman xatırlanırlar. Bütün nəsillərin müasirlərinə çevrilirlər, insanları güldürürlər, düşündürür və maarifləndirirlər. Buna görə də əbədi olaraq yaddaşlara köçüb qalırlar. Bu nöqteyi-nəzərdən yanaşanda sənət adamlarını dünyanın ən xoşbəxt insanları hesab etmək olar. Azərbaycan rejissorluq məktəbinin görkəmli nümayəndələrindən biri olan rejissor və aktyor Əşrəf Hacı oğlu Quliyev də taleyinə belə xoşbəxtlik yazılan insanlardandır. Ötən əsrin ortalarından başlayaraq, sovet rejiminin hökm sürdüyü bir dövrdə Azərbaycan teatr sənətinin çiçəklənməsində, inkişafında onun da əvəzsiz xidmətləri və əməyi olmuşdur.



Bu böyük sənət adamının keçdiyi ömür yolunu vərəqlədik. Öyrəndik ki, Əşrəf Quliyev 1924-cü il iyulun 29-da Bakı şəhərində anadan olub. Aktyor olmaq arzusu ilə 1937-ci ildə, ölkədə repressiya dalğasının hökm sürdüyü bir zamanda Bakı Teatr Texnikumuna qəbul olunub. 1938-ci ildə Aktyorluq fakültəsini uğurla başa vurub. Təhsilini bitirəndən sonra həmin dövrdə fəaliyyət göstərən İncəsənət İşləri İdarəsinin sərəncamı ilə onu C.Cabbarlı adına İrəvan Dövlət Teatrında işləməyə göndəriblər. Həmin dövrdə onun ürəyi arzularla dolu idi. Amma təəssüflər olsun ki, Əşrəf Quliyev bu teatrda 1941-ci ilə qədər işləyə bilib. Milyonlardan biri kimi amansız müharibə onun da arzularının həyata keçməsinin qarşısına sədd çəkib.

1941-ci ildə Hitler Almaniyasının keçmiş SSRİ üzərinə hücum etməsi nəticəsində dünyanı silkələyən, milyonların ömrünə faciəli şəkildə son qoyan müharibə başlamışdı. Həmin günlərdə başqaları kimi Əşrəf Quliyev də əsgər çağırılmış və sovet ordusunun sıralarında cəbhəyə göndərilmişdi. Onun döyüş yolu Ukraynadan başlamış, Belarusiyadan, Polşadan və başqa cəbhələrdən keçərək Berlinə qədər uzanmışdır. Berlin uğrunda gedən son döyüşlərdə isə ön sıralarda vuruşmuşdur. Əşrəf Quliyev cəsur bir əsgər kimi üzərinə düşən döyüş tapşırığını yerinə yetirmiş, böyük qəhrəmanlıq və hünər göstərmişdir. Onun döyüşlərdə göstərdiyi rəşadət və qəhrəmanlıq layiqincə qiymətləndirilmişdir. Əməliyyatlardakı igidliyinə görə Əşrəf Hacı oğlu Quliyev "Qırmızı ulduz" ordeni ilə, "Döyüş xidmətlərinə görə" və başqa medallarla təltif edilmişdir.

Əşrəf Quliyev 1946-cı ildə ordu sıralarından tərxis olunmuş, doğmalarının yanına qalib əsgər kimi qayıtmışdır. O, 1941-ci ildə yarımçıq qalmış sənət yolunu davam etdirmək üçün C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında aktyor kimi fəaliyyətə başlamışdır. Əşrəf Quliyev 1947-ci ilə qədər bu teatrda çalışmışdır. Bu müddət ərzində səhnədə müxtəlif rollar canlandırmış, bir-birindən maraqlı obrazlar yaratmışdır.

Təhsilini artırmaq məqsədilə Əşrəf Quliyev 1947-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Rejissorluq fakültəsinə qəbul olmuşdur.

Təhsilini uğurla başa vurduqdan sonra o, 1953-cü ildən M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Teatrında) rejissor kimi işləməyə başlamışdır. İllərdən bəri ürəyində gəzdirdiyi arzuları bu mədəniyyət ocağında gerçəkləşdirmişdir.

Həmin illərdə M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının baş rejissoru Xalq artisti Adil İskəndərov idi. Əşrəf Quliyev tamaşalara quruluş verərkən teatrın bir çox tanınmış aktyoru ilə yaxından ünsiyyət qurmuş və fəxri titula malik bu sənətkarlarla sərbəst işləmişdir. Tamaşaların dekorativ və musiqi tərtibatlarında fəal iştirak etmişdir. Onun dəyərli yaradıcılıq təklifləri rəssamlar tərəfindən rəğbətlə qarşılanmış və tamaşaların nümayişi zamanı istifadə olunmuşdur.

Görkəmli aktyor Adil İskəndərov onun yaradıcılığına həmişə yüksək dəyər vermişdir. Bildirmişdir ki, gənc rejissor Əşrəf Quliyev kollektivlə işləyərkən özünü bacarıqlı yaradıcılıq fəndləri olan yaxşı tamaşa təşkilatçısı, səliqəli və diqqətli insan, bütün varlığını yaradıcılığa həsr etmiş sənət adamı kimi göstərmişdir. Təbiidir ki, teatr rəhbərinin sənət yollarında yenicə addım atan gənc rejissor haqqında dediyi bu dəyərli sözlər onun gələcəkdə qazanacağı böyük uğurlardan xəbər verirdi. İllər sonra Əşrəf Quliyev gördüyü böyük yaradıcılıq işləri ilə haqqında deyilən sözlərə layiq olduğunu göstərmişdi.

Əşrəf Quliyev M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında çalışdığı 30 il ərzində böyük tarixi keçmişi olan bu sənət ocağının səhnəsində müxtəlif illərdə M.F.Axundzadənin "Hacı Qara", Yuri Osnos və Viktor Vinnikovun "Hind gözəli", S.Rəhmanın "Toy", "Əliqulu evlənir", C.Başqutun "Köç", M.İbrahimovun "Yaxşı adam", C.Cabbarlının "Oqtay Eloğlu", A.Safronovun "Gecənin sirri", A.Ostrovskinin "Müdriklər", B.Vahabzadənin "İkinci səs", "Yollara iz düşür", İ.Əfəndiyevin "Mənim günahım", V.Şekspirin "Heç nədən hay-küy" və başqa müəlliflərin onlarca dram əsərlərini tamaşaya hazırlamışdır. Bu əsərlər həm sənət adamları, həm də tamaşaçılar tərəfindən böyük sevgi ilə qarşılanmışdır.

Görkəmli rejissor Əşrəf Quliyevin əsərlərin tamaşaya qoyulması prosesinə fərqli, özünəməxsus yanaşması var imiş. O, ilk addım olaraq əsərin personajlarına uyğun aktyorları seçər və onlarla olduqca səmərəli iş aparar, dəyərli məsləhətlər verərmiş.

Əşrəf müəllim daim yeniliklər axtarışında idi. Bu axtarışlar isə həmişə ona böyük uğurlar gətirirdi. Onun səhnələşdirdiyi tamaşalar incə rejissor tapıntıları ilə zəngin olurdu. Əşrəf Quliyevin iştirakı ilə rəssamların tamaşalara verdikləri bədii tərtibat, poetik mənzərələr, bəstəkar musiqiləri əsərlərin lirizmini daha da artırır, təsir gücünü əhəmiyyətli dərəcədə yüksəldirdi. Görkəmli rejissor hazırlayacağı tamaşların eskizlərini də özü çəkirdi. Onların maraqlı alınması, sevə-sevə baxılması üçün bir gün, bir an olsun belə yaradıcılıq axtarışlarından qalmırdı. 1960-cı illərdə onun quruluş verdiyi "Hind gözəli" əsərinə tamaşaçılar çox böyük maraq göstərmişdilər. Buna görə də həmin tamaşa sezon ərzində 95 dəfə nümayiş etdirilmişdir. Bütün bunlar isə rejissor istedadının uğuru və zəfəri kimi qiymətləndirilməlidir.

Əşrəf Quliyevin yaradıcılıq fəaliyyəti sərhəd tanımırdı. O həm istedadlı rejissor, həm bacarıqlı səhnələşdirmə mütəxəssisi, həm də bir çox rus və xarici dramaturqun pyeslərinin tərcüməçisi idi. Ə.Quliyev həm də peşəkar pedaqoq kimi fəaliyyət göstərmişdir. O, 1958-ci ildən başlayaraq bir vaxtlar tələbəsi olduğu M.A.Əliyev adına İncəsənət İnstitutunda (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində) aktyor sənətindən dərs demişdir. Uzun illər ərzində qazandığı təcrübəsini, səriştəsini böyük həvəslə gələcəyin aktyor və rejissorlarına aşılamışdır. İstedadlı rejissor 1981-ci ildən 1985-ci ilə qədər bu ali təhsil ocağında Rejissorluq kafedrasının müdiri, professor vəzifələrində çalışmışdır.

Dövlətimiz zamanında onun fəaliyyətinə yüksək qiymət vermişdir. 1974-cü il iyunun 1-də "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Rejissor Əşrəf Quliyev 10 fevral 1994-cü ildə Bakıda vəfat etmiş və Yasamal qəbiristanlığında dəfn edilmişdir. Vətən və xalq üçün çalışan, işıqlı işlər görən insanlar heç vaxt unudulmurlar. Onlar ölümlərindən sonra da həmişə xatırlanır və yad edilirlər. Tanınmış rejissor Əşrəf Quliyev belə unudulmaz insanlardandır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Beynəlxalq Xalça Festivalı keçiriləcək




Bakının əsrarəngiz İçərişəhərində mayın 2-4-də Beynəlxalq Xalça Festivalı təşkil olunacaq. Tədbirdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və "Azərxalça" ASC-nin təşkilatçılığı, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO-nun dəstəyi ilə baş tutacaq. Festivalın keçirilməsində əsas məqsəd Azərbaycan xalçaçılıq sənətini dünya müstəvisində tanıtmaq, onun zəngin irsini və gələcək inkişaf perspektivlərini nümayiş etdirmək, dünya xalçaçılarının təcrübə və bacarıqlarından bəhrələnməkdir.

Festivalın mayın 2-də Beynəlxalq Xalça Forumu ilə açılması nəzərdə tutulub. "Azərxalça" ASC-dən aldığımız məlumata görə, forum xalça sənayesinin aparıcı mütəxəssislərini, dizaynerləri, istehsalçıları və tədqiqatçıları bir araya gətirəcək. Plenar sessiyalar, panel müzakirələri, B2B görüşlər və gənc alimlər üçün xüsusi sessiyalar təşkil ediləcək. Məlumatda festivalın mayın 3-4-də İçərişəhərin tarixi küçələrində davam etdiriləcəyi bildirilib. Qədim karvansaralar və meydanlar xalça sərgiləri, ustad dərsləri, interaktiv teatr tamaşaları və musiqili tədbirlərə evsahibliyi edəcək. Dünyanın müxtəlif ölkələrindən gələn nümayəndələr öz xalçaçılıq ənənələrini təqdim edəcək, iştirakçı ölkələrin milli pavilyonları fəaliyyət göstərəcək.

Qeyd edək ki, festival İçərişəhərin UNESCO Ümumdünya İrs Siyahısına daxil edilməsinin 25, Azərbaycanın ənənəvi xalçaçılıq sənətinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsinin isə 15 illiyi ilə üst-üstə düşür.

Festival günlərində xalçaçılıq sənətinə dair eksklüziv sərgilər, ustad dərsləri, interaktiv tədbirlər, konsert proqramları və uşaqlar üçün xüsusi maarifləndirici fəaliyyətlərin təşkili də nəzərdə tutulub.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# "Xalq yazıçısı Süleyman Rəhimov - 125" adlı elektron məlumat bazası istifadəyə verilib




Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, nasir və ictimai xadim, Xalq yazıçısı Süleyman Rəhimovun anadan olmasının 125 illiyi tamam olur. Bu münasibətlə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında bir sıra silsilə materiallarla yanaşı, "Xalq yazıçısı Süleyman Rəhimov - 125" adlı elektron məlumat bazası da hazırlanıb.

Kitabxanadan bildirilib ki, Azərbaycan və rus dillərində hazırlanan bazada yazıçının həyat və fəaliyyətinin əsas tarixləri, bir sıra görkəmli şəxslərin onun haqqında söylədikləri dəyərli fikirlər, rəsmi sənədlər, layiq görüldüyü orden, mükafat və fəxri adlarla yanaşı, professor Fazil Qaraoğlunun "Tarixdə iz buraxanlar: Süleyman Rəhimov", AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun XX əsr Azərbaycan ədəbiyyatı şöbəsinin elmi işçisi Ədalət Rəsulovanın "Zamanın hüdudlarını aşan sənətkar", filologiya üzrə fəlsəfə doktoru, dosent Elnarə Qaragözovanın "Sosrealizm: Azərbaycan modeli - Süleyman Rəhimov" kimi məqalələrinin tam mətni təqdim edilir.

# "Vaqif Mustafazadəyə sevgi ilə" adlı konsert proqramı təşkil edilib

Beynəlxalq Ev-Muzeyləri Günü münasibətilə Vaqif Mustafazadənin ev-muzeyində "Vaqif Mustafazadəyə sevgi ilə" adlı konsert keçirilib.



Tədbirdə çıxış edən Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, sənətşünaslıq elmləri doktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova, V.Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin direktor müavini Səbinə Əliyeva və Şövkət Ələkbərova adına 20 nömrəli 11 illik musiqi məktəbinin direktoru Bəhriyyə Allahverdiyeva əlamətdar günlə bağlı fikirlərini bölüşüblər.

Bədii hissədə şagirdlər maraqlı konsert proqramı təqdim ediblər.

# "Xocavənd əməliyyatı" şəhidlərinin xatirəsi anılıb





"Xocavənd əməliyyatı"nın ildönümündə 7 kəşfiyyatçı hərbçimizin şəhadətə ucaldığı əraziyə səfər təşkil olunub. Şəhidlərin xatirəsi və hərb tarixinə nümunə olan qəhrəmanlığı bir daha xatırlanıb.

AZƏRTAC xəbər verir ki, Müharibə Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının xətti ilə təşkil edilən səfərdə şəhid ailələri, qazi və veteranlar iştirak ediblər.

Yuxarı Güzlək kəndi ərazisində "Xocavənd əməliyyatı" şəhidlərinin xatirəsinə salınan guşə ziyarət edilib. Hərbi orkestrin ifasında Dövlət himni səsləndirilib, şəhidlərin xatirəsi sükutla anılıb.

Çıxış edənlər qəhrəman hərbçilərimizin keçdiyi şərəfli döyüş yolundan danışıblar. Bildirilib ki, 1997-ci il aprelin 7-də Azərbaycan Respublikası Müdafiə Nazirliyi Kəşfiyyat İdarəsinin əmri ilə iki kəşfiyyat qrupu xüsusi tapşırıqla Xocavənd rayonu ərazisinə göndərilib. Tapşırığın məqsədi Ermənistan ordusunun Xocavənd rayonunda dislokasiya yerlərinin müəyyən edilməsi, düşmənin canlı qüvvəsi, malik olduğu döyüş texnikaları haqda məlumatların toplanması, hərbi eşelonlarında istehkam-mühəndis hazırlığının hansı vəziyyətdə olduğunun öyrənilməsi olub. Birinci qrup tapşırığı yerinə yetirərək itkisiz qayıdıb. Leytenantlar Elxan Ağayev (qrup komandiri) və Vüqar Yarəhmədov, çavuşlar Anar Rzayev, Dinar Musatafayev və Aqil Əhmədovdan ibarət olan ikinci qrup Füzuli rayonu Horadiz istiqamətindən təmas xəttini keçib və təxminən 40-50 kilometr yol qət edərək döyüş tapşırığını yerinə yetiriblər. Lakin əməliyyatın üçüncü günü, geri qayıdarkən Füzuli rayonunun Yuxarı Güzlək kəndi ərazisində düşmən tərəfindən aşkarlanıblar. Ermənilər kəşfiyyat qrupunu mühasirəyə alıb və təslim olmalarını tələb ediblər. Təslim haqqında təklif kəşfiyyatçılarımız tərəfindən rədd edildikdən sonra ağır döyüş başlayıb.

Çavuş Aqil Əhmədov isə ağır yaralanıb və huşsuz vəziyyətdə qalıb, döyüşçü yoldaşları onun şəhadətə ucaldığını düşünüblər. Qrupun digər yeddi üzvü döyüşə davam ediblər. Onlar sursatları tükəndiyindən düşmənin əlinə keçməmək üçün özlərini əl qumbarası ilə partladıblar. Huşsuz vəziyyətdə qalan çavuş Aqil Əhmədov ermənilər tərəfindən aşkarlanıb, onun sağ olduğu bilinib və düşmən tərəfindən əsir götürülüb. Əməliyyat zamanı şəhid olmuş hərbçilərin nəşlərini erməni tərəfindən yalnız altı aydan sonra almaq mümkün olub. Onlar Bakıdakı İkinci şəhidlər xiyabanında dəfn olunublar. Onların hər biri Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müvafiq fərmanı ilə "Azərbaycan Bayrağı" ordeni ilə təltif ediliblər. Ermənilər tərəfindən əsir götürülən Aqili isə 1998-ci ilin fevral ayında ermənilər məhkəmə qarşısına çıxararaq bir neçə maddə ilə ittiham irəli sürərək ona güllələnmə hökmü təyin ediblər. Dövlətimiz tərəfindən Aqilin xilas edilməsi üçün bütün zəruri tədbirlər həyata keçirilib. Uzun sürən danışıqlardan sonra 1999-cu ilin mart ayında Ulu Öndər Heydər Əliyevin köməkliyi ilə Aqili bir erməni əsir və iki erməni cəsədi ilə dəyişmək mümkün olub və Aqil Vətənə qayıdıb.

Həmçinin çıxışlar zamanı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan ordusunun parlaq qələbəsi sayəsində torpaqlarımızın azad edilməsindən danışılıb. Bildirilib ki, qəhrəman oğullarımız öz canı-qanı bahasına tarix yazıblar. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərba olunub. Artıq azad edilən ərazilərə həyat qayıdıb, keçmiş məcburi köçkünlər öz doğma yurdlarına qovuşublar.

Qeyd edək ki, İkinci Qarabağ müharibəsində rəşadətli Azərbaycan ordusunun parlaq qələbəsi ilə torpaqlarımız işğaldan azad edildikdən sonra "Xocavənd əməliyyatı" şəhidlərinin xatirəsinə onların şəhid olduğu ərazidə bulaq tikilib və simvolik bir güşə yaradılıb.

# Özünüməşğulluq proqramı ilə bağlı keçirilən sorğunun nəticələri açıqlanıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya tərəfindən özünüməşğulluq proqramı iştirakçıları arasında sorğu keçirilib.

Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyinin sifarişi əsasında keçirilən sorğuya özünüməşğulluq reyestrindən sadə təsadüfi seçmə metodu ilə 1100-dək şəxs cəlb olunub. Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, sorğunun nəticələrinə əsasən, respondentlərin 80 faizi proqramdan, 94 faizi məşğulluq orqanları əməkdaşlarının proqramda iştirak üçün müraciət edənlərə münasibətindən, 89 faizi proqram üzrə keçirilən təlimlərdən, 83 faizi proqrama müraciət qaydalarından məmnun olduğunu qeyd edib.

Onlardan 79 faizi proqramın əhatə etdiyi iqtisadi fəaliyyət növləri üzrə zərflərin çeşidliyindən, 71 faizi proqram üzrə aktivlərlə təmin edilmək üçün növbədə olma müddətindən razı qaldığını, 70 faizi proqramın dəstəyi ilə qurduğu biznesini hazırda davam etdirdiyini bildirib. Sorğunun nəticələrinə əsasən, özünüməşğulluq proqramının əhatə etdiyi zərflər üzrə qurulan bizneslərin davamlılığının ən yüksək olduğu ilk beşlikdə avtoçilingər xidmətləri (89 faiz), kiçik dərzi sexi (87 faiz), qadın gözəllik salonu (83 faiz), un məmulatları istehsalı (75 faiz), keçiçilik təsərrüfatı (73 faiz) yer alıb.

Proqramın əhatə etdiyi fəaliyyət istiqamətləri üzrə ən yüksək biznes davamlılığı isə xidmət istiqaməti üzrə (78 faiz) olub. Həmin göstərici istehsalat istiqaməti üzrə 72 faiz, kənd təsərrüfatı istiqaməti üzrə 64 faiz təşkil edib.

# ÜST yeni pandemiyanın qaçılmaz olduğunu bildirir

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesus bildirib ki, dünya gec-tez yeni pandemiya ilə üzləşəcək. Onun sözlərinə görə, bu, "nəzəri risk deyil, epidemioloji əminlikdir".



Gebreyesus bu məsələni pandemiyanın qarşısının alınmasına dair saziş hazırlayan Hökumətlərarası Danışıqlar Orqanının 13-cü sessiyasında qaldırıb. O xatırladıb ki, koronavirus pandemiyası zamanı dünyada rəsmi olaraq 7 milyon insan dünyasını dəyişib, baxmayaraq ki, ÜST qurbanların sayının 20 milyon təşkil etdiyi qənaətindədir.

Təşkilat rəhbəri pandemiyanın qlobal iqtisadiyyatda 10 trilyon dollardan çox vəsaiti məhv etdiyini də bildirib. Onun sözlərinə görə, növbəti pandemiya 20 il sonra və ya daha çox, bəlkə də sabah başlaya bilər. Ancaq bu, mütləq baş verəcək və hər bir halda buna hazır olmaq lazımdır.

Qeyd edilib ki, 2021-ci ilin dekabrından pandemiya ilə mübarizə üzrə saziş üzərində iş aparılır. ÜST rəhbəri dünya ölkələrini sənədin imzalanmasında iştirak etməyə çağırıb.

Xatırladaq ki, 2019-cu ilin dekabr ayında Çin səlahiyyətliləri Uhanda pnevmoniyanın baş verdiyini açıqlayıb. 2020-ci ilin mart ayında ÜST-nin baş direktoru virusun sürətlə yayılması səbəbindən COVID-19-u pandemiya elan edib. Təşkilat 2023-cü ilin mayında pandemiyanın sona çatdığını bildirib. 2025-ci ilin fevralında insanlar üçün potensial yoluxucu ola biləcək yeni bir koronavirus aşkar edilib. Çinli mütəxəssislərin araşdırması Quançjou laboratoriyasında Çin Elmlər Akademiyasının Quançjou filialının, həmçinin Uhan Universiteti və Uhan Virusologiya İnstitutunun alimləri ilə birlikdə aparılıb. Araşdırma işinə Uhandakı laboratoriyada koronavirusu da tədqiq edən çinli virusoloq Şi Zhengli rəhbərlik edib.

Məlumata görə, Hon-Konqda hamar burunlu yarasalar cinsinə aid olan Yapon yarasasında Merbecovirus alt cinsinə (əvvəllər 2c qrup koronaviruslar kimi tanınırdı) aid yeni virus müəyyən edilib. Virus HKU5-CoV-2 adlandırılıb. Alimlər yarasa nümunələrindən təcrid olunmuş virusun insan hüceyrələrinə sirayət edə biləcəyini aşkar ediblər. Komanda qeyd edir ki, HKU5-CoV-2 daha geniş yoluxma diapazonuna və növlərarası infeksiya üçün yüksək potensiala malik ola bilər.





Bununla belə, hələ narahat olmaq üçün ciddi əsas yoxdur. Alimlərin fikrincə, HKU5-CoV-2-nin insan populyasiyalarında görünmə riski şişirdilməməlidir. Molekulyar bioloq Sergey Xaritonov qeyd edir ki, elm adamları yarasada tapılan yeni koronavirusa yoluxma hallarından hələ ki, xəbərdar deyillər, vəziyyət əlavə monitorinq tələb edir.

Yoluxucu xəstəliklər üzrə mütəxəssis Andrey Pozdnyakovun fikrincə, "kiminsə nadinc əlləri yenidən bu virusla oynamasa və onun patogenliyini və virulentliyini artırmasa", risklər yaranmayacaq.

Çinli mütəxəssislər aşkar edilmiş virusla bağlı daha ətraflı araşdırma aparmaq niyyətindədirlər.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Ermənistanda vəziyyət gərginləşir

## Kütləvi bahalaşmalar və digər xərclərin artması ciddi etirazlara səbəb olub



Ermənistanda belə fikir formalaşıb ki, mövcud problemlərin meydana gəlməsi və dərinləşməsində Paşinyan iqtidarının yarıtmaz siyasəti əsas rol oynayır. Məhz bu, ölkəni siyasi və iqtisadi müstəvidə dalana dirəyib. Eyni zamanda hakimiyyətdə təmsil olunanların yaratdıqları korrupsiya və rüşvət piramidası ölkə iqtisadiyyatının inkişafını əngəlləyən əsas faktorlardan biri olaraq qiymətləndirilir.

Ermənistan Statistika Komitəsinin məlumatına əsasən, ölkədə sənaye istehsalı 2025-ci ilin ilk iki ayında keçən ilin eyni dövrü ilə müqayisədə 19,4 faiz azalıb. Demək olar ki, bütün əsas ixrac sektorunda mənfi dinamika müşahidə olunur. Məlumata görə, ən ciddi azalma metallurgiya sektorundadır - təxminən 7 dəfə azalma ilə 35,6 milyard dram (təxminən 90 milyon ABŞ dolları) təşkil edir. Əvvəllər bu sektorda artım üçüncü ölkələrə təkrar ixrac üçün nəzərdə tutulmuş xaricdən gətirilən qızıl külçələrinin ilkin emalı və sonradan zərgərlik sənayesində istifadə olunması hesabına baş verirdi.

Statistikaya görə, metallurgiyanın digər sahələrində də azalma qeydə alınıb. Dəmir-molibden istehsalı 31,2 faiz, alüminium folqa istehsalı 4,3 faiz azalıb. Bu mallar Ermənistanın Avropa İttifaqı bazarında əsas ixrac malları sırasındadır. Ölkənin əsas ixrac xammal məhsulu olan mis konsentratının istehsalı isə 30 faiz azalıb.

Spirtli içkilərin istehsalında da mənfi dinamika müşahidə olunur: konyak istehsalı demək olar yarıbayarı - 45,3 faiz (100 faiz spirt baxımından 2 milyon litrdən bir qədər çox), şərab istehsalı isə 33,3 faiz (təxminən 846 min litrə qədər) azalıb.

Yüngül sənayedə də 16,5 faiz azalma qeydə alınıb. Söhbət Ermənistan fabriklərinin Avropa ölkələrinin və Rusiyanın sifarişi ilə istehsal etdiyi geyimlərin hazırlanmasından gedir.

İxrac da 2025-ci ilin ilk iki ayında 60 faiz (2,5 dəfə) azalaraq 1 milyard 41 milyon ABŞ dolları təşkil edib. Azalma demək olar bütün əsas sahələrə təsir göstərib: konyak və digər sərt spirtli içkilərin ixracı 16 faiz, dəmir-molibden - 60 faiz, mis və molibden konsentratları - müvafiq olaraq 20 faiz və 40 faiz azalıb.

Xarici ticarət dövriyyəsində qeydə alınan mənfi saldonun həcminin mütəmadi olaraq artması Ermənistan iqtisadiyyatının ixrac potensialının tənəzzüldə olduğunu göstərən vacib faktordur. İş o yerə çatıb ki, əvvəl Ermənistanda istehsal edilən bəzi məhsullara olan tələbat artıq idxal hesabına ödənilir. Bunun əsas səbəblərindən biri Ermənistanda fəaliyyət göstərən müəssisələrin bir çoxunun fəaliyyətini dayandırması və ya başqa ölkənin ərazisinə köçməsidir. Hazırda Ermənistanda əmək qabiliyyətli əhalinin 60 faizindən çoxu işsizdir. Bu göstərici son aylardan xüsusilə artıb. Buna səbəb həm də hakimiyyətin pandemiya dövrünün tələblərinə uyğun sosial-iqtisadi siyasət yürüdə bilməməsidir. "4rd.am" saytı yazır ki, ilin əvvəlindən bəri ölkədə xeyli sayda müəssisə, şirkət və səhmdar cəmiyyət, habelə biznes və ticarət obyektləri, kiçik və orta sahibkarlar fəaliyyətini dayandırıb. Pandemiya və müharibə nəticəsində il ərzində təkcə paytaxt İrəvanda iş yerini itirmiş insanların sayı 200 mini ötüb.

Ermənistanda sakinlərin çoxu bərbad vəziyyətdə yaşayır. Belə həyat sürən erməni sakinlər arasında baş nazir Nikol Paşinyanın bir zamanlar layiqli təqaüd və ləyaqətli həyat vəd etdiyi təxminən 500 mindən çox təqaüdçü var. 2018-ci il inqilabından sonra Ermənistan hökuməti təqaüdləri 5 dəfə artırmaq barədə qərar qəbul etmişdi. Lakin Paşinyan unudur ki, təqaüd artımı hökumətin neçə dəfə qərar qəbul etməsi ilə deyil, bu qərarların nəticəsində təqaüdlərin nə qədər artması ilə ölçülür. Rəsmi statistika göstərir ki, son 7 ildə Ermənistanda təqaüdlər cəmi 8802 dram artıb.

Nikol Paşinyanın hakimiyyətə gəlməsindən əvvəl, yəni 2017-ci ilin sonunda Ermənistanda orta təqaüd 40.296 dram təşkil edirdi. Paşinyanın hakimiyyətə gəlməsindən və təqaüdçülərə layiqli təqaüd vəd etməsindən sonra orta təqaüd 49.980 dram olub.

Nikol Paşinyanın baş nazirlik etdiyi 7 il ərzində Ermənistanda təqaüdlər orta hesabla illik cəmi 1257 dramla artıb. Bu müddətdə həyat nə qədər bahalaşıb, onu isə erməni sakinlər, xüsusilə də təqaüdçülər öz üzərlərində çox yaxşı hiss edirlər. Kütləvi bahalaşmalar və digər xərclərin artması bir yana, təkcə əmlak vergisinin dəfələrlə artması bunu təsəvvür etmək üçün kifayətdir. Məlumata görə, orta təqaüd son 7 ildə 22 faiz artıb. Bu, hətta rəsmi qeydə alınmış kumulyativ inflyasiyadan da azdır.

Bunların nəticəsidir ki, hakimiyyətin vətəndaşlar arasında dayağı laxlayıb. Odur ki, Paşinyanın istefasını tələb edənlərin sırası gündən-günə çoxalır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

"Gəncə Xalça Kombinatı" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış 10A sinfinin məzunları sinif yoldaşları Arif Xəlilova və Pərvanə Məmmədovaya əzizləri

**RAYA ƏHMƏD QIZI HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi Bəylər Eyyubova əzizi

**XALİDƏ ŞAHVERDİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İsfəndiyar, Zakir və Şakir Acalovlar Sumqayıt Şəhər Polis İdarəsi Dövlət Yol Polisi Şöbəsinin rəisi Şamxal Əliyevə anası

**TÜNZALƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Ramin Əliyevə atası

**RZAXAN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3478**
**Sifariş 685**

**Qiyməti 60 qəpik**